Xalqın qəzeti!

# Xalq qəzeti

№ 185 (30301) 30 avqust 2023-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

**Günün sözü**

**Prezident İlham Əliyev:**

Nə üçün hər hansı bir etnik qrup istisna olmalıdır və digərlərindən üstün olmalıdır? Biz hələ də ümid edirik ki, Xankəndidə yaşayan insanların sağlam düşüncəyə malik bir hissəsi dərk edəcək ki, bu yanaşmanın perspektivi yoxdur.

# Qızıl Aypara “aclıq” mifini dağıtmağa gedib



**Bakıdan Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən Qarabağda yaşayan ermənilərin ehtiyaclarını ödəmək üçün humanitar yardım yola salınıb. İlkin mərhələdə humanitar yardım 40 ton undan ibarətdir.**

Əslində xoşniyyətli, sülhməramlı yardım karvanı belə olur. Azərbaycan hakimiyyəti Qızıl Aypara Cəmiyyətinin eqidası altında gerçəkləşdirdiyi bu humanist addımı ilə həm də Qarabağ erməni sakinlərinə sahib çıxmağa hazır olduğunu nümayiş etdirdi. Axı Azərbaycan özünün suveren ərazisində – Qarabağ iqtisadi rayonundakı on min erməni silahlısını bombalamaq fikrinə düşməyib. Bunun tamamilə əksinə olaraq, Bakı doğma Qarabağ bölgəsində yaşayan, amma bizim vətəndaşlarımız olmayan ermənilərı ehtiyac duyduqları ilkin tələbat malı ilə – çörəyə çevriləcək unla təmin etmək niyyətindədir. Burada hansısa alt niyyət axtarmağın yeri varmı? Əlbəttə, yoxdur. İndi həmin Qərbdə özünün suveren ərazisində ölkə və beynəlxalq qanunvericiliyə və milli maraqlarına tam uyğun şəkildə hərəkət etməyə haqqı olan Azərbaycanı qınamağa kimin cürəti çatar?!

*(ardı 3-cü səhifədə)*

# Ermənistan Ağdam–Laçın yolunun açılmasına əngəl yaradır

**Avqustun 29-da Fransa Respublikasının Prezidenti Emmanuel Makron Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**



Telefon danışığı əsnasında regiondakı vəziyyət, Ağdam–Xankəndi və Laçın–Xankəndi yollarının açılması məsələsi müzakirə olunub.

Dövlətimizin başçısı bildirib ki, Ağdam-Xankəndi yolunun istifadəsinə məqsədyönlü şəkildə Ermənistan və onun Azərbaycanın Qarabağ bölgəsində yaratdığı və dəstəklədiyi qondarma rejim tərəfindən süni əngəllər yaradılır və bundan siyasi manipulyasiya məqsədilə istifadə edilir.

Azərbaycan Prezidenti qeyd edib ki, Ermənistan və qondarma rejim Beynəlxalq Qırmızı Xaç Komitəsinin vasitəçiliyi ilə Ağdam–Xankəndi yolu ilə yüklərin daşınması barədə əldə olunmuş ilkin razılaşmadan imtina edib. Həmçinin Ermənistan rəhbərliyi Azərbaycan tərəfi ilə razılaşdırmadan dövlət sərhədi istiqamətində humanitar təyinatlı olduğunu iddia etdiyi yüklər gətirib ki, burada məqsəd siyasi möhtəkirlikdir.

Dövlətimizin başçısı Azərbaycanın Qarabağın erməni əhalisinin təmsilçilərinin reinteqrasiya məsələlərini müzakirə etmək üçün paytaxt Bakıya və Azərbaycanın digər şəhərlərinə dəvət etdiyini, ancaq onların bundan da imtina etdiklərini və məqsədyönlü şəkildə vəziyyətin, guya, humanitar gərginlik xarakteri daşıdığını təqdim etməyə çalışdıqlarını bildirib. Prezident İlham Əliyev qeyd edib ki, Ağdam–Xankəndi yolu açıldıqdan sonra Azərbaycanın gömrük və sərhəd rejimi qaydalarına riayət etməklə Laçın–Xankəndi yolundan istifadə ediləbilər.

Eyni zamanda, Prezident İlham Əliyev bu gün Azərbaycan Qızıl Aypara Cəmiyyətinin xətti ilə həmin əraziyə ərzaq yüklərinin çatdırılması üçün avtomobil karvanının yola düşdüyünü qeyd edib.

Prezident Emmanuel Makron vəziyyətin sabitləşdirilməsi və mövcud gərginliyin aradan qaldırılması üçün Fransanın da öz tərəfindən töhfə verməyə hazır olduğunu bildirib, Fransanın və Azərbaycanın aidiyyəti qurumlarının təmaslarının davam etdirilməsini təklif edib.

***Prezidentin Mətbuat Xidmətinin məlumatı***

# Separatçıların Sərsəng su terroru



**Prezident İlham Əliyev çıxışlarının birində azad edilmiş torpaqlarda böyük su mənbələrinin mövcud olduğunu və 30 ilə yaxın bir müddətdə bu potensialdan məhrum edildiyimizi bildirib. Ölkə rəhbəri Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətini bu sahədə də apardığını və ekoloji terror həyata keçirdiyini vurğulayıb. Dövlətimizin başçısı daha sonra deyib: “Meşələrin qırılması, qoruqların məhv edilməsi–54 min hektar meşə sahəsi ermənilər tərəfindən kəsilib, dağıdılıb, talanıb, oğurlanıb və bu, böyük cinayətdir. Dəymiş bütün ziyan indi hesablanır, o cümlədən, bu ziyan da hesablanacaq. Onlar bizi sudan məhrum etmişdilər. Sərsəng su anbarı indi də onların nəzarətindədir...”.**

*(ardı 8-ci səhifədə)*

# Xankəndi təşviş və ümidsizlik girdabında

**Azərbaycanın Qarabağ bölgəsində yaşayan separatçı ermənilərin yaratdıqları qondarma rejimin tör-töküntüsünə rəhbərlik edən şəxslər çaşqınlıq və ümidsizlik içindədirlər. Onların son vaxtlar atdıqları addımları nəzərdən keçirdikdə, səsləndirdikləri fikirləri oxuduqda, müxtəlif instansiyalara ünvanladıqları müraciətlərlə tanış olduqda bu qənaətə gəlmək olar. Əminliklə demək olar ki, aprelin 23-də “Laçın” sərhəd nəzarət-buraxılış məntəqəsinin yaradılması ilə separatçıların əlləri hər yerdən üzülüb.**



Qarabağda separatizm ocağı 1980-ci illərin sonunda əsasən İrəvandan körüklənməyə başlamışdı. SSRİ-nin dağılmasını istəyən Moskvadakı bəzi dairələr ermənilərə gen-bol dəstək verib onları qızışdırırdılar. Avropadan Fransa, okeanın o tayından – ABŞ-dan bəzi ermənipərəst dairələr hayların havadarı qismində çıxış edirdilər. Azərbaycanın apardığı uğurla balanslaşdırılmış xarici siyasət nəticəsində vaxtilə ermənilərə verilən dəstək hazırda əhəmiyyətli dərəcədə azalıb. Ermənistanın baş naziri bu il mayın 23-də Qarabağın Azərbaycan ərazisi olduğunu bəyan edib. 2022-ci il fevralın 22-də Moskvada imzalanmış “Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında Müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə” iki ölkənin münasibətlərini keyfiyyətcə yeni mərhələyə çıxarıb. ABŞ Dövlət Departamenti Azərbaycan Prezidentinin Qarabağdakı separatçılarla bağlı amnistiya bəyanatını alqışlayıb. Fransanın qatı erməniperəst addımları isə heç bir fayda vermir. Onun müxtəlif təşəbbüsləri uğursuzluğa düçar olur. Parisin atdığı addımlar Azərbaycanın siyasi iradəsinə təsir etmək gücündə deyil.

*(ardı 4-cü səhifədə)*

# Azərbaycan “yaşıl inkişaf” ölkəsinə çevrilir

**Azərbaycan artıq uzun illərdir ki, beynəlxalq aləmdə özünü nəhəng neft-qaz layihələri ilə bağlı üzərinə düşən öhdəlikləri uğurla gerçəkləşdirən ölkə kimi tanıdıb. İmzalanmış müqavilələrdə heç bir bənd belə dəyişdirilməyib. Respublikamızın “Əsrin müqaviləsi” ilə qazandığı etibarlı tərəfdaş mövqeyi “Yeni Əsrin müqaviləsi”, Cənub Qaz Dəhlizi, TANAP, TAP kimi layihələrlə daha da güclənib.**

(ardı 7-ci səhifədə)



# “Vaqner”in Belarusda mövcudluğu qonşu dövlətləri narahat edir



**Qiyamçı “Vaqner” ruplaşmasının əsas zərbə dəstələrinin Belarusda yerləşməsi bu ölkə ilə qonşu olan dövlətləri, xüsusilə Polşada ciddi təşvişə səbəb olur. Varşavada və Baltikyanı ölkələrin paytaxtlarında hesab edirlər ki, “vaqnerçilər” Belarusda qaldıqca, onlardan hər an arzuolunmaz hərəkətlər gözləmək mümkündür.**

*(ardı 10-cu səhifədə)*

## Anadoluda “Türk Vətəni”nin xilas günü



Səhifə ⇨ 6

## Qarabağ və Şərqi Zəngəzur sürətlə dirçəldilir



Səhifə ⇨ 7

# Dünya bazarında qazın qiymət ziqzaqı



Səhifə ⇨ 10

## B.S.Hüseynovun Azərbaycan Respublikasının Çin Xalq Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Bünyad Səməd oğlu Hüseynov Azərbaycan Respublikasının Çin Xalq Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 avqust 2023-cü il**

## Q.F.Gözəlovun Azərbaycan Respublikasının Türkmənistanda fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Qismət Füzuli oğlu Gözəlov Azərbaycan Respublikasının Türkmənistanda fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 avqust 2023-cü il**

## N.N.Məmmədovun Azərbaycan Respublikasının İraq Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Nəsir Natiq oğlu Məmmədov Azərbaycan Respublikasının İraq Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 avqust 2023-cü il**

## Ə.A.Zeynallının Azərbaycan Respublikasının Çin Xalq Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Əkrəm Akif oğlu Zeynallı Azərbaycan Respublikasının Çin Xalq Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 avqust 2023-cü il**

## H.S.Zeynalovun Azərbaycan Respublikasının Türkmənistanda fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Həsən Sultan oğlu Zeynalov Azərbaycan Respublikasının Türkmənistanda fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 avqust 2023-cü il**

# XİN Fransanı təxribata son qoymağa çağırır

**Fransanın Avropa və xarici işlər naziri Katrin Kalonanın bölgədə sülh və sabitliyə xidmət etməyən, birtərəfli ermənipərəst mövqe sərgiləyən bu kimi açıqlamaları qəbuledilməzdir.**



Bunu Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Katrin Kolonanın səfirlər konfransında çıxışı zamanı səsləndirdiyi fikirlərə dair yerli medianın sualına cavab olaraq deyib.

“Ermənistanın 30 ilə yaxın müddətdə Azərbaycan torpaqlarının işğalına, Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə siyasətinə, soyqırımı və kütləvi qırğınların həyata keçirilməsinə, bir milyona yaxın azərbaycanlının qaçqın və məcburi köçkünə çevrilməsinə və hüquqlarının tapdalanmasına, 2020-ci il müharibəsindən sonra isə Ermənistanın həyata keçirdiyi hərbi-siyasi təxribatlara son qoymaması, kimi faktlara göz yumulması qanunsuz və qeyri-əxlaqi yanaşmanın nümunələridir”, – deyə Azərbaycan XİN rəsmisi diqqətə çatdırıb.

O qeyd edib ki, Azərbaycan Respublikası milli qanunvericiliyi çərçivəsində Qarabağ bölgəsində yaşayan erməni sakinlərin ölkəmizin siyasi, sosial və iqtisadi sferalarına reinteqrasiyası istiqamətində səy göstərir və bu səylərə qarşı maneçilik törədilməsi, guya erməni sakinlərin bölgədən qovulması istiqamətində siyasət həyata keçirildiyi barədə iddialar səsləndirilməsi tamamilə yanlışdır.

“Bir daha Fransa tərəfini bu kimi təhrikçi və təxribatçı fikirlərə son qoymağa çağırırıq”, – deyə Ayxan Hacızadə vurğulayıb.

Qeyd edək ki, Fransanın Avropa və xarici işlər naziri Katrin Kolona səfirlər konfransında çıxışı zamanı “Dağlıq Qarabağın əhalisinə orada yaşamaq imkanı verilməsi, habelə onların hüquqlarına, mədəniyyətlərinə və tarixlərinə hörmət edilməsi istiqamətində səylərin səfərbər olunduğunu” və “Dağlıq Qarabağdan ermənilərin kütləvi axınının təhrik olunması məqsədilə həyata keçirilən sıxışdırılma strategiyasının qanunsuz və qeyri-əxlaqi olduğunu” bildirib.

***“Xalq qəzeti”***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 290** **Bakı şəhəri, 28 avqust 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimatın təsdiq edilməsi barədə” 2000-ci il 11 sentyabr tarixli 167 nömrəli və “Qeyri-hökumət təşkilatının illik maliyyə hesabatının forması, məzmunu və təqdim edilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” 2009-cu il 25 dekabr tarixli 201 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 781-VIQ nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 sentyabr tarixli 167 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 9, maddə 693; 2001, № 11, maddə 722; 2002, № 3, maddə 148, № 7, maddə 455, № 10, maddə 635; 2003, № 10, maddə 629; 2005, № 4, maddə 386, № 6, maddə 534, № 8, maddə 782, № 10, maddə 977, № 11, maddə 1061, № 12, maddələr 1228, 1231; 2006, № 3, maddə 297, № 8, maddə 731, № 9, maddə 830, № 10, maddə 902, № 11, maddə 994; 2008, № 2, maddə 108, № 4, maddə 316, № 8, maddə 787; 2009, № 2, maddə 148, № 10, maddələr 846, 849, № 12, maddə 1079; 2010, № 6, maddə 555; 2011, № 10, maddə 971; 2012, № 3, maddə 263, № 5, maddələr 489, 495, № 7, maddə 777, № 11, maddə 1206, № 12, maddə 1354; 2013, № 4, maddə 444, № 5, maddə 578; 2014, № 1, maddə 76, № 5, maddələr 552, 589, № 6, maddə 746, № 8, maddə 1019, № 12, maddə 1685; 2015, № 12, maddə 1580; 2016, № 3, maddə 611, № 4, maddələr 777, 814, № 6, maddə 1226, № 8, maddə 1449, № 11, maddə 1937; 2017, № 1, maddə 135, № 3, maddə 493, № 6, maddə 1245, № 7, maddə 1491, № 9, maddə 1721, № 10, maddə 1883, № 12 (II kitab), maddə 2545; 2018, № 2, maddə 347, № 3, maddə 628, № 4, maddə 789, № 5, maddə 1122, № 6, maddələr 1360, 1367, № 9, maddə 1929, № 10, maddə 2166; 2019, № 1, maddə 169, № 3, maddələr 513, 564, № 5, maddələr 938, 967, № 6, maddə 1172, № 7, maddələr 1325, 1338, № 10, maddə 1674; 2020, № 6, maddə 783, № 10, maddələr 1282, 1299, № 12 (V kitab), maddə 1580; 2021, № 3, maddə 302, № 12, maddə 1509; 2022, № 4, maddə 414; 2023, № 5, maddə 723; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 6 iyun tarixli 188 nömrəli və 10 avqust tarixli 273 nömrəli qərarları) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat”da aşağıdakı dəyişikliklər edilsin:

1.1. 6-cı hissənin “d” bəndində “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun 9-11-ci və 12-1-ci” sözləri “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun 4-11-ci, 13-cü və 21.7-ci” sözləri ilə əvəz edilsin;

1.2. 7-ci hissənin onuncu abzasından “pul vəsaitlərinin və ya digər” sözləri çıxarılsın və həmin abzasda “məlumatlar” sözü “məlumat və sənədlər” sözləri ilə əvəz edilsin;

1.3. 16-cı hissənin altıncı abzasından “pul vəsaitlərinin və ya digər” sözləri çıxarılsın;

1.4. 33-1-ci hissə üzrə:

1.4.1. birinci abzas aşağıdakı redaksiyada verilsin:

“33-1. Notariuslar daşınmaz əmlakın alqı-satqısı, pul vəsait-lərinin, qiymətli kağızların və ya digər əmlakın, habelə bank, depo, poçt, ödəniş və pul hesablarının idarə olunması, habelə hüquqi şəxslərin yaradılması, onların fəaliyyətinin təmin və idarə edilməsi, bu məqsədlərlə pul vəsaitlərinin toplanılmasının təşkil olunması, habelə hüquqi şəxslərin səhmlərinin və ya paylarının alqı-satqısı ilə əlaqədar əməliyyatlarla bağlı notariat hərəkətləri aparılarkən əməliyyatın predmeti olan əmlakın cinayət yolu ilə əldə edilməsi və ya terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı olmasına şübhə və ya belə şübhə üçün kifayət qədər əsaslar yaradan hallarda, həmçinin bu əməliyyatlar yüksək riskli zonaların vətəndaşları ilə, qeydiyyat, yaşayış və ya əsas fəaliyyət yeri həmin zonalarda olan şəxslərlə və ya onların vasitəsilə, eləcə də həmin zonalarda qeydiyyatdan keçmiş bankda hesaba malik olan şəxslərlə və ya “Hədəfli maliyyə sanksiyaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq sanksiya tətbiq edilən fiziki şəxslərin və qurumların aktivləri ilə bağlı həyata keçirildikdə, yaxud xarici dövlətlərin siyasi nüfuzlu şəxslərinin əmlakı ilə bağlı olduqda, bu barədə məlumat və sənədləri maliyyə monitorinqi orqanına təqdim etməlidirlər.”;

1.4.2. ikinci-doqquzuncu abzaslar ləğv edilsin;

1.4.3. onuncu abzasda “Əməliyyatın tərəflərini qanunvericiliklə müəyyənləşdirilmiş qaydada dəqiq eyniləşdirmək mümkün deyilsə və ya müştəri və ya benefisiar mülkiyyətçi barədə eyniləşdirmə məlumatlarının təqdim edilməsindən imtina edilirsə, habelə müştəri və ya benefisiar mülkiyyətçi ilə bağlı əvvəllər təqdim edilmiş eyniləşdirmə məlumatlarının doğru olmadığı aşkarlandıqda,” sözləri “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyə-ləşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun 4.14-cü maddəsinə uyğun olaraq müştəri uyğunluğu tədbirlərinin tətbiqi mümkün olmadıqda,” sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 25 dekabr tarixli 201 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 12, maddə 1076; 2010, № 6, maddə 548; 2013, № 6, maddə 771; 2014, № 6, maddə 740; 2015, № 1, maddə 68; 2016, № 4, maddə 794; 2018, № 7 (II kitab), maddə 1635, № 9, maddə 1938; 2022, № 3, maddə 271) ilə təsdiq edilmiş “Qeyri-hökumət təşkilatının illik maliyyə hesabatının forması, məzmunu və təqdim edilməsi Qaydası”nın 5.4-cü bəndindən “pul vəsaitlərinin və ya digər” sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 291** **Bakı şəhəri, 28 avqust 2023-cü il**

***“Azərbaycan Respublikası prokurorluq işçilərinin xüsusi geyim forması və fərqlənmə nişanları ilə təmin edilməsi normaları”nın təsdiq edilməsi haqqında***

“Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli 165-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Prokurorluq orqanları işçilərinin fərqlənmə nişanları və xüsusi geyim formasının təsviri”ndə dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 4 aprel tarixli 850-VIQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 may tarixli 2134 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Azərbaycan Respublikası prokurorluq işçilərinin xüsusi geyim forması və fərqlənmə nişanları ilə təmin edilməsi normaları” təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.*

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 292** **Bakı şəhəri, 28 avqust 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 13 oktyabr tarixli 329 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında Ünvan Reyestrinin fəaliyyətini təmin edən informasiya sisteminə məlumatların daxil edilməsi və həmin məlumatlardan istifadə mexanizmi barədə Texniki Reqlament”də dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 27 noyabr tarixli 27 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında ünvan reyestrinin aparılması və daşınmaz əmlak obyektlərinə ünvan verilməsi Qaydaları”nda dəyişiklik edilməsi haqqında” 2023-cü il 19 aprel tarixli 2110 nömrəli və “Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 1 noyabr tarixli 18 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında Ünvan Reyestrinin fəaliyyətini təmin edən informasiya sistemi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə” 2023-cü il 19 aprel tarixli 2111 nömrəli fərmanlarının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 13 oktyabr tarixli 329 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 10, maddə 1299; 2023, № 5, maddə 715) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında Ünvan Reyestrinin fəaliyyətini təmin edən informasiya sisteminə məlumat-ların daxil edilməsi və həmin məlumatlardan istifadə mexanizmi barədə Texniki Reqlament”də aşağıdakı dəyişikliklər edilsin:

**1.** 3.4-cü, 3.5-ci bəndlərdə, 3.7.3-cü və 3.8.2-ci yarımbəndlərin ikinci cümlələrində, 4.2.2-ci, 4.2.3-cü və 7.3.4-cü yarımbəndlərdə “təyin edən” sözləri “məlumatlarını daxil edən” sözləri ilə əvəz edilsin.

**2.** 3.8-ci bənddə “çoxmənzilli binaların, fərdi yaşayış evlərinin, qeyri-yaşayış sahələrinin (onların tərkib hissələrinin)” sözləri “çoxmənzilli binaların, qeyri-yaşayış binalarının, onların tərkib hissələrinin və fərdi yaşayış evlərinin” sözləri ilə, “ünvanların təyin edilməsi və” sözləri “dair ünvan məlumatlarının” sözləri ilə əvəz edilsin.

**3.** 3.8.1-ci və 3.8.2-ci yarımbəndlərin birinci cümlələrində “təyin” sözü “daxil” sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# İcma: Paris Azərbaycana düşmən münasibəti davam etdirir

**Fransa Prezidenti və xarici işlər nazirinin son açıqlamaları bir daha onu göstərir ki, rəsmi Paris bütün səviyyələrdə və platformalarda Azərbaycana qarşı düşmən münasibətini davam etdirir. İrqçiliyə qarşı etirazları polis gücü ilə yatıran və bu hadisələr fonunda dünyada imici darmadağın olan, Afrika qitəsində dalbadal biabırçı məğlubiyyətlərə düçar olaraq ölkələrdən qovulan Fransa, görünür, Azərbaycana qarşı hansısa addımların atılması ilə təskinlik tapmaq istəyir.**

Bu fikirlər Qərbi Azərbaycan İcmasının Fransa Prezidenti və xarici işlər nazirinin qərəzli açıqlamaları ilə bağlı bəyanatında bildirilib.

Bəyanatda qeyd olunub: “Fransa xarici işlər nazirinə xatırladırıq ki, “əxlaqsızlıq” Əlcəzairdə soyqırımı törədən, müxtəlif tayfaları məhv edən, əlcəzairli azadlıq döyüşçülərinin kəllələrini hərbi qənimət kimi Parisdə muzeydə saxlayan, özündən min kilometrlərlə uzaqda yerləşən əraziləri hələ də müstəmləkə işğalında saxlayan, Sakit okeanda keçirdiyi nüvə silahı sınaqları ilə müxtəlif xalqlara və ətraf mühitə zərərlər yetirən, Korsika dilini qadağan edən Fransanın hərəkətidir.

Artıq bütün dünyaya aydındır ki, Fransa Azərbaycan və Ermənistan arasında sülhün bərqərar olunmasını istəmir və Azərbaycanın Qarabağ bölgəsində yaşayan ermənilərin reinteqrasiyasını əngəlləməyə çalışır. Fransa mənəviyyata, beynəlxalq hüquqa həqarət olan islamofobiya, Azərbaycanofobiya siyasətinə, məsələlərə dini təəssübkeşlik prizmasından yanaşmağa son qoymalıdır.

***“Xalq qəzeti”***

# Qızıl Aypara "aclıq" mifini dağıtmağa gedib



(əvvəli 1-ci səhifədə)

Əgər Qarabağ iqtisadi rayonunda yaşayan erməni sakinlərin ərzağa ehtiyacı varsa, onlar Azərbaycanın göndərdiyi humanitar yardımdan istifadə etməlidirlər. Bunu elementar məntiq deyir. Yox, onların humanitar yardımdan yararlanmaq niyyətləri yoxdursa, deməli, Xankəndi və ətraf rayonlardakı ermənilərin Hayastandan göndərilən qida məhsullarına da ehtiyacı yox imiş. Nəticədə hamıya məlum olacaq ki, onların son səkkiz ayda Laçın yolunun bağlanması, "blokada", "humanitar böhran" və aclıqdan əziyyər çəkmələri ilə bağlı apardığı kampaniya siyasi məqsədli şoudan savayı bir şey deyilmiş. Media mənsublarının diqqətini çəkən maraqlı məqam isə humanitar yardımın daşındığı yük maşınlarının seriya nömrəsi olub. Yəni Xankəndiyə istiqamət götürən yük maşınlarının seriya nömrəsində "44" rəqəminin yazılması ermənilərə xüsusi mesaj kimi nəzərdə tutulduğu iddia edilib. Hamıya bəllidir ki, 44 rəqəmini Azərbaycan üçün doğma edən əsas amil Vətən müharibəsinin bu qədər müddət davam etməsi və şanlı ordumuzun cəmi 44 gün ərzində erməniləri diz çökdürərək Zəfər qazanmasının, Qarabağı işğalçılardan azad etməsinin rəmzidir.

Xankəndidəki separatçıların, eləcə də İrəvandakı daşnak-revanşistlərin nə düşünəcəklərindən, Bakının bu xeyriyyəçilik jestini qəbul edib-etməyəcəklərindən asılı olmayaraq, həmin addım atılır.

"Biz bölgədə baş verən prosesləri diqqətlə izləməkdə davam edəcəyik. İnanıram ki, atdığımız bu addım həm ictimaiyyət, həm beynəlxalq birlik, həm də Xankəndidə yaşayan erməni əsilli əhali tərəfindən müsbət qəbul ediləcək". Bu sözləri mediaya açıqlamasında söyləyən Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti Novruz Aslan onu da qeyd edib ki, siyasətdən uzaq qeyri-hökumət təşkilatı kimi Qızıl Aypara Cəmiyyəti hansısa siyasi prosesə və ya cərəyana qoşulmayıb, indi də qoşulmur, gələcəkdə də qoşulmayacaq: "Ümid edirəm ki, bizim bu fəaliyyətimiz bütün müstəvilərdə normal qarşılanacaq. Sonra qiymətləndirmə aparılacaq və zərurət yaranarsa, Qarabağa daha bir yardım karvanı yola salınacaq". Təşkilat rəhbərinin sözlərinə görə, cəmiyyətin rəhbər işçiləri, o cümlədən könüllüləri Ağdam–Xankəndi yoluna doğru irəliləyəcəklər.

* * *

Dünən axşam saatlarında "Report"un humanitar karvanı müşayiət edən əməkdaşının verdiyi xəbərə görə, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Qarabağda yaşayan erməni əsilli şəxslərin ehtiyaclarını ödəmək üçün Bakıdan yola salınan yük maşınları Ağdama çatıb. Məlumatda qeyd olunur ki, içərisində 40 ton un məmulatları olan iki avtomaşın Ağdam–Xankəndi istiqamətində hərəkət edir.

Oxucularıa xatırladaq ki, 2023-cü il avqustun 21-də Azərbaycan Qızıl Aypara Cəmiyyəti İdarəetmə Şurasının qərarı ilə cəmiyyət öz Nizamnaməsinə, "Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında" Azərbaycan Respublikası Qanununa, Cenevrə konvensiyalarına və Sevilya razılaşmasına uyğun olaraq, Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərə humanitar yardım göstərməyə hazır olduğu barədə bəyanatla çıxış etmişdi. Qeyd olunan qanunvericilik aktlarına, eləcə də Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara hərəkatının humanizm, qərəzsizlik, bütövlük prinsiplərinə əsasən, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin əməkdaşları, mobil könüllü dəstələrindən ibarət heyətlə Ağdam- Xankəndi marşrutu ilə nəzərdə tutulmuş 2 yük maşınında humanitar yardımın erməni sakinlərə çatdırılması məqsədilə dünən yola düşdü. N. Aslan açıqlamasında onu da bildirib ki, humanitar yardımın vaxtında və problemsiz ünvana çatdırılacağına ümid edirlər. Maşın karvanı "Qızıl Xaç və Qızıl Aypara emblemlərindən istifadəsi və onların müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq olaraq Qızıl Aypara bayraqlarının və emblemlərinin müşayiəti ilə hərəkət edəcək: "Ümid edirik ki, bu addım Xankəndidə yaşayan ermənilər və beynəlxalq ictimaiyyət tərəfindən müsbət qarşılanacaq. Gələcəkdə qiymətləndirmə prosesini həyata keçirə bilsək, onların digər ehtiyacı olduğu ləvazimatları da çatdıra bilərik". Hayastanın və Qarabağdakı separatçıların vəkilləri rolunda çıxış edən beynəlxalq "ekspertlərin" hüquqi cəhətdən nə cür komik vəziyyətə düşdüklərini təsəvvürünüzə gətirməyə çalışın. Məsələnin digər tərəfini qeyd etməyi vacib sayırıq ki, Azərbaycanın Qızıl Aypara Cəmiyyətinin həyata keçirdiyi humanitar aksiyasına BQXK-nın İrəvan şöbəsinin heç cür müdaxilə etmək imkanı yoxdur. Söhbət o BQXK-dan gedir ki, uzun illər Qarabağ separatçılarına "daydaylıq" edib, son vaxtlar isə saxta "humanitar fəlakət" şousunun tirajlanmasında birbaşa iştirak edir. Bu azmış kimi, Bakı və Qarabağ erməniləri arasında dialoq prosesini monopoliyaya almaq və siyasiləşdirmək cəhdlərində bulunurdu. Ağdamdan 23 kilometr məsafədə yerləşən Xankəndidə isə etiraz aksiyaları davam etdirilir. Azərbaycanın göndərdiyi undan bişiriləcək çörəyi yeməklə, guya, Bakıya reinteqrasiya olacaqlarını qəbul etməyən daşnak-separatçılar bununla "blokada", "aclıq təhlükəsi" kimi feyk-təbliğatlarının da sabun köpüyünə dönəcəyini yaxşı bilirlər.



Aldığımız son məlumatlara görə, Azərbaycan Qızıl Aypara Cəmiyyəti Xankəndidəki erməni əsilli sakinlərə 40 ton humanitar yardım aparılması ilə bağlı Azərbayanın Qarabağ iqtisadi rayonuda müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlılarına məlumat verilib. Bunu Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Baş katibi Ceyhun Mirzəyev jurnalistlərə açıqlamasında deyib. Onun sözlərinə görə, məram və məqsədləri barədə Rusiya sülhməramlılarının komandirinə məlumat veriblər: "Onlar da öz növbəsində rəhbərliyə məruzə etdilər. Bundan sonra onlar rəhbərliyin verəcəyi qərarı bizimlə bölüşmək üçün vaxt istədilər.

Verilən son məlumata görə, Qızıl Aypara Cəmiyyətinin nümayəndələri gecələmək üçün çadır quraşdırıblar.

Amma günün əsas qərarını Qarabağ erməniləri verməlidirlər. Əslində bununla da əsl həqiqətin üzə çıxacağı gözlənilir. Bu həqiqət isə Qarabağ ermənilərinin Bakının uzatdığı yardım əlini qəbul, yoxsa ondan imtina edəcəkləri ilə bağlı qərarından sonra görünəcək. Seçim öz əllərindədir...

*İmran BƏDİRXANLI,*
*"Xalq qəzeti"*

**Fransanın Xarici işlər naziri Ketrin Kolonna yenə danışıb. Fikrimizi ifadə etmək tərzimizdən yəqin anladınız ki, heç vaxt düz əməlli söz deməyən xanım Kolonna "ənənəsinə" sadiqdir. Ancaq onun erməniпərəstliyi artıq ənənəlikdən çıxıb. Çünki ənənədə, yəni ənənə sözünün özündə müəyyən mənada, mütərəqqilik var. Tutalım erməniпərəst ola bilərsən, ancaq reallığı görüb istəyərsən ki, həmin məqsəd gerçəkliklə uzlaşsın. Xanım Kolonna üçün erməniпərəstlik ampluadır, həyat tərzidir, varlıq düsturudur. Ola bilər ki, gecələr də üzərində Ermənistanın olmayan dövlətçiliyinin təsviri yer almış balışı qucaqlayıb yatır. Hər şey mümkündür...**

# Kolonna amoralizmi

## *Fransa baş diplomatının erməniпərəstliyində siyasi əxlaqsızlıq motivləri*

Əlqərəz, Fransanın baş diplomatı ölkəsindəki səfirlərin konfransında, necə deyərlər, ağzını açıb, gözünü yumub. Əlbəttə, o, əvvəlcə pozitiv görünməyə çalışıb. Daha doğrusu, ölkəsini mütərəqqi obrazda qələmə vermək istəyib. K.Kolonna bildirib ki, Fransa Ermənistan və Azərbaycan arasında ədalətli və davamlı sülhün bərqərar olması üçün səfərbərdir. Nə gözəl! Bəyənilsin, alqışlansın...

Ardınca isə deyir ki, sülh sərhədlərin demarkasiyasına imkan verəcək. Belə çıxır ki, əvvəl sülh müqaviləsi olacaq, sonra qeyd etdiyi proses. Olsun! Hərçənd, Azərbaycan–Ermənistan sərhədlərinin demarkasiyası və delimitasiyasının sülh müqaviləsinin imzalanmasına aparan yolla paralelliyi daha münasibdir. İrəvanın qeyri-konstruktivliyi səbəbindən bu yolda, demək olar, heç bir addım atılmır. Hər bir halda, Fransa XİN başçısının bu mövqeyini də məqbul sayaq. Ancaq xanım Kolonnanın sülhün "Qarabağ xalqının" hüquqlarına, mədəniyyətinə və tarixinə hörmətlə yanaşma əsasında yaranmalı olduğunu bildirməsi absurddur.

Göründüyü kimi, Fransanın baş diplomatı Bakı–İrəvan sülh razılaşmasına Qarabağ erməniləri ilə bağlı müddəa daxil etmək fikrini yenidən ortaya atır ki, bu, əsla yolverilməzdir və Azərbaycanın mövqeyinə ziddir. Ölkəmizin rəsmiləri, ən əsası isə Prezident İlham Əliyev dəfələrlə bildirib ki, Bakı Qarabağın erməni əhalisini ölkə vətəndaşı kimi görür və onun hüquq və azadlığının təminatında yeganə istinadgah Azərbaycan qanunvericiliyi və tərəfdar çıxdığımız beynəlxalq sənədlərdir. Yəni, heç bir halda Qarabağ ermənilərinə dair məsələ ayrı kontekstdə təqdim oluna bilməz.

Kolonnanın fikirləri Ermənistan rəhbərliyinin hazırkı mövqeyini müdafiə etməkdən, daha dəqiq desək, möhkəmləndirməkdən başqa bir şey deyil. Digər tərəfdən, Fransa XİN rəhbərinin dedikləri baş nazir Nikol Paşinyan administrasiyasını illüziya bataqlığına yuvarlayan düşüncədir. Belə görünür ki, Paris İrəvanı reallıqlardan kənar tutmaqda israrlıdır. Bu məntiqin hansı vəziyyəti doğuracağı isə məlumdur...

O da məlumdur ki, Azərbaycan iqtidarı Qarabağ mövzusunda spekulyativ perspektiv vəd edən baxışları beşiyindəcə boğur və boğacaq. Çünki ölkəmiz erməni xislətinə çox yaxşı bələddir. Erməni xisləti Qarabağ ermənilərinə hansısa imtiyazın tanınmasını separatizmin davamlılığı, gələcəkdə Azərbaycan torpaqlarının işğalı baxımından motivasiya kimi təsəvvürə gətirir. Yəni, illüziyanın azacıq özünə yer alması son dərəcə təhlükəlidir. Özü də yalnız bizə deyil, bütövlükdə, Cənubi Qafqaz regionu üçün.

Xanım Kolonna dedikləri ilə kifayətlənməyərək, ölkəmizə ünvanlanmış ittihamlar da yağdırıb. Deməli, bu qənaətə gəlirik ki, XİN rəhbəri Fransanın Azərbaycan-Ermənistan münasibətlərindəki, belə demək mümkünsə, qeyri-leqal tənzimləmə funksiyasından danışarkən, söhbəti Bakının həmin missiyaya zidd davrandığını vurğulamaq üzərinə gətirmək istəyirmiş. Təsəvvür edin, o, fikrini Fransadakı xarici ölkə səfirləri ilə görüşdə dilə gətirir. Bu isə o deməkdir ki, məqsədi Azərbaycanı həmin ölkələrin gözündən salmaqdır.

Başqa sözlə desək, Kolonna yaramazlığa baş vurur. Yaramazlığın kuliminasiya anı isə Fransa XİN rəhbərinin bu sözləridir: Azərbaycanın Qarabağdan ermənilərin kütləvi mühacirətinə səbəb olan "boğma strategiyası" qanunsuzdur. Onun dediklərində daha bir sərsəm məqam var ki, bunu yazının sonunda diqqətə çatdıracağıq. İpucu verək ki, üzərində geniş dayanacağımız həmin məqam sərlövhəmizdə əksini tapıb.

Hələlik isə bildirək ki, Kolonnanın "bomba strategiyası" ifadəsi Fransanın dövlət miqyasında apardığı anti-Azərbaycan siyasətindəki yeni "çalardır". Deməli, Bakı Qarabağda "bomba" qoyur ki, ermənilər orada yaşaya bilməsinlər. Hər halda, Kolonnanın dediklərinin başqa yozumu yoxdur. Hesab etmirik ki, Fransanın baş diplomatı erməni separatçılarının və onları dəstəkləyən Ermənistan hakimiyyətinin Qarabağda qoyduqları gerçək



bombalardan xəbərsizdir. Hər şeyi çox gözəl bilir. Həmin bombalar nəticəsində neçə-neçə azərbaycanlının həyatını itirdiyindən də məlumatlıdır. Ancaq "ampluasına" sadiqdir...

Nəhayət, sonda diqqətə çatdırmağı vəd etdiyimiz məqamdan söz açaq. Xanım Kolonna anti-Azərbaycan ritorikasına toxunarkən, deyəsən, bütün normaları aşır. Bəlkə indiyədək aşmırdı, "qırmızı xətləri" qoruyurdu, amma, bu dəfə onları tam kənara atır. O deyir ki, Azərbaycan ermənilərin Qarabağı tərk etmələrinə şərait yaradan siyasət reallaşdırmaqla, Beynəlxalq Ədalət Məhkəməsinin qərarına əhəmiyyətsiz yanaşır və bu siyasət amoraldır. Düz anladınız, məhz amoral və bu fikri dilə gətirən Fransanın XİN rəhbəridir.

Arayış üçün bildirək ki, amoralizm mənəvi tələblərə əməl etməmək, əxlaqsızlıq və pozğunluqdur. Birincisi, Beynəlxalq Ədalət Məhkəməsinin sırf Qarabağ ermənilərinin bölgədən uzaqlaşmasının, hətta uzaqlaşdırılmasının yolverilməzliyinə dair qərarı yoxdur. İkincisi, onlar özləri ərazini tərk edirlər. Çünki həm qeyri-müəyyənlikdən beziblər, həm də Qarabağdakı separatçı rejimin zülmündən qurtulmaq istəyirlər. Qarabağ erməniləri onu da görürlər ki, Fransanın dəstək verdiyi rejimin mövcudluğu, ümumən, həyatlarını zəhərə döndərir. Azərbaycan prinsipial və haqlı mövqeyindən geri çəkilmir.

Başqa bir yandan, bölgənin erməni əhalisinin Qarabağdan köçünün daha bir səbəbi həmin əhalinin özündə separatçı rejimi yox etmək əzmini tapmamasıdır. Bu, heç də yaxşı hal olmasa da, anlaşılandır. Sadə məntiq var: İnsan dünyaya br dəfə gəlir və istəyir ki, rahat yaşasın.

Bəli, insanların rahat yaşayışına imkan verməmək, beynəlxalq hüquqa zidd fikirləri gündəmə gətirmək əxlasızlıq və pozğunluqdur. İndiki halda Kolonna, siyasi pozğunluq və əxlaqsızlıqla məşğuldur. O səbəbdən ki, Fransanın ölkəmizin ərazi bütövlüyünü tanıdığını unudur. Unudur ki, Azərbaycanın ərazilərinə ermənilərin yaşadığı Qarabağ da daxildir. Xanım Kolonna, eyni zamanda, ona görə amoraldır ki, Bakının bölgədəki erməni əhaliyə öz vətəndaşı kimi yanaşmaq istəməsini saya salmır, Cənubi Qafqazdakı erməni avantürasına "züy tutur".

*Ə.RÜSTƏMOV, "Xalq qəzeti"*

**Replika**

**Reallıq hissini itirənlərin utopik revanşizmə, hansısa xəyali qətnamələrə, hətta nağıl qəhrəmanlarının zühuruna inanmaları təbii sayılmalıdır. Necə ki, indi də cırtdan Lixtenşteynin şahzadəsi, Zati–aliləri müqəddəs knyaz Mixailin "birbaşa mühasirədə olan Dağlıq Qarabağa (?)" humanitar aviadaşımanı həyata keçirməyə hazır olduğu barədə feyk-xəbərləri tirajlayırlar. Bu "şad xəbəri" Qarabağ ermənilərinin ictimai diqqətinə kriminal biznesmen, uğursuz "dövlət naziri" Ruben Vardanyan çatdırıb.**

# Ümid "Ağ atlı şahzadə"yə qalıb?

## *Qarabağ ermənilərinə indi də nağıl süjetləri ilə təsəlli verirlər*

Xəbərdə ondan bəhs edilir ki, əlahəzrət şahzadə Mixail Aznavur Fondunun təşkil etdiyi zəruri ərzaq və dava-dərmanla birlikdə Qarabağa uçacaq təyarənin göyərtəsində olacaq. "Humanitar missiya"da İsveçrənin Impact Investing Solutions şirkəti ilə yanaşı bu məmləkətin şahzadəsi Mayklın, habelə digər "dünya liderlərinin", indiki və sabiq dövlət başçılarının adları da yer alırmış. Sən demə, bu titulluların hamısı "30 min uşaq daxil olmaqla 120 min insanın 8 aydan çoxdur aclıqdan əziyyət çəkdiyi Dağlıq Qarabağa (?) çatdırılacaq humanitar yükə şəxsən başçılıq etməyə hazırdır". Bunu hayların qulağına Vardanyan üfürür.

Dara düşənlərə hər zaman yardım əlini uzadan belə parlaq "filantropların" siyahısı da mötəbərliyi ilə seçilir. Görün humanitarların bu ali siyahısında kimlərin adı var: Nobel mükafatı laureatı Leyma Qboyun, Fransanın sabiq xarici işlər naziri Bernar Kuşner, keçmiş səhiyyə naziri Pol Polman, İrlandiyanın keçmiş prezidenti Meri Robinson, Meksikanın sabiq dövlət başçısı Ernesto Zedilyo və başqaları.

Şahzadə Mixailin adının hallandığı informasiyanı BBC-yə istinadən "Avropa həqiqəti" paylaşıb. Vardanyan isə sosial şəbəkədəki hay izləyicilərinə belə bir çağırış da edib ki, xəbərdən hamının hali olması üçün onu daha çox yaysınlar. Moskvanın uğursuz emissarı hesab edir ki, Laçın dəhlizi (?) bağlı qaldığı üçün bu humanitar aviadaşıma Qarabağ ermənilərinin "sağ qalmasına" kömək edəcək. Vardanyan bu məqsədlə Stepanakertdəki (Xankəndi -red) hava limanından faydalanmağın mümkünlüyünü xatırlatmağı da unutmayıb: "Bunun üçün beynəlxalq birlik tərəfindən əlavə səylərin göstərilməsinə ehtiyac yoxdur. Onlardan sadəcə hava yolu ilə daşımaya dəstək vermək və onun təhlükəsizliyinin təmin edilməsi tələb olunur".

Yəni hər şey bu qədər sadə və asanmış. Avropanın cırtdan dövlətindən humanitar yüklü hava gəmisinin Azərbaycanın hava məkanına daxil olması, sonra ölkəmizin suveren ərazisinə enməsi üçün Bakıdan icazənin istənilməsi zərurəti Vardanyanın heç ağlının ucundan da keçməyib? Yox, komersant Ruben beynəlxalq hava daşımalarının qaydaları barədə kifayət qədər məlumatlıdır, fəqət, bu barədə danışmaq istəmir. Axı Qarabağın erməni əsilli lümpen sakinlərinin beynini belə mürəkkəb mətləblərlə məşğul etməyə nə ehtiyac var?

"Qoy hələlik "Ağ atlı şahzadə" nağılına qulaq assınlar, özlərini röyanın gerçəyə çevriləcəyinə inandırsınlar, sonra bir şey fikiləşərik". Vardanyan indiki məqamda eynən bu cür düşünür. Buna qətiyyən şübhəniz olmasın. Elə Lixtenşteynin möhtərəm şahzadəsi, knyaz Mixailin xəritədə Xankəndi hava limanının yerini tapmaqda çətinlik çəkəcəyini də əminliklə söyləmək olar. Zati-alilərinə Qafqaza səfərinin əvəzinə iki ildən çoxdur başı qalmaqaldan açılmayan qardaşı Emmanuelin dadına yetişməyini məsləhət görərdik. Ola bilsin son vaxtlar dozası artırılan erməni konyakının "zapoyuna" düşdüyündən bu məsələni tamamən unudub. Onda xatırladaq.

Avropalı eko-fəallar Lixtenşteyn şahzadəsini 2021-ci ilin martında Rumıniyada ov edərkən qitənin ərazisində qeydə alınmış,



Artur ləqəbli 17 yaşlı ən yaşlı və ən böyük qonur ayını güllələməkdə ittiham edirlər. Eko-fəalların versiyasına görə, şahzadə Emmmanuelə Rumıniyanın Oydula kəndində fermalara hücum edən ayını ovlamağa icazə verilib. Amma o, "qatil və cinahyətkar" ayının əvəzinə 17 yaşlı veteranı qətlə yetirib. İki ildən çoxdur ki, Lüksemburq şahzadəsi Marqarita və Lixtenşteyin vəliəhdi Nikolausun oğlu Emmanuel bəraət almaqdan ötrü özünə xeyli vəkil tutub. Proses olduqca maraqlı məcrada gedir. Ruben Vardanyan isə burada "Ağ atlı şahzadə"dən danışır. Heç hənanın yeridir?

*İ.HƏSƏNQALA,*
*"Xalq qəzeti"*

“Xalq qəzeti”– 104

# “Ad günü”müz – şad günümüz




**Ulu öndər Heydər Əliyev həmişə tövsiyə edirdi ki, hansı sahədə olursa olsun, zəhmət çəkən insanların qədri bilinməli, onlar ruhlandırılmalı, ən kiçik fəaliyyət belə qiymətləndirilməlidir. Ümummilli liderin fikrincə, bu, təkcə ədalət prinsipi kimi deyil, həm də sabahkı fəaliyyətimizə yaradılan stimul kimi qəbul edilməlidir. Nə xoşdur ki, bugünkü Azərbaycanın hər addımında həmin tövsiyənin həyata keçirilməsinin şahidinə çevrilirik.**

Avqustun 29-da – “Xalq qəzeti” nin (26 avqust 1991-ci ilədək “Kommunist”) ilk nömrəsinin nəşr edilməsinin 104-cü ildönümü günündə “Xalq qəzeti” redaksiyasında keçirilən məclisdə də qədirbilənlik və yaradıcı fəaliyyətə həvəsləndirmənin şahidi olduq. Qəzetin baş redaktoru, Əməkdar jurnalist Əflatun Amaşov “Xalq qəzeti”nin keçdiyi 104 illik yolun başdan-başa Azərbaycan xalqına xidmətlə sıx bağlı olduğunu söylədi. Redaksiya rəhbəri qeyd etdi ki, ötən bir əsrdə yaşayıb-yaratmış elə bir ziyalımız yoxdur ki, bu redaksiya ilə əlaqədə olmasın:

– Biz fəxr edirik ki, vaxtilə Cəlil Məmmədquluzadə, Üzeyir bəy Hacıbəyli, Məmməd Səid Ordubadi, Cəfər Cabbarlı, Səməd Vurğun, Rəsul Rza, Süleyman Rüstəm kimi böyük yaradıcı simaların çalışdığı və ya sıx əməkdaşlıq etdiyi redaksiyanın fəaliyyətini müstəqillik şəraitində davam etdiririk. Bu kollektivin həm İkinci Dünya müharibəsi illərində, həm də dövlət müstəqilliyimiz bərpa ediləndən sonrakı dönəmdə fədakar, mükəmməl fəaliyyəti haqlı iftixarla yanaşı, məsuliyyətimizi də artırır.

2020-ci ilin payızında Prezident İlham Əliyevin qətiyyəti və Azərbaycan Ordusunun hünəri nəticəsində qazandığımız şanlı Zəfər və işğaldan azad edilmiş ərazilərdəki bərpa-quruculuq işləri bizim əsas fəaliyyət istiqamətlərimizdən olub. “Xalq qəzeti” Azərbaycan dövlətinin daxili və xarici siyasətini, diplomatiyamızın uğurlarını daim diqqətdə saxlayır. Biz bu qəzetin tarixi nüfuzunun qorunması, demokratik, xəlqi ənənələrinin davam etdirilməsi istiqamətində təşəbbüskar fəaliyyətimizi davam etdiririk.

Kollektiv üzvləriindən baş redaktorun birinci müavini Hacı Qüdrət Piriyev, şöbə müdirləri Vaqif Bayramov, Əli Nəcəfxanlı, Məsaim Abdullayev, İmran Bədirxanlı, mühasib Zəminə Osmanova tarixi təcrübənin çağdaş çağırışlarla qovuşdurulması yönündə yaradıcı prosesin uğurundan və qarşıdakı önəmli hədəflərdən söz açdılar. Daha sonra xatirələr səsləndi və gələn il qeyd olunacaq 105 illik yubileyi daha ciddi fəaliyyət, zamanın tələbinə uyğun yaradıcılıqla qarşılamaqla bağlı arzu-diləklər dilə gətirildi.

Sonra söhbət çay süfrəsi ətrafında davam etdirildi.

**P.S: Dünən redaksiya ilə əlaqə saxlayıb qəzetimizin “ad günü”nü təbrik edən çoxsaylı oxucularımıza və fəal müəlliflərimizə diqqət və xoş sözlərə görə təşəkkür edirik.**

*İttifaq MƏMMƏDCANOĞLU,*
*“Xalq qəzeti”,*
*Foto Elşən AĞALARINDIR*

# Sverdlovsk vilayətinin qubernatoru üzr istədi

**Sverdlovsk vilayətinin qubernatoru Yevgeni Kuyvaşev Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyinə qarşı yönəlmiş tədbirdə iştirak edən Yekaterinburq Şəhər Dumasının sədri İqor Volodin qalmaqalı ilə bağlı Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğluya üzrxahlıq edib.**



Regionun informasiya siyasəti departamentinin məlumatına görə, Kuyvaşev məsələnin həll olunacağına ümid etdiyini bildirib. Kütləvi informasiya vasitələrinin məlumatına görə, bu qalmaqaldan sonra Volodin şəhər dumasının yeni çağırışında spiker olmayacaq.

Qeyd edək ki, bundan əvvəl ölkəmizin Rusiyadakı Səfirliyi Yekaterinburq şəhərində qondarma “talış-muğan muxtar respublikasının yaranmasının 30 illiyi”nə həsr edilmiş tədbirlə bağlı Rusiya Xarici İşlər Nazirliyinə etiraz notası ünvanlamışdı. Bundan başqa, səfir Polad Bülbüloğlu Sverdlovsk vilayətinin qubernatoru Yevgeni Kuyvaşevə Azərbaycanın prinsipial mövqeyini və qəti etirazını əks etdirən məktub göndərmişdi.

***XQ***

# Avropa Məhkəməsi Vaqif Xaçatryanla bağlı müraciəti rədd etdi

**Avropa Məhkəməsi sülh və insanlıq əleyhinə cinayətləri törətməkdə təqsirləndirilən Vaqif Xaçatryanla bağlı Ermənistanın müraciətini də rədd edib.**



XQ xəbər verir ki, bunu Azərbaycan Republikasının İnsan Hüquqları üzrə Avropa Məhkəməsi yanında səlahiyyətli nümayəndəsi, Ali Məhkəmənin sədr müavini Çingiz Əsgərov bildirib. O, qeyd edib ki, bu, bir ayda Ermənistanın rədd edilmiş artıq dördüncü müraciətidir.

Qeyd edək ki, Vaqif Xaçatryan erməni hərbi birləşmələrinin tərkibində 1991-ci ilin 22 dekabr tarixində Xocalı rayonunun Meşəli kəndində azərbaycanlılara qarşı kütləvi qırğın törədib. Ona məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib və o, məhz bu cinayət işi çərçivəsində iyulun 29-da “Laçın” sərhəd-buraxılış məntəqəsində saxlanılıb.

# Xankəndi təşviş və ümidsizlik girdabında

**(əvvəli 1-ci səhifədə)**

Bu səbəbdən, Qarabağdakı haylar hazırda giley-güzar edir, ittihamlar yağdırır, hamını, necə deyərlər, özlərinə borclu çıxarırlar. Ən çox narazılıq 2020-ci ilin noyabrın 10-u gecəsi bölgəyə gəlişini az qala xilaskar İsa Məsihin gəlişi kimi qiymətləndirdikləri Rusiya sülhməramlılarının fəaliyyətindəndir. Yeri gəlmişkən, qondarma rejimin “milli təhlükəsizlik xidməti”nin keçmiş direktoru Arşavir Qaramyan avqustun 28-də Azərbaycanın Dövlət bayrağına qarşı təhqiramiz hərəkətlər etdikləri üçün “Laçın” sərhəd nəzarət-buraxılış məntəqəsində üç erməni futbolçunun saxlanılmasına görə sülhməramlıları kəskin tənqid edib. O, “Facebook” səhifəsində yazıb ki, buraxılış məntəqəsində baş verən hadisə Qarabağda yerləşən Rusiya sülhməramlı qüvvələrinin komandanı, general-polkovnik Aleksandr Lentsovun öz hərəkəti və ya bəlkə də qəsdən hərəkətsizliyi ilə ləğv olunmuş DQMV-nin ilk komendantı – ermənifob, bədnam general Safonovdan (1988-90-cı illərdə Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin və ona bitişik rayonlarının komendantı, general-mayor Vladislav Safonov nəzərdə tutulur-S.H) heç də geri qalmadığını növbəti dəfə sübut edir.

Rəsmi Bakı isə qarşısına qoyduğu dövlət suverenliyinin ölkənin bütün ərazisində tam bərqərar olunması hədəfinə doğru təmkinlə, tələsmədən, lakin ləngimədən irəliləyir. Mayın 28-də Laçına qayıdan əhali ilə görüş zamanı Prezident İlham Əliyevin dediyi kimi, Vətən müharibəsinin başa çatmasından ötən dövr ərzində bütün planlarımız ardıcıllıqla, tədricən həyata keçib və biz öz planlarımızın son addımlığındayıq. Dövlət başçımız qeyd edib ki, o addım da atılacaq və buna şübhə etmir.

Qeyd etdiyimiz kimi, separatçıların çıxılmaz durumda olmasını onların atdıqları bir sıra addımlar da təsdiqləyir. Onlar bu yaxınlarda “parlamentin sədri” Artur Tovmasyanı David İşxanyanla əvəz ediblər. Tovmasyan separatçı rejimin “qlavar”ı Arayik Arutyunyanın rəhbərlik etdiyi qondarma “Azat ayrenik” adlanan “partiyanın” təmsilçisi idi. İşxanyan isə “Daşnaksütyun”un üzvüdür. Yəni, “Daşnaksütyun”, faktiki olaraq, A.Arutyunyana müxalifətdədir. Buna baxmayaraq, “hakim partiya” müxalifətçinin namizədliyini irəli sürüb ki, bu da edilən təzyiqlərlə bağlıdır.

Bundan əlavə, hazırda A.Arutyunyanın özünün də “istefası” gündəmdədir.



“Hraparak” qəzeti öz mənbələrinə istinadən yazır ki, A.Arutyunyanın “istefa” verəcəyi təqdirdə Ermənistan hakimiyyətinin onun yerinə namizədi qondarma rejimin keçmiş “xarici işlər naziri” Masis Mailyan olacaq.

Qəzet qeyd edib ki, əgər Ağdam–Xankəndi yolunun açılması baş verməsə, o zaman A.Arutyunyanın “istefası” məsələsi, görünür, yenidən gündəmə gələcək. Nəşrin yazdığına görə, Mailyanın qarabağlılar arasında sabiq “müdafiə naziri” Samvel Babayan kimi mənfi reputasiyası yoxdur. Bu da onu Ermənistanın baş naziri Nikol Paşinyan üçün əlverişli namizəd edir.

Bildirilir ki, Arutyunyan “istefa” vermək qərarını iki həftə əvvəl elan edib, lakin Ermənistan hakimiyyətinin tələbi ilə sentyabrda İrəvan şəhər meriyasına keçiriləcək seçkiləri nəzərə alaraq, “istefasını” daha bir neçə həftə təxirə salmağa razılaşıb. Qəzet yazır ki, Arutyunyanın “istefası”nın təxirə salınması Ermənistan hakimiyyətinin İrəvan şəhər meri vəzifəsinə namizədi Tiqran Avinyanla bağlı “arzuolunmaz epizodların” ictimailəşməsindən sonra aşağı düşən reytinqinin daha da azalmasının qarşısını almağa xidmət edir. Belə ki, bugünlərdə Ermənistanın hakim “Mülki müqavilə” partiyasının namizədi T.Avinyanın 44 günlük müharibə zamanı Xankəndiyə gəldiyi və ağ ayaqqabı geyinərək şəhərdə gəzib dolaşdığı məlum olub.

***

Bu arada 3 erməni futbolçu ilə bağlı baş verənlər Xankəndidə anti-Azərbaycan isterikasının yeni fazasının baş qaldırmasına səbəb olub. Separatçıların cəmi 33 üzvü olan əldəqayırma parlamenti avqustun 28-də saat 21:00-da “növbədənkənar iclas” çağırıb. Bundan başqa, həmin gün separatçıların rəhbərliyinin yaranmış vəziyyətdən çıxış yolunun tapılması üçün qapalı iclas keçirdiyi bildirilir.

Futbolçularla bağlı məsələyə münasibət bildirən Ermənistan ordusunun ehtiyatda olan polkovniki, hərbi ekspert Ayk Naqapetyan “Hraparak” nəşrinə müsahibəsində bildirib ki, Qarabağın erməni futbolçuları qaçırılmayıb, dezinformasiyaya ehtiyac yoxdur: “Onları oğurlamayıblar, gəlin, hər şeyi öz adı ilə çağıraq. Dezinformasiya yaymaq lazım deyil, sonra yazacaqlar ki, bu hadisə rus sülhməramlılarının iştirakı ilə olub”.

O qeyd edib ki, azərbaycanlılar üç gənci saxlayıblar. Bunlar Xocavənd rayonundan olan tələbələrdir. Naqapetyan deyib ki, bununla bağlı video var. Həmin videoda futbolçuların stadiona daxil olmazdan əvvəl yerə sərilmiş Azərbaycanın Dövlət Bayrağının üstündə gəzdikləri görünür: “Dövlət rəmzinin bu cür təhqir olunması istənilən ölkədə cinayət sayılır. Qarabağdan Ermənistana gedən istənilən şəxs “milli təhlükəsizlik xidməti”nin siyahısından keçir. İndi sual yaranır ki, “milli təhlükəsizlik xidməti” Azərbaycan tərəfindən axtarışda olanların Həkəri körpüsündən keçməsinə niyə icazə verib? Məgər onlarda Azərbaycan tərəfindən axtarışda olan şəxslərin siyahısı yoxdurmu? Üstəlik, nəzərinizə çatdırım ki, 3 deyil, 11 futbolçu axtarılır. 2021-ci ildə həmin futbol matçında kim iştirak edib? 11 gənc. İndi mənim və hər kəsin sualı var: Necə oldu ki, axtarışda olsalar da “Qarabağ hakimiyyəti”nin bundan xəbəri olmayıb, gənclərin Həkəri körpüsünə getməsinə icazə veriblər?

Naqapetyan qeyd edib ki, onda olan məlumata görə, futbolçulardan biri azərbaycanlılarla münaqişə edib, hansısa kameranı sındırıb: “Bu, mənim ilkin məlumatımdır, amma çox güman ki, doğrudur”.

Ermənistanın “Demokratik alternativ” partiyasının sədri Suren Surenyants isə “Facebook” səhifəsində yazıb ki, “Laçın” sərhəd buraxılış məntəqəsində baş verən hadisə siyasi ehtirasları yenidən qızışdırıb. Ancaq o qeyd edib ki, bir neçə real qeydlər olmadan vəziyyəti obyektiv qiymətləndirə bilmərik. Onun sözlərinə görə, Paşinyanın devrilməsi Qarabağı xilas etməyəcək, amma ermənilər ən azından Ermənistan Respublikasını xilas edə bilərlər: “Qarabağ bu gün subyektivliyin bütün komponentlərini itirib. İndiki şəraitdə Qarabağın siyasi muxtariyyətini təmin edəcək hər hansı variantı müzakirə etmək belə mənasızdır. Kobud formada desək, “qırmızı xətləri” müəyyən etməyə imkanımız yoxdur. İndi ermənilərin Qarabağda yaşamaq hüququndan danışmaq olar. Bu sual bilavasitə Rusiya tərəfi qarşısında formalaşmalıdır: onlar ermənilərə bu hüquqa zəmanət verirlər, yoxsa humanitar dəhliz və soydaşlarımızın təxliyyəsi haqqında düşünməliyik? Zaman və beynəlxalq kontekst bizim əleyhimizə işləyir. İndi siyasi həll yolları tapılmasa, iki-üç aydan sonra bunun bədəlini daha yüksək qiymətə ödəməli olacağıq”.

S.Surenyants qeyd edib ki, Rusiya sülhməramlı missiyası öz mandatını çox vicdansızlıqla yerinə yetirir: “Burada mübahisə etməyin mənası yoxdur. Lakin beynəlxalq sülhməramlı missiyanın Qarabağa dəvət edilməsi ilə bağlı çağırışlar reallıqdan kənardır və vulqar manipulyasiyalardır. BMT, ATƏT belə bir qərar qəbul etməyəcək, Azərbaycan bu təklifi müzakirə belə etməyəcək. Fransa da daxil olmaqla dünyada elə bir ölkə yoxdur ki, Ermənistanın xatirinə Azərbaycan və Türkiyə ilə sərt münaqişəyə girməyə hazır olsun”.

Partiya sədri onu da bildirib ki, Ermənistanda mümkün hakimiyyət dəyişikliyi qlobal səviyyədə danışıqlar kontekstini dəyişməyəcək: “Paşinyan hakimiyyəti Qarabağı nəinki dağıdıb, həm də siyasi iradənin və gündəliyin olmaması, populizm və avantürizm nəticəsində Ermənistanı faktiki subyektivlikdən məhrum edib, onu danışıqların obyektinə çevirib”.

Göründüyü kimi, vaxt ötdükcə daha çox erməni obyektiv fikirlər söyləməyə başlayıb. Onların toplum olaraq obyektiv mövqe sergiləyəcəkləri gün uzaqda deyil.

*Səxavət HƏMİD,*
*“Xalq qəzeti”*

## EKSPERT RƏYİ

**Zaur MƏMMƏDOV, politoloq**



– Separatçılar vurnuxma içindədirlər. Onlar Azərbaycanın beynəlxalq normalara uyğun olaraq apardığı reinteqrasiya siyasətinin qarşısına heç bir tutarlı arqument qoya bilmirlər. Bildiyiniz kimi, avqustun 29-da Bakıdan humanitar yardım karvanı Xankəndiyə doğru yola düşüb. Karvan Ağdam–Xankəndi yolu vasitəsilə yardımı Qarabağ ermənilərinə çatdırmalıdır.

Qeyd edək ki, bir neçə həftə əvvəl Ağdam–Xankəndi yolunun açılmasından sonra Laçın yolunun da açılacağı qərarlaşdırılmışdı. Hətta yolun açılacağı gün də müəyyənləşmişdi. Lakin bir sutka qalmış separatçılar razılaşmanı pozmuşdular. İndi isə separatçılar və Ermənistan hakimiyyəti ya dəmir iradə qarşısında geri çəkiləcək, ya da onların “humanitar böhran” mövzusunda spekulyasiya ilə məşğul olduqları bütün dünyaya bir daha məlum olacaq. Hər halda, Xankəndidə nəhayət, sağlam düşüncə üstün gəlməli, separatçılar Azərbaycanın tələblərini yerinə yetirməkdən başqa çıxış yollarının olmadığı başa düşməlidirlər. Ağdam–Xankəndi yolu açılmasa, Qarabağdakı mülki əhalinin separatçı rejim üçün heç bir önəm daşımadığı, onlarla bağlı süni ajiotaj yaratdığı da bir daha bəlli olacaq.

# Heydər Əliyev: Hər bir insan ağac əkməlidir, becərməlidir, böyütməlidir



*Mən 1993-cü ildə Bakıya gələrkən bizim əkdiyimiz, becərdiyimiz bəzi ağacların kəsilməsini görərkən elə bildim ki, məni yaralayıblar. Mən dəfələrlə demişəm, bir də deyirəm, kim hansı bir sağlam ağacı kəsirsə, hesab edin ki, o, mənim qolumu, barmaqlarımı kəsir.... İnsan qurmalıdır, yaratmalıdır... hər bir insan ağac əkməlidir, becərməlidir, böyütməlidir. Əgər kimsə sağlam ağacı kəsirsə, o nəinki xalqına, millətinə, ölkəsinə xəyanət edir, o, öz ailəsinə, özü-özünə xəyanət edir.*

***Heydər ƏLİYEV,***
***Ümummilli lider***

**Avqustun 28-də Azərbaycanda meşəçilik elminin banilərindən biri, Azərbaycan Təbiəti Mühafizə Cəmiyyətinin sədri, Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, kənd təsərrüfatı üzrə elmlər doktoru, professor İbrahim Səfərovun 110 illiyi qeyd olunacaq. Biz görkəmli alim və dövlət xadiminin yubileyi ilə bağlı qəzet materialı hazırlayarkən, onun 1998-ci ilin martında Azərbaycan Prezidenti, ulu öndər Heydər Əliyevə ünvanladığı bir məktubla da tanış olduq. Məhz həmin məktub bu yazının istiqamətini dəyişdi.**

Belə ki, ölkəmiz və xalqımız bu il ulu öndərin 100 illik yubileyini qeyd edir. Ümummilli liderin daim hörmət və ehtiramla yanaşdığı – onların hər ikisi Bakının və Abşeronun yaşıllaşdırılması istiqamətində misilsiz xidmətlər göstərmişdilər – görkəmli alim və dövlət xadimi İbrahim Səfərovun 110 illiyi də bu ilə təsadüf edir. 25 il əvvəl yazılmış məktubu bu gün də aktuallaşdıran üçüncü cəhət isə qlobal miqyasda davam edən iqlim dəyişmələrinin fəsadlarından olan quraqlıqlar və anomal istilərin Bakı və Abşeronun təbiətinə mənfi təsirlərinin çoxalmasıdır.

Yazıya başlamazdan əvvəl adı çəkilən məktubu hörmətli oxuculara təqdim etmək istəyirik. Çünki həmin məktub yuxarıda sadaladığımız hər üç cəhətdən xüsusi önəm kəsb edir:

*“Azərbaycan Respublikasının Prezidenti, zati aliləri Heydər Əliyev cənablarına!*

*Əziz və möhtərəm Heydər Əlirza oğlu!*

*Azərbaycan elminin inkişafında mənim əməyimə verdiyiniz çox yüksək qiymət – “Şöhrət” ordeni ilə təltif edilməyim qəlbimdə tükənməz təşəkkür və minnətdarlıq duyğuları oyatmaqla xəyalımı keçmişə – yetmişinci illərə apardı.*

*Azərbaycanın yaşıllıqlar diyarına çevrilməsi uğrunda apardığım yarım əsrlik mübarizə və bu yarım əsrin ən qızğın, ən məhsuldar dövrləri olan 1969–1983 ci illər gözlərimin önündə canlandı. Bir daha o illərə qayıdıb Şıx çimərliyində, Badamdar yamaclarında və onlarca başqa park və bağlarda Sizinlə çiyin-çiyinə işləməyim, keçmiş ittifaq respublikaları paytaxtları arasında 1970-ci ilə qədər yaşıllığına görə sonuncu yeri tutan, 1983-cü ildə isə 2-ci yerə qalxan Bakının yaşıllaşdırılmasına sərf etdiyiniz böyük əmək, fədakarlıq, təşəbbüskarlıq yadıma düşdü. Bir dəfə Şıx çimərliyində 20 eldar şamı ağacını öz əllərinizlə əkdiyinizi, sisterndən su daşıyıb suladığınızı xatırladım.*

*Siz adamlara da beləcə qayğıkeş bağban münasibəti bəsləyirsiz. Əgər mənim Azərbaycan elminin inkişafında az-çox rolum olubsa, bunun böyük hissəsi məhz Sizin xidmətiniz, alımə, elmə, ziyalıya, milli kadra göstərdiyiniz atalıq qayğısının təzahürüdür.*

*Buna görə də Sizi, möhtərəm Prezident, mənə verilən yüksək mükafatın həm laureatı hesab edir, bu “Şöhrət” ordenində Sizin də şöhrət payınızın olduğuna möhkəm əminliyimi bildirirəm .*

*Qoy Tanrı Sizin “bağbanlığınız”la Azərbaycanı gülüstana, cənnət bağına döndərsin.*

**Ehtiram və sevgi duyğuları ilə**
**Sizin İbrahim Səfərov.**

**3 mart 1998-ci il.”**

Həqiqi ziyalı təfəkkürünün məhsulu olan bu sətirləri oxuyanda, istər-istəməz, həm məktubu yazanın, həm də məktub alanın böyüklyü göz önündə canlanır. Mən ötən əsrin 90-cı illərində həmin görkəmli alimin oğlu İbrahim Səfəroğlu ilə eyni kollektivdə çalışmışdım. O, həmin illərdə dövlət radiosunun səs rejissoru idi. Sonralar mühüm bir şöbənin müdiri olmuşdu. İbrahim müəllim atasından eşitdiyi xatirələrdən tez-tez söz açırdı. Atası danışırmış ki, Şıx yamacında yaşıllıqların salınmasının təşəbbüskarı Heydər Əliyev olsa da, həmin layihənin icraçısı biz idik: “Ona görə də Heydər Əliyev hər dəfə orada ağacəkmə tədbirində iştirak edəndə gəlib sanki mənə məlumat verirdi: “İbrahim müəllim, mən bu gün dörd ağac əkdim. Bu isə adi məlumat deyildi. Xalqa çağırış idi ki, Bakının və Abşeronun yaşıllaşdırılmasında iştirak etmək hamının vəzifəsi, borcudur. Heydər Əliyev bütün məsələlərdə özünün şəxsi nümunəsini yaradırdı”.

Bu yazı ilə bağlı bəzi sənədlərə nəzər salanda İbrahim Səfərovun AMEA-nın “yaddaşında necə qaldığı”ilə də maraqlandım. Orada oxuduğum faktların alimin 110 illiyi günlərində xatırladılması, həqiqətən də yerinə düşür. Akademiyanın saytında oxudum ki, Səfərov İbrahim Səfər oğlu 1913-cü il avqustun 28-də Şamaxı rayonunda anadan olmuş, Tbilisi şəhərində Zaqafqaziya Meşə Təsərrüfatı İnstitutunu bitirmişdir. 1949-cu ildə elmlər namizədi, 1962-ci ildə isə elmlər doktoru dissertasiyaları müdafiə etmiş, 1969-cu ildə professor elmi adına layiq görülmüşdür. Bakı Kənd Təsərrüfatı Texnikumunun direktoru, Meşə təsərrüfatı nazirinin birinci müavini, Azərbaycan SSR Nazirlər soveti sədrinin müavini və Respublika Sovxozlar naziri vəzifələrində çalışmışdır. Eləcə də, Azərbaycan Elmi Tədqiqat Əkinçilik İnstitutunun direktoru, Azərbaycan SSR EA-nın Botanika İnstitutunda Meşəşünaslıq şöbəsinin müdiri, sonrakı illərdə Azərbaycan SSR EA Rəyasət Heyəti yanında Təbii Ehtiyatlar Komitəsinin sədri, 1968-ci ildən Azərbaycan Təbiəti Mühafizə Cəmiyyətinin sədr müavini, 1993-cü ildən sədri olmuşdur. 1987-ci ildən ömrünün sonuna kimi Botanika İnstitutunda müşavir işləmişdir.



Bütün bunlar onun ictimai fəaliyyətinin göstəriciləridir. Ancaq elmi fəaliyyəti daha genişdir. Məsələn, o, kənd təsərrüfatı sahələrinin zonalar üzrə rayonlaşdırılması, bütün kənd rayonlarında tarla qoruyucu meşə zolaqlarının salınması sayəsində kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının artırılması, subtropik bitkilərin seyrəkləşməsinin qarşısının alınması, yuxarı Şirvan, Qarabağ və Samur–Dəvəçi–Abşeron su kanallarının ətraflarının yaşıllaşdırılması, suvarılan torpaq sahələrinin artması, ayrı-ayrı kənd təsərrüfatı bitkilərinin məhsuldarığının çoxalmasının səmərəli yolunun açıqlanmasına yönəlmişdir.

Onun elmi axtarışlarının nəticəsi 200-dən çox elmi məqalə və 11 monoqrafiyada cəmləşmişdir. O, Qafqazın “Qırmızı kitabı”nın tərtibçilərindən biridir. Bu alim elmi kadrların hazırlanmasına xüsusi diqqət yetirmişdir. Onun rəhbərliyi altında 25 fəlsəfə doktoru və 2 elmlər doktoru hazırlanmışdır. O, Sovet İttifaqının və müstəqil Azərbaycan Respublikasının 20 orden və medallarına layiq görülmüşdür. 1998-ci ildə Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin fərmanına əsasən “Şöhrət” ordeni ilə təltif olunmuşdur.

Məhz bu tərcümeyi-hala, elmi və ictimai-siyasi fəaliyyətə görə ulu öndər İbrahim Səfərova həmişə böyük hörmət və ehtiramla yanaşırdı. Alimin oğlu İbrahim Səfəroğlunun redaksiyamıza təqdim etdiyi bir çox fotolarda da görkəmli alimin müxtəlif tədbirlərdə ulu öndərlə bərabər çalışdığı anlar görünür.

Alimin xatirələrində qeyd edilir ki, Heydər Əliyev bütün ziyalılara, yaradıcı insanlara həmişə böyük hörmət və ehtiramla yanaşırdı: “Ancaq onun təbiətşünas alimlərə, xüsusən, meşəçilərə, yaşıllıq artıran mütəxəssislərə daha böyük ehtiramı, qayğısı var idi”.

Yeri gəlmişkən, ulu öndər Heydər Əliyev 2002-ci il mayın 2-də Bakıda kecirilən “Azərbaycanın milli – mədəni və təbii irsin qorunub saxlanması – milli parklar proqramı’’ beynəlxalq konfransının iştirakcıları ilə görüşündə demişdir ki, ekologiya indi bəşəriyyət üçün ən əsas məsələlərdən biridir: “İnsanlar hələ bunun əhəmiyyətini, demək olar ki, tam başa düşə bilməyiblər. Hərə öz işini görmək üçün məqsədinə nail olmaq üçün istər – istəməz təbiətə, ətraf mühitə böyük ziyan vurur. Biz cox böyük səlahiyyətlərə malik olan Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaratmışıq. Bundan da məqsədimiz bütün bu sahəyə aid olan məsələlərin hamısını bir əldə toplamaq və bu işlərdə daha ciddi məşğul olmaqdan ibarətdir.’’

Bir sözlə, ötən əsrin 70-80-ci illərində Azərbaycanda salınan yaşıllıq zonaları məhz Heydər Əliyev zəkasının, onun yorulmaz fəaliyyətinin, bu, böyük insanın varlığına hopmuş Vətən sevgisinin nəticəsidir. Ulu öndər həmin layihələrin hamısını məhz İbrahim Səfərov kimi görkəmli alimlərin yaxından köməyi və dəstəyi ilə reallaşdırırdı. Bu gün həmin qəbildən olan layihələrə daha çox ehtiyac var. Çünki beynəlxalq aləmdə az qala bütün qitələri öz təsiri altına alan iqlim dəyişmələri bir çox ölkələrdə kəskin quraqlıqlarla müşayiət olunur ki, bu da böyük şəhərlərdəki yaşıllıqlar üçün müxtəlif fəsadlar törədir. Bakı və Abşeron hələ ki, həmin təsirləri az hiss edir. Çünki biz dövlət siyasətimizin uzaqgörənliyi və təbiətşünas alimlərimizin ümumiləşdirmələri sayəsində bir çox qabaqlayıcı tədbirlər həyata keçirmişik.

***İttifaq MİRZƏBƏYLİ,***
***“Xalq qəzeti”***

# Ulu öndərin təhsil siyasətinin uğurları

**Heydər Əliyev İli çərçivəsində Nəsimi Rayon İcra Hakimiyyətində keçirilən rayon icra hakimiyyəti başçısı yanında şuranın geniş tərkibli iclasında rayonda 2022/2023-cü tədris ilinin yekunları və yeni təhsil ilinə hazırlığın vəziyyəti müzakirə olunub.**

Ümummilli lider Heydər Əliyevin Azərbaycanda elm və təhsillə bağlı siyasətindən danışan rayon icra hakimiyyətinin başçısı Asif Əsgərov qeyd edib ki, bu uğurlu siyasət real şəkildə özünün müsbət təzahürünü göstərib. Azərbaycan müstəqillik qazandıqdan sonra ölkədə təhsilin milli əsaslar üzərində yenidən qurulması, əsl inkişafa qovuşması məhz Heydər Əliyev dühası sayəsində gerçəkləşib.

Vurğulanıb ki, ümummilli liderin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev tərəfindən ölkəmizdə təhsilə olan diqqət və qayğı göz qabağındadır. Son illərdə ölkədə yeni məktəb binalarının tikintisi və köhnələrin əsaslı təmiri böyük vüsət alıb. Eyni zamanda, ölkəmizdə təhsil infrastrukturunun yenilənməsinə Cənubi Qafqazın ən böyük ictimai təşkilatı olan Heydər Əliyev Fondu da öz töhfəsini verir. Birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi fond tərəfindən reallaşdırılan “Yeniləşən Azərbaycana yeni məktəb” layihəsi çərçivəsində ölkənin müxtəlif bölgələrində 100 mindən artıq şagirdin təhsil aldığı 400-dək məktəb binası inşa olunub və yaxud əsaslı şəkildə yenidən qurulub.

Sonra qəbul imtahanlarında yüksək nəticələr göstərmiş, qızıl və gümüş nişana layiq görülmüş məzunlara qiymətli hədiyyələr, həmçinin təhsildə fərqlənən və rayon ərazisində yaşayan sosial qayğıya ehtiyacı olan ailələrdən 500 nəfərdən artıq şagirdə məktəbli forması təqdim edilib.

Sonda 2 nömrəli və 5 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin dərnək üzvlərinin müxtəlif musiqi nömrələri səsləndirilib.

***“Xalq qəzeti”***



# Qarabağ və Şərqi Zəngəzur Türk bayraqlarının paradına hazırlaşır

## Hələlik isə orada Azərbaycan, Türkiyə, Qazaxıstan və Özbəkistanın dövlət bayraqları dalğalanır



*Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə əlaqələrin bütün sahələrdə möhkəmləndirilməsi Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biridir. Azərbaycan həmişə Türk dünyasının sıx birləşməsinə öz töhfəsini verib və bundan sonra da Türk dünyasının birliyi amallarına sadiq qalacaq. 2009-cu ildə Naxçıvan Zirvə görüşündən başlayaraq təşkilatımız böyük inkişaf yolu keçmişdir.*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Əziz dostum və qardaşım İlham Əliyev ilə Qarabağa, Füzuliyə səfərim ürəyimdəki böyük arzularımdan biri idi. Bu qələbə üçün qardaşımın çiyninə çətin vəzifələr düşdü. Amma bu vəzifələr onun ədaləti və həqiqəti bərpa etmək üçün göstərdiyi bütün səylərin nəticəsidir ki, qardaşım Qarabağda Qələbə qazandı. Bu qələbəni ancaq Vətəninin böyük övladı, xalqını sevən belə müdrik Prezident qazana bilər. Belə bir Prezident qardaşımızın varlığından qürur duyuruq.*

**Şavkat MİRZİYOYEV,**
**Özbəkistan Respublikasının Prezidenti**

**Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin Azərbaycana dövlət səfəri, bu səfər çərçivəsində işğaldan azad edilmiş Füzuli və Şuşa şəhərlərinə getməsi, Füzuliyə qayıtmış keçmiş məcburi köçkünlərə möhtəşəm bir təhsil müəssisəsi hədiyyə etməsi, həqiqətən də, unudulmaz bir tarixi fakt oldu. Bu səfəri Daşkənd və Bakıdan əlavə, həm Özbəkistana, həm də Azərbaycana dost olan ölkələrin mətbuatı da geniş şəkildə işıqlandırdı. Səfərin tarixiliyini sübut edən əsas amillərdən biri də bədxahlarımızın "Türk liderlərinin Qarabağa səfərləri davam edir" – deyə narahatlıq və nigarançılıq keçirməsi idi.**

Ancaq Türk dünyası düşmənlərini narahat edən təkcə bu fakt deyil. Onları narahat edən Azərbaycanın Türk dünyasındakı fəallığının və təşəbbüskarlığının artmasıdır. Prezident İlham Əliyevin Praqada Serj Sarkisyana dediyi "Burada Türkiyə yoxdur, mən buradayam" deməsi, "Qardaşım Ərdoğan Bakıya gələ bilmirsə, mən Ankaraya gedərəm" – qətiyyəti hələ uzun müddət erməni ideoloqlarının qulağında cingildəyəcək.



Üstəlik, bu ilin fevralında Türkiyədə baş vermiş dəhşətli zəlzələdən sonra da Prezident İlham Əliyev bütün Türk dünyasında alqışlanan bir təşəbbüslə çıxış etmişdi. Xatırladaq ki, TDT-nin növbəti sammitinin Şuşada keçirilməsi planlaşdırılmışdı. Ancaq zəlzələdən sonra Prezident İlham Əliyev təşəbbüslə çıxış etdi ki, qardaş ölkəyə dəstək məqsədilə zirvə görüşü Ankarada keçirilsin. Digər iştirakçı ölkələrin rəhbərliyi ilə razılaşdırıldıqdan sonra bununla bağlı müvafiq qərar qəbul olundu və tədbir reallaşdırıldı. Fikrimizcə, bu, bir daha Azərbaycan –Türkiyə qardaşlığının, Türk dünyasında qarşılıqlı dəstəyin və hörmətin bariz nümunəsidir.

Türkdilli dövlətlər arasındakı qarşılıqlı dəstəyi biz həmişə görmüşük və yenə də şahidi oluruq. 44 günlük İkinci Qarabağ müharibəsi zamanı daim yanımızda olan Türkiyə işğaldan azad edilmiş ərazilərimizin bərpasında da böyük təşəbbüskarlıq və məsuliyyətlə iştirak edir. Həm Füzulidə, həm də Zəngilanda istifadəyə verilmiş Beynəlxalq Hava limanlarının ilk rəsmi qonağı məhz cənab Rəcəb Tayyib Ərdoğanın olması bədxahlarımıza göndərilən təsirli mesaj idi.

Ancaq Türk dünyasının Azərbaycanın yanında olmasını göstərən faktlar bununla yekunlaşmır. Ötən il avqustun bu günlərində ölkəmizdə rəsmi səfərdə olan Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev avqustun 24-də Azərbaycan Prezidenti İlham Əliyevlə birlikdə Füzuli şəhərinə getmiş, bu ölkənin "Bİ-Group" Holdinqi tərəfindən Füzuli şəhərində uşaqlar üçün inşa ediləcək Kurmanqazı adına Yaradıcılığın İnkişafı Mərkəzinin layihəsi ilə tanış olmuşdular.

"Bİ-Group" Holdinqin Direktorlar Şurasının sədri Aydın Raximbayev tədbir iştirakçılarına məlumat vermişdi ki, bu layihə Qazaxıstan Prezidentinin şəxsi tapşırığı əsasında qısa müddət ərzində hazırlanıb. Layihə dörd böyük istiqamətdən ibarətdir: musiqi – vokal və xor oxuma, müasir texnologiyalar, yəni, uşaqların daha çox xoşuna gələn, uşaq potensialını üzə çıxaran, sənət və yaradıcılıq – dulusçuluq sənəti, heykəltaraşlıq və əlbəttə ki, idman – oyun zalları, xoreoqrafiya... Əlavə edək ki, 2 hektar ərazidə müasir memarlığa uyğun binalar, amfiteatr inşa edilir. Burada uşaqların yaradıcılığını üzə çıxarmaq və inkişaf etdirmək üçün hər cür şərait olacaq.

Onu da əlavə edək ki, Azərbaycan Prezidentinin Qazaxıstanın "Altın kıran" – "Qızıl qartal" ali ordeni ilə təltif edilməsi xalqlarımızın dostluğunun və qardaşlığının təsdiqi, İlham Əliyevin Azərbaycan –Qazaxıstan münasibətlərinin möhkəmlənməsi üçün gördüyü işlərə verilən yüksək qiymətdir. Biz məmnunuq ki, Azərbaycan və Qazaxıstan bütün məsələlər üzrə eyni mövqeyi nümayiş etdirirlər. Tarixi zəfərimizdən sonra Qazaxıstan da bu uğurlarımızı öz uğuru kimi qəbul edən ölkələrdən biri kimi çıxış edib. Hazırda işğaldan azad edilmiş ərazilərimizin yenidən qurulması prosesində iştirak etmək istəyən, həmin əraziyə sərmayə yatırmaq üçün müraciət edən şirkət və özəl sektor nümayəndələri içərisində də Qazaxıstan təmsilçiləri xüsusi mövqe tutur.

O ki qaldı, cənab Şavkat Mirziyoyevin Bakı, Füzuli və Şuşaya səfərlərinə, fikrimizcə, bu Ermənistan və onun havadarlarının uzun müddət işğal altında saxladığı ərazilərimizin bərpasına verilən möhtəşəm dəstəyin göstəricisidir. Cənab Mirziyoyev Füzuli şəhərində MİDA yaşayış kompleksində yeni evlərə köçürülmüş sakinlərlə görüşdə dedi ki, qardaşımın qələbəsindən sonra iki xalqın böyüklüyü, gələcəkdə də bir-biri ilə dostluğunu davam etdirməsi üçün bir məktəb tikdirmək arzusunda idim: "Bu gün arzum gerçəkləşdi. Mən sizi qayıdışınız və qələbəniz münasibətilə təbrik edirəm. Sizin gələcək həyatınızın firavanlığı üçün qardaşım İlham Heydər oğlu Azərbaycanın dünya birliyində ildən-ilə nüfuzunu artırır. Görülən işlər gözəl nümunədir və biz bu xəbərləri eşitməkdən, bu möhtəşəm işləri görməkdən ancaq xoşbəxtik".

Sonda qardaş ölkənin dövlət başçısı tərəfindən azərbaycanlı məktəblilərə hədiyyə edilmiş təhsil müəssisəsinin bəzi göstəricilərini də yada salaq. Məktəbin açılışında prezidentlərə məlumat verildi ki, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən özbək xalqı adından hədiyyə olaraq Füzulidə inşa edilən məktəb 960 şagird yerlikdir. Ötən il başlanılan tikinti işləri yüksək keyfiyyətlə həyata keçirilib. Üç hektar ərazidə inşa edilən məktəb binası iki mərtəbə və zirzəmidən ibarətdir. Məktəbdə 40 sinif otağı, 6 laboratoriya, 2 informatika otağı, 5 funksional tədris otağı, 500 yerlik akt zalı, idman zalı, 320 yerlik yeməkxana, kitabxana var. Məktəbin həyətyanı ərazisində futbol meydançası, istirahət və keçiriləcək tədbirlər üçün yerlər, qaçış zolaqları, söhbətgahlar, nəzarət-buraxılış məntəqəsi, qazanxana, su çənləri, transformator yarımstansiyası inşa edilib. Tikinti işləri yüksək keyfiyyətlə həyata keçirilib.

Ən başlıcası, cənab Mirziyoyevin "Azərbaycan bizim üçün yaxın dost və zamanın sınağından çıxmış etibarlı strateji tərəfdaşdır" sözləri artıq öz təsdiqini dəfələrlə tapmışdır. Prezident İlham Əliyevin fikrincə, zaman sübut etmişdir ki, ölkələrimiz arasındakı həmrəylik, dostluq və qardaşlıq bizə və Türk dünyasına hələ çox uğurlar qazandıracaqdır.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***

**30 Avqust Türkiyə Cümhuriyyətinin Zəfər Bayramıdır**

**...Türkiyənin parçalanmasının qarşısını almaq üçün təşkil edilən Böyük hücum 1922-ci il avqustin son günlərində Afyonda başlanıb və qardaş Türk Ordusunun qələbəsi ilə başa çatıb. Anadolu torpaqlarının "Türk Vətəni" olduğu bir daha düşmənlərə sübut edilib. O zaman Türk Ordularının Baş Komandanı general Mustafa Kamalın şəxsən rəhbərlik etdiyi böyük hücumun son nöqtəsi avqustun 30-da qoyulub.**

# Anadoluda "Türk Vətəni"nin xilas günü



Bu zəfər ilk dəfə 1923-cü il avqustun 30-da Ankara, Afyonkarahisar və İzmirdə böyük təntənə ilə bayram edilib. Növbəti ildə isə Dumlupınarda Çal Kəndi yaxınlarında Cümhurbaşqanı Mustafa Kamal Atatürk şəxsən zəfər mərasiminə qatılıb və ömür-gün dostu Lətifə xanımla birlikdə Naməlum əsgər abidəsinin təməlini qoyub. O vaxtdan Zəfər Bayramı ilbəil çox böyük coşğu ilə keçirilir. Hazırda bu gün, eyni zamanda, Türkiyə Cümhuriyyətinin və Şimali Kipr Türk Cümhuriyyətinin milli bayramı hesab olunur.

O zaman hərbi gücü xeyli zəiflədilən, amma Vətən qeyrəti ilə ölüm-qalım savaşına qalxan türk xalqı ölkəsinin parçalanıb bölüşdürülməsinə qarşı çıxdı və ərazi bütövlüyünü bərpa edə bildi. Həmin ərəfədə, necə deyərlər, ayaqları yer almış ingilis və fransız orduları Çanaqqalaya o əminliklə hücum etmişdilər ki, özlərinin üstün müasir silahları, təlimi qarşısında, Balkan müharibəsindən yorğun çıxmış türk əsgəri mübarizə apara bilməyəcək. Hətta türklərlə müttəfiqlik edən alman zabitləri də eyni düşüncədə idilər. Lakin Ənvər Paşanın sərt intizamı ilə ilyarım ərzində hazırlanan Türk Ordusu düşməni tapdaq etmək istədiyi torpaqlardan birdəfəlik qovdu. Mustafa Kamal Paşa bu mübarizəni bütün məzlum millətlərin, bütün Şərqin mübarizəsi adlandırıb.

Artıq bir əsrdir ki, Türkiyə Silahlı Qüvvələri dünyada ən yurdsevər, millətsevər, bayraqsevər və əyilməz bir ordu sayılır. Bir millət, iki dövlət olan Azərbaycanla Türkiyə arasındakı münasibətlər bu gün bütün sahələrdə olduğu kimi, hərbi əməkdaşlıq sahəsində də bir nümunədir. Hələ 1918-ci ildə Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu və Azərbaycan Korpusu Bakıya daxil olaraq şəhəri erməni-bolşevik işğalından azad edib. Beləliklə, həm Azərbaycanın müstəqilliyi təmin olunub, həm də ermənilərin və bolşeviklərin Bakı və ətraf rayonlardakı ağalığına son qoyulub. O zaman Bakının işğaldan azad edilməsi XX əsr Azərbaycan tarixinin ən şərəfli səhifələrindən biri olub.

Elə Çanaqqala savaşında da azərbaycanlılar gizli yollarla Türkiyəyə gedərək öz canları və qanları ilə bütövlük mübarizəsinə qatılıblar. Həmin sınaq və şərəf döyüşündə Türkiyənin 253 min döyüşçüsü ilə yanaşı, 3 minə yaxın azərbaycanlı da şəhid olub. Balkan savaşlarında, Türkiyənin İstiqlal mücadiləsində də yüzlərlə azərbaycanlı döyüşərək canından keçib. Geliboludakı türk şəhid məzarlıqlarında azərbaycanlılara aid qəbirlər türk zəfərlərində bizim də izimizin olmasını təsdiqləyir. 1915-ci ildə Rusiya və Osmanlı Türkiyəsi arasında müharibə başlanan zaman müəyyən sayda soydaşımız Tiflis şəhərində toplanaraq Çanaqqala cəbhəsinə yola düşüb və Türkiyənin harayına tələsib. Eyni zamanda, Güney Azərbaycandan olan həmvətənlərimizin də Osmanlı tərəfdə vuruşmaq üçün Qarakilsədə toplaşaraq Geliboluya yola düşməsini təsdiqləyən faktlar mövcuddur...

2016-cı il iyul ayının 15-də İstanbul və Ankarada baş vermiş dövlət çevrilişi cəhdinin qarşısı alınan zaman da biz qardaşlarımızdan siyasi və mənəvi dəstəyimizi əsirgəmədik.

Bu gün NATO-nun üzvü olan Türkiyə yaxın Şərq və Aralıq dənizi regionunda sülhün təminatçısı kimi tanınır. Qardaş ölkə Cənubi Qafqazda da sülh carçısı olan və səsi aydın eşidilən bir dövlətdir. Türkiyənin Qarabağ məsələsində tutduğu mövqe, 44 günlük Zəfər yürüşündə bizə hər cür siyasi və mənəvi dəstək göstərməsi, Ermənistanın işğalçılıq siyasətini daim pisləməsi, bu sahədə bütün imkanlarını səfərbər etməsi qürurvericidir.

Bu yerdə 2020-ci ilin 10 dekabr – Bakı qələbəliyi, Şərəf nümayişimiz olan Zəfər Paradı yada düşür. Prezident İlham Əliyevlə yanaşı, Prezident Rəcəb Tayyib Ərdoğan da tədbirdə böyük məmnuniyyətlə iştirak edirdi. 2018-ci ildə, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə keçirilən parada da qardaş ölkənin rəhbəri qatılmışdı. Azadlıq meydanındakı yüksək tribunada 2 prezident – İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan yanaşı dayanmışdılar. Qürurlu, qətiyyətli, müdrik, millətinə və dövlətinə böyük sevgi ilə dolu – 2 qardaş! Tribunanın önündən isə mətin addımlarla hər iki ölkənin igid hərbçiləri keçirdilər. Bir daha əmin olduq ki, Azərbaycan–Türkiyə qardaşlığı sarsılmazdır. Zəfər Paradı Vətən müharibəsində canını qurban vermiş şəhidlərimizin sayı qədər – 3 min mehmetciyin iştirakı ilə daha da möhtəşəm oldu. Onların bir gün əvvəldən Bakı küçələrindən keçərək hərbi orkestrin müşayiəti ilə türk marşlarını ifa etmələrinə baxdıqca gözümüz, könlümüz işıqlanırdı.

Vətən müharibəsindən sonra birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimlərinin keçirilməsi fərəh doğurmaqla yanaşı, bədxahlarımıza gücümüzü, birliyimiz göstərir. Hələ bir təlimlərin bəzilərinin adlarına fikir verin: "Mustafa Kamal Atatürk", "Anadolu Qartalı", "TurAz Qartalı", "Anadolu ulduzu", "Erciyes", "Sarsılmaz Qardaşlıq"... Necə deyərlər, görünən dağa nə bələdçi!?

2021-ci il iyunun 15-də imzalanmış Şuşa Bəyannaməsi isə əməkdaşlıq platformasını daha da genişləndirib. Bu sənəddə bir çox önəmli məsələlər öz əksini tapır. Beynəlxalq müstəvidə birgə əməkdaşlığımız, fəaliyyətimiz, siyasi, iqtisadi-ticarət əlaqələri, mədəniyyət, təhsil, idman, gənclər siyasəti– demək olar ki, bütün sahələr əhatə olunur. Müdafiə sahəsində əməkdaşlıq isə xüsusi mahiyyət daşıyır. Bu, o deməkdir ki, biz bundan sonra da hər zaman bir yerdə olacaq, bir-birimizin təhlükəsizliyini təmin edəcəyik.

Azərbaycan Ordusunun Türkiyə modelinə uyğunlaşdırılması istiqamətində işlər uğurla aparılır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 28-də Türkiyə Respublikasının Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Metin Gürakı qəbulu edib və söhbət zamanı bu, xüsusi vurğulanıb. Ordu generalı M.Gürak Bakıda həmkarları ilə görüşündə Azərbaycan və Türkiyə hərbçilərinin iştirakı ilə cari ildə və 2024-cü ildə keçirilməsi planlaşdırılan birgə tədbirlərin əhəmiyyətini qeyd edib.

...Bəli, Türkiyə və Azərbaycan ən mürəkkəb dövrlərdə bir-birinə qeyd-şərtsiz dəstək olublar. Bizi birləşdirən köklər Dədə Qorquddan Koroğluya, Mövlanadan Nəsimiyə, Nuru Paşadan, Çanaqqala savaşından Qarabağa qədər zəngin bir tarixi özündə yaşadır. Mübarizə və zəfərlərlə zəngin olan son yüzildə birlikdə yaşadıqlarımız isə xalqlarımızı və dövlətlərimizi bir-birinə daha sıx bağlamışdır.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***

# Azərbaycan "yaşıl inkişaf" ölkəsinə çevrilir

**(əvvəli 1-ci səhifədə)**

Sirr deyil ki, ölkəmizin iqtisadi inkişafının təməlində uğurla həyata keçirilən neft strategiyası dayanıb. Bu istiqamətdə həyata keçirilən qlobal təşəbbüslər, imzalanan kontraktlar, atılan düzgün addımlar respublikamızı indiyədək üzləşilən iqtisadi böhranlardan minimum itkilərlə çıxarıb. Eyni zamanda, həmin strategiya əsasında gerçəkləşdirilən layihələr Azərbaycanın gəlirlərini artırıb, bununla da iqtisadiyyatın qeyri–neft–qaz sektorunda inkişafa nail olunub, sosial mühit getdikcə yaxşılaşıb, bütün bunlarla yanaşı, respublikamızın dünyada etibarlı tərəfdaş mövqeyi davamlı şəkildə möhkəmlənib.

Beləliklə, Azərbaycan "Əsrin müqaviləsi"ndən indiyədək ötən müddətdə energi siyasətini yüksək səviyyədə reallaşdırıb. Nefi–qaz layihələrində olduğu kimi, bərpaedilən enerji təşəbbüslərinin gerçəkləşməsinə də uğurla başlayıb. Yeri gəlmişkən, "Azərbaycan 2030: Sosial-İqtisadi İnkişafın Milli Prioritetləri" sənədində "Təmiz ətraf mühit və "yaşıl inkişaf" ölkəsi" 5 milli prioritetdən biri müəyyənləşdirilib. "Azərbaycan Respublikasının 2022-2026-cı illər üçün Sosial-İqtisadi İnkişaf Strategiyası"nda da bu prioritetlə bağlı qarşıya önəmli vəzifələr qoyulub. Belə ki, ölkəmizdə quraşdırılan gücün bərpaedilən enerji mənbələrinin payının 2030-cu ilə qədər ən azı 30 faizə çatdırılması planlaşdırılıb və işğalçıdan təmizlənən ərazilərdə sıfır emissiyalı "Yaşıl enerji zonası"nın yaradılması əsas məqsəd kimi nəzərdə tutulub.



"Azərbaycan 2030: Sosial-İqtisadi İnkişafın Milli Prioritetləri"nə əsasən, respublikamızın "Təmiz ətraf mühit və "yaşıl inkişaf" ölkəsi"nə çevrilməsi üçün güclü potensial mövcuddur. Bu potensial isə daha çox Xəzər dənizi ilə bərabər, "yaşıl enerji" zonası kimi təsdiqlənən Qarabağ–Şərqi Zəngəzur iqtisadi rayonunda yerləşir.

Beynəlxalq Enerji Agentliyi (IEA) də Azərbaycanı həm daxili istifadə, həm də ixrac üçün bərpaolunan enerji mənbələri baxımından mühüm potensiala malik ölkə kimi dəyərləndirir. Bildirir ki, respublikamızda Avropaya ixrac məqsədilə "yaşıl hidrogen" istehsalının reallaşdırılmasını şərtləndirən resurs və lazımi infrastruktur mövcuddur. Avropanın "yaşıl hidrogen" üzrə hədəflərinə çatmaq üçün məhdud daxili potensialını nəzərə alsaq, onun idxala ciddi ehtiyac duyduğu açıq görünür. Bu isə respublikamızın qarşısında əlverişli imkanlar açır.

Ekspertlər tərəfindən daxili qaz istehlakının bərpaolunan enerji mənbələri ilə əvəzlənəcəyi təqdirdə qaz həcmlərinin ixracdan azad olunacağı bildirilir və eyni zamanda, ölkəmizdə bu yolla Avropaya 20 milyard kubmetrdək qaz ixracı üçün kifayət qədər "mavi yanacaq" hasilatının reallaşdırmasının mümkünlüyü vurğulanır. Artan qaz həcmlərinin tədarükü məqsədilə TAP-ın imkanlarının genişləndirilməsi avropalı idxalçılardan uzunmüddətli sazişlər bağlamağı da tələb edir.

Qeyd edək ki, son illərə qədər bu məsələnin həllinə inamsızlıqla yanaşılsa da, hazırda Avropanın hələ uzun müddət qaza ehtiyacı olacağı getdikcə daha çox anlaşılır və buna görə Qətər və ABŞ-dan tədarükçülərlə maye təbii qaz idxalı üzrə uzunmüddətli sazişlər imzalanır. Azərbaycan bu fürsətdən yararlanaraq Avropaya qaz tədarükünü artıracağına və etibarlılığına zəmanət verir. Bu məqsədin gerçəkləşməsi nəticəsində isə lazımi infrastrukturun böyük hissəsini, Cənub Qaz Dəhlizi ilə genişləndirmə layihəsini həyata keçirmək daha asandır. Yeganə tələb isə qaz tədarükü üzrə uzunmüddətli sazişlərin bağlanmasıdır.

Azərbaycanın bu ilin yanvar-iyul aylarında təbii qaz ixracı ilə bağlı göstəriciləri də ölkəmizin Avropanın qaz təchizatında xüsusi yer tutduğunu təsdiqləyib. Belə ki, cari ilin ilk yarısında ölkəmizin qaz ixracı 8 milyard 29 milyon 189 min dollar dəyərlə 10 milyard 956 milyon 188 min kubmetr olub. İxracın 55 milyon 511 min dollarlıq 326 milyon 532 min kubmetri Rusiyaya, 179 milyon 204 min dollarlıq 445 milyon 189 min kubmetri Bolqarıstana, 206 milyon 140 min dollarlıq 1 milyard 186 milyon 478 min kubmetri Gürcüstana, 436 min dollarlıq 11 milyon 460 min kubmetri İrana, 5 milyard 306 milyon 509 dollarlıq 4 milyard 438 milyon 130 min kubmetri İtaliyaya, 171 milyon 247 min dollarlıq 184 milyon 287 min kubmetri Rumıniyaya, 1 milyard 557 milyon 374 min dollarlıq 3 milyard 973 milyon 219 min kubmetri Türkiyəyə, 552 milyon 772 min dollarlıq 390 milyon 895 min kubmetri Yunanıstana reallaşıb.

Rusiyaya min kubmetr qazın ixracı 170 dollara, Bolqarıstana 402,5 dollara, Gürcüstana 173,7 dollara, İrana 38 dollara, İtaliyaya 1196 dollara, Rumıniyaya 929 dollara, Türkiyəyə 392 dollara, Yunanıstana 1414 dollara həyata keçirilib.

Azərbaycanın qaz ixrasında fəaliyyəti ilə fərqlənən ölkələrdən biri də Macarıstandır. Bu ölkənin xarici işlər naziri Peter Siyartonun mətbuata müsahibəsində bildirdiyinə görə, Budapeşt və Bakı arasında imzalanan sazişə əsasən, Azərbaycan qazının ölkəsinə nəqlinin həcmi, təqribən, 1 milyard kubmetrə çatdırılacaq.

Peter Siyartonun sözlərinə görə, cari ilin dördüncü rübündə Macarıstanın Azərbaycandan 100 milyon kubmetr qaz alması planlaşdırılır. Nazir vurğulayıb ki, ölkəsi uzun müddətdir ki, Azərbaycanla əməkdaşlığı inkişaf etdirir və imzalanan saziş qaz tədarükünün daha da artırılmasını– bir milyard kubmetrə çatdırmasını nəzərdə tutur. O, həmçinin Macarıstan rezervuarlarında 50 miyon kubmetr Azərbaycan qazının saxlanmasına dair razılaşma əldə olunduğunu da bildirib.

Macarıstanın xarici işlər naziri sonda ölkəsinin qaz tədarükünün şaxələndirilməsi üzərində işlədiyini və Ekvadordan neft idxalı imkanlarını nəzərdən keçirdiyini xatırladıb.

Qeyd edək ki, bir müddət bundan əvvəl Macarıstanın "MVM CEEnergy" enerji şirkəti ilə Azərbaycanın neft-qaz şirkəti SOCAR arasında 2023-cü ilin sonuna qədər bu ölkəyə ildə 2 milyard kubmetrə qədər mümkün artımla 100 milyon kubmetr qaz tədarük edilməsi haqqında saziş imzalanıb.

***Vaqif BİNYATOĞLU,***
***"Xalq qəzeti"***

## İqtisadçı rəyi



**Hüseynqulu QULİYEV,**
**iqtisadçı-ekspert**

Azərbaycanın Avropaya maye təbii qaz ixracı ilə yanaşı, "yaşıl enerji" tədarükü də diqqətdə saxlanılır. Təbii ki, bu amil ölkəmizdə mövcud siyasi sabitlik və davamlı iqtisadi inkişafla bərabər, güclü bərpaolunan enerji potensialı ilə əlaqədardır. Faktlar da bunu təsdiqləyir. Məsələn, dövlətimizin başçısının çıxışlarının birində bildirdiyi kimi, respublikamızın quruda külək və günəş enerjisinin həcmi 27 qiqavatdan çoxdur, Xəzər dənizinin Azərbaycan sektorunda isə külək enerjisi 157 qiqavat təşkil edir.

Ölkə rəhbəri 2027-ci ilə qədər 3 qiqavat külək və 1 qiqavat günəş enerjisinin istehsal olunacağının planlaşdırıldığını və həmin göstəricilərin 80 faizinin ixraca yönəldiləcəyini, ümumiyyətlə, 2037-ci ilə qədər, ən azı, 6 qiqavatlıq əlavə güclər yaradılmasının nəzərdə tutulduğunu söyləyib: "Təkcə bir qlobal enerji şirkəti Azərbaycanda 10 qiqavat yaşıl enerjinin istehsalına yatırımlar etməyi planlaşdırır. Azərbaycanın Energetika Nazirliyi imzaladığı qlobal enerji şirkəti ilə çərçivə sazişinə əsaslanaraq Azərbaycanda 12 qiqavata qədər külək və günəş enerjisinin istehsalına sərmayə qoymağı planlaşdırır. Beləliklə, Azərbaycan ixracının birinci mərhələsində, ən azı, 3 qiqavatlıq əlavə ötürmə gücü yaradılacaq".

Xatırladaq ki, Dünya Bankı Qrupunun təşəbbüsü olan "Enerji Sektorunun İdarə Edilməsinə Yardım Proqramı"nda da Azərbaycanın dənizdə külək enerjisinin texniki potensialı 157 GVt olaraq qiymətləndirilir. Belə bir göstərici isə hazırda ümumi quraşdırılan, təqribən, 8 GVt güc ilə müqayisədə çox böyük göstəricidir.

Azərbaycan Energetika Nazirliyi, Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyası (IFC) tərəfindən dərc edilən "Azərbaycanda dənizdə külək enerjisinin yol xəritəsi" ölkənin 2040-cı ilədək dənizdə ümumi quraşdırılmış gücü 7 GVt olan külək elektrik stansiyası quraşdırmaq potensialına malik olduğundan xəbər verir. Bu, 69 min insan ilindən çox tam məşğulluğu və yerli səviyyədə 7 milyard ABŞ dollarınadək ümumi əlavə dəyəri təmin edə bilər.

# Nağdsız əməliyyatlar 2 dəfə artıb

**2023-ci ilin iyul ayı ərzində kartlar vasitəsilə həyata keçirilən ölkədaxili nağdsız ödənişlərin həcmi 4 milyard 556 milyon manat təşkil edib.**



Azərbaycan Mərkəzi Bankından "X.Q"ya verilən məlumata görə, ölkədaxili nağdsız əməliyyatların həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,2 dəfə artıb. Həyata keçirilən nağdsız ödənişlərin 3 milyard 583 milyon manatı elektron ticarətin payına düşüb. Qalan məbləğin 965 milyon manatı POS-terminallar, 7 milyon manatı isə özünə xidmət terminalları vasitəsilə həyata keçirilib. İlin əvvəlindən ödəniş kartları ilə nağdsız ölkədaxili əməliyyatların həcmi ölkədaxili kart əməliyyatlarının 53 faizni təşkil edib.

Qeyd edək ki, son zamanlar banklar və "Azərpoçt" MMC-nin ödəniş xidməti şəbəkələri üzrə dinamik artım müşahidə olunur. Belə ki, ötən ilin iyul ayının sonu ilə müqayisədə bankomatların sayı 2,6 faiz, POS-terminalların sayı isə 17,1 faiz artıb.

# Milli ixracın 7 aylıq "kardioqramı"

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) təqdim etdiyi "İxrac icmalı"nın avqust sayına əsasən, 2023-cü ilin yanvar-iyul ayları ərzində Azərbaycanın ümumi ixracı 20,8 milyard ABŞ dolları olmuşdur. Qeyri-neft sektoru üzrə ixrac isə 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 17,8 faiz artaraq 2 milyard ABŞ dolları təşkil edib. 2023-cü ilin yanvar-iyul ayları ərzində yeyinti məhsulları üzrə ixrac 520 milyon ABŞ dollarına bərabər olub. 2023-cü ilin yanvar-iyul ayları ərzində elektrik enerjisi 5,5 dəfə, spirtli və spirtsiz içkilərin ixracı 4,4 dəfə, şəkər ixracı 53,1 faiz, meyvə-tərəvəz ixracı isə 46,6 faiz artıb.**



Hesabat dövründə aqrar və aqrar-sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri 10,6 faiz artaraq 540,2 milyon ABŞ dolları təşkil edib. Qeyri-neft-qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı dəyər ötən ilin müvafiq dövrü ilə müqayisədə 41,3 faiz artaraq 119,4 milyon ABŞ dolları təşkil edib.

2023-cü ilin iyul ayının qeyri-neft ixracı ötən ilin müvafiq dövrü ilə müqayisədə 0,4 faiz artaraq 233,2 milyon ABŞ dolları təşkil edib. Hesabat ayında yeyinti məhsulları üzrə ixrac 60,1 milyon ABŞ dollarına, qeyri-yeyinti məhsulları üzrə isə 1,5 faiz artaraq 173,2 milyon ABŞ dollarına bərabər olub.

***"Xalq qəzeti"***

**Azərbaycanın işğaldan azad azad olunmuş torpaqlarında həyat yenidən əvvəlki məcrasına qayıdır. Hazırda möhtəşəm tarixi qələbənin sevincini yaşayan xalqımız Ali Baş Komandan, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzurun quruculuq salnaməsini yaradır. Düşmənin 30 il ərzində viran qoyduğu ərazilərimizin, daşı daş üstdə saxlamadığı yurd yerlərinin bərpası sürətlə davam etdirilir.**

# Qarabağ və Şərqi Zəngəzur sürətlə dirçəldilir

## *Bu il bərpa işlərinə 12 milyard manat xərclənəcək*



Dövlət başçısı İlham Əliyevin müəyyənləşdirdiyi bərpa və quruculuq missiyasının uğurla yerinə yetirilməsi üçün bütün imkanlar səfərbər olunub. Ötən müddətdə işğaldan azad olunmuş ərazilərimizdə insanların rahat və firavan yaşayışın təməlinin qoyulması üçün mühüm infrastruktur layihələri icra olunub. Azərbaycan bütün bu işləri təkbaşına, heç bir ölkədən və beynəlxalq maliyyə qurumundan yardım istəmədən, öz gücü ilə həyata keçirir.

Yeri gəlmişkən, Qarabağ və Şərqi Zəngəzur regionunun bərpa və yenidənqurma işləri üçün dövlət büdcəsindən 2021-ci ildə 2,2 milyard, 2022-ci ildə 2,7 milyard manat vəsait ayrılıb. Bu ilin büdcəsində isə işğaldan azad olunmuş ərazilərin bərpası üçün daha 5 milyard manat vəsaitin xərclənməsi nəzərdə tutulub. Artıq həmin vəsaitin 60 faizi istifadə olunub. Bütövlükdə isə, nəzərdə tutulmuş investisiya proqramı əsasında bu ilin sonuna qədər Qarabağ və Şərqi Zəngəzurda həyata keçiriləcək bərpa-quruculuq işlərinə, təqribən, 12 milyard manata qədər vəsaitin xərclənməsi təmin ediləcək. Bu da Qarabağ və Şərqi Zəngəzurun bərpası və yenidən qurulması ilə bağlı işlərin sürətlə həyata keçirilməsinə dəlalət edir. Bir sözlə, illərlə əsl sahibinə həsrət qalan torpaqlarımızda infrastruktur yenilənir, dədə-baba yurdlarına qayıdacaq soydaşlarımızın rahat yaşaması, işlə təmin olunması, onların təhlükəsizliyi və istirahəti üçün hər cür şərait yaradılır.

İşğaldan azad olunmuş torpaqlarımızın dirçəldilməsi, bu ərazilərdə həyatın əvvəlki məcrasına qaytarılması strategiyasında sənayeləşmə siyasəti mühüm yer tutur. Artıq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yerli və xarici investisiyalar hesabına sənaye parklarının yaradılması prosesi getdikcə sürətlənir. Hazırda həmin ərazilərin iqtisadi potensialının hərəkətə gətirilməsi üçün lazımi infastrukturun yaradılması sürətlə davam etdirilir.

Bu baxımdan Cəbrayıl rayonunda yerləşən "Araz Vadisi İqtisadi Zonası" və Ağdam sənaye parklarında təqdirəlayiq işlər görülür, bölgədə iqtisadi fəallığın təməli qoyulur. İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində yaradılan Ağdam və Cəbrayıldakı "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarında indiyədək investisiya kapitalı 200 milyon manatdan çox olan 31 sahibkarlıq subyektinə rezidentlik və qeyri-rezidentlik statusu verilib. Agentliyin məlumatına görə, həmin sahibkarlıq subyektləri tərəfindən sözügedən sənaye parklarında, ümumilikdə, 2 mindən artıq daimi iş yerinin yaradılması nəzərdə tutulur.

Artıq Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarının rezidentlərinin bir çoxu tikinti işlərinə başlayıb. Hazırda sözügedən parkların ərazisində yeni istehsal sahələrinin yaradılması ilə bağlı işlər sürətlə davam etdirilir. Bununla yanaşı, layihələndirmə mərhələsində olan bir sıra müəssisələrdə də tezliklə tikinti işlərinə başlanılacaq.

Ötən müddətdə işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi istiqamətində həyata keçirilən tədbirlər, xüsusən də ölkəmizdə yaradılmış əlverişli biznes mühiti bir sıra xarici şirkətləri də burada reallaşdırılan layihələrdə iştiraka sövq edib. Son zamanlar Qarabağ və Şərqi Zəngəzurda biznes quran və buna maraq göstərən yerli qurumlarla yanaşı, əcnəbi şirkətlərin də sayı getdikcə artır. İqtisadiyyat Nazirliyinin yaydığı məlumata əsasən, azad edilmiş ərazilərimizdə həyata keçirilən layihələrdə iştirak üçün indiyədək 1500-dən çox şirkət müraciət edib ki, onların da 500-ə qədəri xarici şirkətlərdir. Bu göstərici istər yerli, istərsə də xarici biznes qurumları üçün Qarabağın böyük və çoxistiqamətli iqtisadi potensialının, əlverişli biznes və investisiya imkanlarının nə qədər cəlbedici olduğunu nümayiş etdirir.

Hazırda ölkəmizdəki digər sənaye parklarında olduğu kimi, Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parkında da sahibkarlar üçün əlverişli investisiya mühitinin formalaşdırılması ilə yanaşı, rezidentlər dövlət vəsaiti hesabına qaz, işıq, su, kanalizasiya, daxili avtomobil və dəmir yolları, fiber-optik və s. hazır infrastrukturla təmin edilir. Bununla yanaşı, adıçəkilən parkların rezidentləri qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə bir sıra vergilərdən, o cümlədən istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı əlavə dəyər vergisindən, eləcə də gömrük rüsumlarından azad olunurlar.

Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin kənd təsərrüfatı potensialı da olduqca yüksəkdir. Torpağının hər qarışının qızıla bərabər tutulduğu bu ərazilərdə kənd təsərrüfatı bitkilərinin yetişdirilməsi, eləcə də heyvandarlığın inkişafı üçün çox yaxşı imkanlar mövcuddur. Uzun illər idi ki, azğın düşmənin minalarla çirkləndirdiyi bərəkətli torpaqlarımız qoynunda halal nemətlərin yetişdirilməsinin intizarını çəkirdi. Artıq iki ildən çoxdur ki, Qarabağın və Şərqi Zəngəzurun minalardan təmizlənmiş torpaqlarının əkin dövriyyəsinə qaytarılması istiqamətində işlər sürətlə davam etdirilir. İndi mənfur düşmənin vaxtilə minalar "əkdiyi" torpaqlarımıza düşən hər bir dən cücərək boy atır, ölkədə məhsul bolluğuna töhfə verir.

Dövlət Statistika Komitəsinin məlumatına görə, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları üzrə ötən ilin payızında 2023-cü ilin məhsulu üçün 210 min 478 hektar sahədə dən və yaşıl yem əkilib. Cari ilin yanvar-iyul aylarında adıçəkilən iqtisadi rayonlarının fermer və fərdi təsərrüfatları tərəfindən, ümumilikdə, 105 min hektardan artıq sahədə məhsul yığımı həyata keçirilib. Həmin sahələrdən isə 401 min tondan artıq dənli bitkilər yığılıb. Bununla yanaşı, bu ilin 7 ayı ərzində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının təsərrüfatlarında 1043 ton dən üçün günəbaxan, 16 min 515 ton kartof, 165 min 816 ton tərəvəz, 51 min ton bostan məhsulları, eləcə də 21,3 min ton meyvə və giləmeyvə tədarük edilib.

Göründüyü kimi, işğaldan azad olunmuş ərazilərimizin sənaye və kənd təsərrüfatı potensialının ölkə iqtisadiyyatına reinteqrasiyası uğurla davam etdirilir. Bunun da nəticəsində Azərbaycan iqtisadiyyatı özünün növbəti inkişaf mərhələsinə qədəm qoyacaq, ölkədə ümumi daxili məhsul istehsalında əhəmiyyətli artıma nail olnacaq.

***Mirbağır YAQUBZADƏ,***
***"Xalq qəzeti"***

# Separatçıların Sərsəng su terroru

## “Humanitar böhran” harayı qoparanlar 6 rayonun susuz qalmasına göz yumurlar



**(əvvəli 1-ci səhifədə)**

Xatırladaq ki, 1976-cı ildə Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə hazırda Tərtər (keçmiş Ağdərə) ərazisində tikilən və ümumi sututumu 560 milyon kubmetr və hündürlüyü 125 metr olan Sərsəng su anbarı Azərbaycanın 6 rayonunda (Tərtər, Ağdam, Bərdə, Goranboy, Yevlax və Ağcabədi) 100 min hektara yaxın torpaq sahəsini suvarma suyu ilə təmin edirdi.

Ermənistan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarını qəsb etdiyi 30 ilə yaxın bir müddətdə bu ərazilərdəki yaşayış sahələrini xarabalığa çevirdi, tarixi abidələrimizi dağıtdı, bütün bunlarla bərabər genişmiqyaslı ekoloji terror həyata keçirdi. Böyük su mənbələrinin, o cümlədən Sərsəng su anbarının işğal altında saxlanılması isə bir sıra rayonlarımızın suvarma suyu ilə təmin edilməsində ciddi problemlər yaratdı. Bax, belə bir şəraitdə Qarabağ və Şərqi Zəngəzurun təbiətinə ciddi ziyan vuruldu, ekoloji tarazlıq pozuldu.

Xatırlatmaq yerinə düşər ki, uzun illik işğal dövründə qəsbkar ölkə tərəfindən Sərsəng su anbarı, 130 min hektar ərazini su ilə təmin edən və uzunluğu 6426 kilometrlik suvarma kanalları şəbəkəsi, 185 kilometrlik kollektor və drenaj kanalları, 1429 artezian quyusu, 539 hidrotexniki tikinti obyekti, 220 su elektrik stansiyası, 88 nasos stansiyası, habelə ümumi həcmi 640 milyon kubmetr olan 8 su anbarı yararsız hala salınıb.

Azərbaycan hələ işğalın ilk vaxtlarından başlayaraq, erməni faşizminin törətdiyi ekoloji fəlakətlə bağlı dünya ictimaiyyətini məlumatlandırıb, beynəlxalq qurumları bu vəhşiliyə qarşı mübarizəyə səsləyib. Bunun nəticəsi olaraq 2016-cı il yanvarın 26-da Avropa Şurası Parlament Assambleyası (AŞPA) Sərsəng su anbarı ilə bağlı qətnamə qəbul edib. Bu sənədlə AŞPA tərəfindən Ermənistanı birmənalı şəkildə günahlandırıb, adıçəkilən anbardan Azərbaycan tərəfinə suyun keçməsinin qarşısının mütəmadi olaraq qəsdən alınmasını isə “ekoloji təcavüz” adlandırılıb. Yeri gəlmişkən, həmin qətnamədə Ermənistanın bu əməllərinin 1966-cı il Helsinki və 2004-cü il Berlin qaydalarına tam zidd olduğu bildirilib.

Xatırladaq ki, sözügedən qətnamədə Ermənistan silahlı qüvvələrinin respublikamızın işğal olunmuş ərazilərindən dərhal çıxarılması tələb edilib, bu hal qeyri-insani hərəkət adlandırılıb. Lakin çox təəssüf ki, belə bir qətnamə, həmçinin bu cür vəhşiliyə qarşı imzalanan digər qərar və qətnamələr Ermənistanı faşizm əməllərindən çəkindirməyib.

Nəhayət, onu da bildirək ki, bir neçə gün bundan əvvəl Sərsəng su anbarında yaranmış vəziyyətlə bağlı Azərbaycan Ekologiya və Təbii Sərvətlər, Kənd Təsərrüfatı nazirlikləri və Dövlət Su Ehtiyatları Agentliyi tərəfindən birgə bəyanat yayılıb. Bəyanatda 1976-cı ildə Tərtərçayın üzərində yaradılan və hazırda Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki Sərsəng su anbarının 30 ildir ki, Ermənistan və onun himayə etdiyi qüvvələr tərəfindən məqsədyönlü şəkildə ekoloji və sosial-iqtisadi terror vasitəsi kimi istifadə olunduğu vurğulanıb. Eyni zamanda, qəza vəziyyətində olan su anbarının aşağı hissədə yerləşən yaşayış məntəqələri, təsərrüfatlar və infrastruktur obyektləri üçün ciddi təhlükə yaratdığı xatırladılıb. Bununla əlaqədar AŞPA tərəfindən qəbul olunan 2016-cı il 26 yanvar tarixli Qətnamədə Ermənistanın hərəkətləri Azərbaycan vətəndaşları üçün humanitar və ekoloji problemlərin yaradılmasına yönələn ekoloji təcavüz kimi qiymətləndirilib.

Sənəddə xüsusilə vurğulanır ki, Azərbaycanın Ermənistan tərəfindən işğal olunan ərazilərində yerləşən Sərsəng su anbarının düzgün idarə olunmaması çoxsaylı insan tələfatı və yeni humanitar böhrana səbəb ola biləcək böyük fəlakətə gətirib çıxara bilər. Həmçinin adıçəkilən Assambleya Ermənistan hakimiyyətini su resurslarından siyasi təsir və ya təzyiq vasitəsi kimi istifadə etməyi dayandırmağa çağırıb.

Bəyanatda daha sonra deyilir: “Ümumi su tutumu 560 milyon kubmetr olan Sərsəng su anbarının düzgün və öz təyinatı üzrə idarə olunmaması, su ehtiyatlarından uğursuz, səmərəsiz istifadə edilməsi ətraf mühit və insan sağlamlığına, ümumilikdə regionun ekosistemində ciddi mənfi təsir göstərməkdə, sosial-iqtisadi fəsadlar törətməkdə davam edir.

Belə ki, su anbarının idarə olunması zamanı ekoloji, o cümlədən, iqlim amillərinin nəzərə alınmaması su səviyyəsinin aşağı düşməsi ilə ekoloji risklərin daha da kəskinləşməsinə səbəb olur. Bu vəziyyət su anbarının fauna və florasına mənfi təsir göstərir, bitki örtüyünün məhv olmasına, balıq ehtiyatlarının azalmasına, quşların təbii yaşayış areallarının itirilməsinə, ətrafdakı meşə ərazilərinin qurumasına, eroziya proseslərinin güclənməsinə, səhralaşmaya və ümumilikdə ekosistemin tarazlığının pozulmasına gətirib çıxarır”.

Bəyanatı imzalayan dövlət qurumlarının qənaəti belədir ki, Ermənistan və onun himayə etdiyi qüvvələr ekoloji təcavüzlə yanaşı, böyük kənd təsərrüfatı potensialı və münbit torpaq ehtiyatlarına malik Tərtər, Ağdam, Bərdə, Goranboy, Yevlax və Ağcabədi rayonlarının ərazilərinə suvarma tələb olunan mövsümlərdə su anbarından qərəzli şəkildə suyun verilməsinə mane olaraq Azərbaycanın iqtisadiyyatına külli miqdarda ziyan vurmuş və vurmaqda davam edir. Bu su anbarının öz təyinatı üzrə istifadə olunmaması nəticəsində yaranan su çatışmazlığı səbəbindən həmin rayonların ərazisində 100 min hektar əkin sahəsi aktiv kənd təsərrüfatı dövriyyəsinə cəlb edilə bilmir. Eyni zamanda, əhalinin içməli suya olan tələbatının ödənilməsi və qismən suvarılmanın aparılması məqsədilə yeraltı sulardan intensiv istifadə edilməsi təbii resursların tarazlığının pozulmasına səbəb olub.

Nəhayət, bəyanatın sonunda Azərbaycanın dövlət qurumları tərəfindən Ermənistan himayə edildiyi qüvvələr vasitəsilə sözügedən rayonların əhalisinin insan hüquqlarının pozulmasına, regionun ekosisteminin deqradasiyasına, fauna və floranın itirilməsinə səbəb olan hərəkətlərindən əl çəkməyə çağırılır.

***Vaqif BAYRAMOV,***
***“Xalq qəzeti”***

### İqtisadçı rəyi



**Mirağa ƏHMƏDOV**
**iqtisadçı-ekspert**

Sərsəng su anbarı ilə bağlı ekoloji tarazlığın bərpa edilməsi bu gün qarşıda duran əsas vəzifələrdən biridir. Əslində, burada söhbət, ilk növbədə, bu infrastrukturun ölkəmizin müvafiq dövlət qurumları tərəfindən idarə olunmasının gerçəkləşdirilməsidir. Digər tərəfdən məsələ sözügedən su anbarı ilə bağlı üzləşilən ekoloji fəlakətin qarşısının vaxt itirmədən alınması ilə bağlıdır. Bütün bunlar ona görə ciddi narahatlıq doğurur ki, hazırda 50-60 min hektar ərazimizin su ilə təminatında ciddi problemlər yaranıb. Ümumiyyətlə, Sərsəng su anbarının ciddi strateji əhəmiyyət daşıması və bu infrastruktura işğal müddətində texniki xidmət göstərilmədiyi üçün onun qəzalı vəziyyətə düşməsi Qarabağ iqtisadi rayonunda 300 mindən çox insanın həyatının təhlükə ilə üzləşməsi deməkdir.

Prezident İlham Əliyev hələ 2021-ci il sentyabrın 24-də BMT Baş Assambleyasının 76-cı sessiyasında illik ümumi müzakirələrdə videoformatda çıxış edərkən Ermənistanın işğal altında saxladığı ərazilərdə törətdiyi ekoloji cinayətlər barədə də məlumat verib. Dövlətimizin başçısı nitqində, eyni zamanda, işğalçı ölkənin respublikamızın Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında ekosid – ətraf mühitə qarşı genosid törətdiyini xatırladaraq, beynəlxalq qurumları bu vəhşiliyə qarşı tədbirlər görməyə səsləyib. Bundan başqa, 2016-cı ilin yanvar ayında AŞPA tərəfindən Sərsəng su anbarı ilə bağlı “Azərbaycanın cəbhəboyu rayonlarının sakinləri qəsdən sudan məhrum edilir” adlı qətnamə imzalanıb. Sənəddə Ermənistan hökumətindən su ehtiyatlarından siyasi təsir və ya təzyiq aləti kimi istifadəsinə son qoyulması tələb olunub.

Bütün digər qərar və qətnamələrdə olduğu kimi, “Azərbaycanın cəbhəboyu rayonlarının sakinləri qəsdən sudan məhrum edilir” adlı sənəd də səssiz qarşılanıb, Ermənistan tərəfindən bu qətnaməyə məhəl qoyulmayıb və Sərsəng su anbarını humanitar və ekoloji terror aləti kimi istifadəsi davam etdirilib.

Onu da deyim ki, qəsbkar ölkə adıçəkilən infrastrukturu işğal altında saxladığı uzun müddət ərzində qəsdən qış aylarında su anbarını açaraq ətraf ərazilərdə daşqın törədir, yay aylarında isə suyu kəsərək keçmiş cəbhəyanı bölgədə yaşayan insanları və təsərrüfatları sudan məhrum edir.

BMT Baş Assambleyasının 7 sentyabr 2006-cı il tarixli “Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət” haqqında qətnaməsinə müvafiq olaraq, ATƏT-in ekoloji vəziyyətin qiymətləndirilməsi üzrə missiyası da Sərsəng su anbarına qarşı ekoloji terrorla əlaqədar təhlillər aparıb, müvafiq rəy verib. Missiya rəyində lazımi su təchizatının çatışmazlığının kənd təsərrüfatına ciddi ziyan vurduğunu və nəticədə meşə massivlərinin tamamilə məhv olması təhlükəsi ilə üzləşdiyini bildirib.

---

## 13 ailənin də Laçın həsrətinə son qoyuldu



**Dünən Laçına növbəti köç prosesi gerçəkləşib. Bakının Qaradağ rayonundakı “Qobu Park 3” yaşayış kompleksindən yola salınan və Laçına çatan ailələr doğma elinə qovuşmağın sevincini yaşayıb.**

Bununla da Laçın şəhərində 247 ailə, yəni 956 nəfərin daimi məskunlaşması təmin edilib. Qeyd edək ki, köçürülən ailələrin Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşması üçün bütün şərait yaradılıb.

***XQ***

## Erməni futbolçular saxlanma şəraitindən razıdırlar

**Ombudsman Səbinə Əliyeva və Milli Preventiv Qrupun ixtisasca həkim və psixoloq üzvləri “Laçın” dövlət sərhədinin buraxılış məntəqəsində saxlanılan və 10 gün müddətinə inzibati qaydada həbs olunan üç nəfər – Alen Sarqsyan, Vahe Hovsepyan və Levon Qriqoryanla görüşüb.**

Ombudsman konfidensial qəbul zamanı həmin şəxslərin beynəlxalq və milli qanunvericiliyə əsasən hüquqlarının təmini vəziyyətini öyrənib və müraciətlərini dinləyib. Eyni zamanda, onların saxlanıldığı kameraya və gəzinti yerinə baxış keçirilib, saxlanma şəraitinin standartlara uyğun olduğu müəyyən edilib.

Qəbul edilmiş şəxslər saxlanma şəraitindən, onlarla rəftardan, qidalanmadan, habelə tibbi-psixoloji yardımdan razılıqlarını bildiriblər. Başçəkmənin gedişində onların həmin şəxslərin ailə üzvləri ilə telefon danışığı da təmin edilib.

***XQ***

## Sosial xidmət Dövlət Proqramı hədəfində

**Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiqlənən “Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023–2026-cı illər üçün Dövlət Proqramı”nda əhalinin bütün həssas qruplarına göstəriləcək sosial xidmətlərin kəmiyyət və keyfiyyətinin artırılması, xidmətlərə əlçatanlığın təmin edilməsi və sosial səmərəlilik prinsiplərinin gerçəkləşdirilməsi ilə bağlı tədbirlər öz əksini tapıb.**

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) İqtisadi təhlil şöbəsinin müdir müavini Elnur Ələkbərov “Azərbaycan Respublikasının 2023–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın icrasına töhfə verəcək mühüm Dövlət Proqramı çərçivəsində nəzərdə tutulan tədbirləri “X.Q”ya şərh edib:**



– 2026-cı ilə kimi ölkəmizdə sosial xidmətin inkişafı sahəsində kifayət qədər ciddi işlər planlaşdırılır. Həmin proqram qəbul olunmazdan əvvəl də ölkədə sosial dövlət və inklüziv cəmiyyət prinsipləri əsas götürülərək əhalinin sosial cəhətdən həssas təbəqəsi, o cümlədən cəzaçəkmə müəssisələrindən azad edilmiş, valideynlərini itirmiş, valideyn himayəsindən məhrum olan xüsusi internat məktəblərini bitirmiş şəxslərin sosial müdafiəsi diqqət mərkəzində olub və bu istiqamətdə ardıcıl məqsədyönlü tədbirlər həyata keçirilib. Lakin Dövlət Proqramında da qeyd edildiyi kimi, son illərdə ölkədə ahıl, sağlamlıq imkanları məhdud şəxslərin, valideyn himayəsindən məhrum olan uşaqların sayının çoxalması sosial xidmətlərə tələbatı da yüksəldib. Sosial xidmətlərin sayının artmasına baxmayaraq, bu artım daha sürətlə baş verir.

Dövlət Proqramında 7 məqsəd və 7 prioritet qeyd edilib. Proqramın əsas məqsədlərindən biri sosial xidmətlərin təşkilində vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın davam etdirilməsi və sosial xidmət sahəsində dövlət-özəl tərəfdaşlığının genişləndirilməsidir.

Eyni zamanda, layihə çərçivəsində hamı üçün bərabər iştirak imkanını təmin edən sosial xidmətlər sisteminin formalaşması, çətin həyat şəraitində olan şəxslərə göstərilən sosial xidmətin əhatəsinin genişlənməsi və əhalinin göstərilən xidmətlərdən məmnunluq səviyyəsinin artması, sosial xidmətlərin ünvanlılığının və keyfiyyətli xidmətlərə əlçatanlığın təmin edilməsi və sosial xidmət sahəsində ixtisaslı kadr potensialının formalaşması hədəf indikatorları müəyyən edilib.

Qəbul olunmuş Dövlət Proqramı sosial xidmətlərin əhatəsinin genişlənməsi və keyfiyyətinin yüksəldilməsi baxımından olduqca əhəmiyyətli sənəd hesab oluna bilər və proqramın icrası bu sahədə bir çox müsbət dəyişikliklərin yaranmasına gətirib çıxaracaq. Dövlət Proqramı çərçivəsində sosial xidmət müəssisələrinin fəaliyyətinə nəzarətin vahid mexanizminin müəyyən edilməsi və sosial xidmət sahəsində fəaliyyətin əlaqələndirilməsi məqsədilə Koordinasiya Şurasının yaradılması nəzərdə tutulub. Həmçinin proqramın icrası nəticəsində 2026-cı ilə kimi sosial xidmət müəssisələrinin və təhsil müəssisələrinin valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş 400 məzunu mənzillə təmin ediləcək, 6 şəhər və rayonda ahıl şəxslərin cəmiyyətə inteqrasiyasını hədəfləyən layihələr həyata keçiriləcək. Bundan başqa, azı, 120 uşağın himayədar ailəyə verilməsi və 220 uşağın ailəyə qaytarılması istiqamətində iş aparılacaq, ailədaxili mübahisələrin həlli ilə bağlı mediasiya xidmətlərinin tətbiqi genişləndiriləcək, dövlət sifarişi ilə sosial xidmət sahəsində həyata keçirilən layihələrin sayının hər il 10 faiz artmasına nail olunacaq”.

Dövlət Proqramının icrası nəticəsində sosial xidmət sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi və sosial xidmətin göstərilməsinə nəzarət mexanizminin müəyyən edilməsi də hədəflənir.

Qeyd edək ki, Prezidentin sərəncamına əsasən, Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqi və qiymətləndirilməsi Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən həyata keçiriləcək.

***“Xalq qəzeti”***

# “Orada – Zəngəzurda mənim ürəyimin məzarı qalıb”...



*(əvvəli “XQ”nin 25 avqust 2023-cü il tarixli sayında)*

Varlığına, həyat yoluna Qərbi Azərbaycan sevdası hakim kəsilmiş soydaşlarımızdan biri də odur – görkəmli yazıçı-dramaturq, şair-publisist, dövlət xadimi və ən nəhayət, yurdsevər ziyalı Hidayət Orucov. “Xalq qəzeti” olaraq onun keçmiş sovet dövrünün populyar nəşrlərindən sayılan “Literaturnaya qazeta”nın 3 sentyabr 1993-cü il tarixli sayında yayımlanmış müsahibəsinin ardını təqdim edirik.

Hidayət müəllimin həmin müsahibədə bölüşdüyü fikirlər soydaşlarımızın Zəngəzur, Göyçə sevgisini məxsusi çalarlarla zənginləşdirməklə, yurd həsrətini təzələməklə yanaşı, tarixi həqiqətlərə da işıq salmaq baxımından son dərəcə əhəmiyyətlidir. Xatırladaq ki, müsahibə Hidayət Orucovun çağdaş publisistikamızın ən dəyərli nümunələri sırasında məxsusi yer almış “Buradan min atlı keçdi” kitabından götürülüb.

**– Bu kompaniya özünü konkret nədə göstərirdi?**

– Əvvəla, mətbuatda Vartgesi pisləyən məqalələr peyda oldu. “Boş kətillər arxasında ad günü” romanı işıq üzü görəndən sonra isə İrəvan Universitetinin tələbələri kitabın nümayişkaranə yandırılmasını təşkil etdilər.

**– Onlar romanı nədə müqəssir bildirdilər ki?**

– Orada Vartgesin öz psixologiyası ilə səsləşən belə fikirlər vardı ki, əbədi olaraq keçmişlə yaşamaq olmaz, irəlini düşünmək, qonşu xalqlarla, o sıradan, azərbaycanlılarla, türklərlə xeyirxah münasibətləri inkişaf etdirmək lazımdır, İrəvanda romanın nümayişkaranə yandırılmasından sonra Vartges bu fikirləri kitabın Moskva nəşrində verməkdən ehtiyat elədi. Ancaq ona qarşı kompaniya yenə də dayandırılmadı və o, istefa verməyə məcbur oldu. Çox təəssüf edirəm ki, bu hadisələrdən sonra Vartges sındırıldı və onun mətbuatda, digər yüksək tribunalardan sonrakı çıxışları Ermənistanın millətçi-şovinist ruhlu ziyalılarının ideyalarından artıq heç nəyi ilə seçilmədi...

1988-ci ilin iyununda SSRİ Ali Soveti Rəyasət Heyətinin iclasındakı qatı millətçi, antiazərbaycan çıxışını yadınıza salın. Elə ağ yalanlar dedi ki, hətta Qorbaçov onun ağzına vurdu. Ertəsi gün ona teleqram göndərdim: “Bilirsən, indiyəcən həmişə uğurlarına sevinmişəm, uğursuzluqlarından kədərlənmişəm. Dünən axşam ilk uğursuzluğun idi ki, sevindim. Allah ağıl versin”. Yəqin ki, o çıxış Vartgesin son uğursuzluğu deyildi, amma o teleqram mənim ona son müraciətim oldu, çünki cavab almadım. Və bu gün də mənə elə gəlir ki, Vartges o teleqrama cavab verməyə söz tapa bilmir və heç vaxt tapa bilməyəcək.

Silva Kaputikyanın sonrakı peşmançılığına, o cümlədən, onun “Litqazeta”dakı müsahibəsinə gəlincə isə deməliyəm ki, mən bu adamın səmimiyyətinə heç vaxt inanmamışam, illah da ki, indi ola. Müsahibəsində deyir ki, dəfələrlə Leonid Brejnevə, Heydər Əliyevə müraciətlər edib, onların diqqətini Dağlıq Qarabağın iqtisadi ehtiyaclarına, orda təhsilin, tarixi abidələrin vəziyyətinə və s. yönəldib. Daha doğrusu, o, yenə də sübut etmək istəyir ki, Dağlıq Qarabağ problemi regionda mövcud olmayan uydurma sosial-iqtisadi, mədəni problemlərdən törəyib.

1988-ci ildə Moskvadan Azərbaycana akademik Xaçaturovun başçılığı ilə xüsusi komissiya göndərilmişdi. Komissiyanın tərkibinə müxtəlif ittifaq nazirliklərinin və təşkilatlarının mütəxəssisləri, habelə Ermənistan və digər SSRİ respublikalarının nümayəndələri daxil edilmişdi. Onlar burda xeyli işləyəndən sonra belə nəticəyə gəldilər ki, Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi və mədəni inkişaf səviyyəsi üzrə göstəriciləri Azərbaycanın, Ermənistanın və bütövlükdə keçmiş İttifaqın müvafiq göstəricilərindən qat-qat yüksəkdir.

**– Hər halda, ziyalılar bəsit, qeyri-professional siyasətçilərlə birgə Zaqafqaziyada əsas müharibə alovunu qızışdırırdılar. Bu gün də məhz ziyalıların mənəvi borcudur ki, bu eybəcər özünüməhvetmə maşınını dayandırmağa birinci cəhd göstərsinlər, nəhayət ki, öz tutarlı sözlərini desinlər.**

– Qarabağ hadisələrinə qədər Azərbaycan ziyalılarını heç nədə qınaya bilmərəm. İnanın, mən doğrudan da məsələlərə obyektiv yanaşmağa çalışıram. Bizdə, Azərbaycanda axı, heç vaxt milli dözümsüzlük, qonşu xalqlara nifrət ideyalarının daşıyıcıları olmayıb. Əksinə, biz uzun müddət münaqişəni malalamağa cəhd eləmişik. Siz 1989-cu, hətta 90-cı ilə qədər respublika mətbuatını nəzərdən keçirin: opponentlərin ünvanına bir dənə də olsun tənqidi fikir tapmazsınız! Biz əvvəllərdə olduğu kimi, xalqlar dostluğundan yazır, keçmiş əmin-amanlıq illərinin erməni–azərbaycanlı dostluğundan ayrı-ayrı faktları yada salıb misallar gətirirdik.

Əlbəttə, bu gün artıq hadisələrin həddən artıq dərinləşdiyi bir zamanda məsələ bir qədər başqa cürdür. İndi arada qəddar, barışmaz münasibətlər mövcuddur və bunu anlamaq çətin deyil. Ermənistan silahlı qüvvələri Azərbaycan torpaqlarının 20 faizini işğal etmiş, milyondan artıq insan dədə-baba torpaqlarından didərgin salınaraq öz Vətənində qaçqına çevrilmişdir. Azərbaycan bu gün qan içindədir – böyük bir qaçqınlar düşərgəsinə dönmüşdür. O da var ki, hərdən əsəblərimiz buna tab gətirmir. Ancaq ifrat meyillər heç vaxt bizdə sistemli və düşünülmüş şəkildə olmayıb və bütöv nəsillər bu ruhda tərbiyələndirilməyib.

Örkən nə qədər uzun olsa da, gəlib doğanaqdan keçəcək – deyiblər. Bu dünyada hər şeyin bir sonu var. Bu dəhşətli müharibənin də axır ki, bir sonu olacaq. Bunun təkcə Ermənistan – Azərbaycan müharibəsi olmadığı bu gün hamıya bəllidir. Arxada ikinci, üçüncü qüvvələr var, onlar milli münaqişələrdən öz geosiyasi maraqları üçün istifadə edirlər. Buna görə də Azərbaycan, Gürcüstan və Ermənistan üçün yeganə dayaq Qafqaz mənafeyi olmalıdır.

Mənim şəxsən “Qafqaz evi” ideyasına rəğbətim var. Əlbəttə, biz yaxın və uzaq xariclə sıx, diplomatik əlaqələri inkişaf etdirməliyik, lakin bütün problemlərimiz Qafqazda həll olunmalıdır. Ermənistanla Azərbaycan ara-sında müharibənin mənəvi, əxlaqi sonu yetişməlidir və mənə elə gəlir ki, bu sonluq artıq yetişib, bəlkə də bir il, il yarım əvvəldən yetişib.

**– Hidayət bəy, siz yaradıcı adamsınız. Bakıya köçəndən sonra uzun müddət “Gənclik” nəşriyyatının baş redaktoru işləmisiniz. Və birdən taleyinizdə belə bir dönüş baş verib: milli siyasət üzrə Dövlət müşaviri təyin edildiniz...**

– Bu təklif məndən ötrü gözlənilməz oldu, hərçənd mən bu sahədə işə daxilən hazır idim. Son illər mən mətbuatda milli münasibətlərə həsr edilmiş çoxsaylı məqalələrlə çıxış etmişdim, bu sahənin bir çox praktik aspektlərinə yaxından bələd idim. Əlbəttə, bu, çox çətin sahədir, elə buna görə də etiraz etməyə haqqım yox idi.

**– Bilirəm ki, Dövlət müşaviri kimi Azərbaycanda yaşayan milli azlıqların – talışların, kürdlərin, ləzgilərin və başqa xalqların problemləri ilə fəal məşğul olursunuz. Axır vaxtlar həmin xalqlar öz milli-mədəni hüquqları barədə daha ucadan danışmağa başlayıblar.**

– Azərbaycan ittifaqın ən beynəlmiləl respublikasından müstəqil dövlətə çevrilib. Beynəlmiləl ənənələr Azərbaycanda həmişə güclü olub və indi də dövlət strukturlarının praktik fəaliyyətində dönməden həyata keçirilir. Azərbaycan əvvəlki etnik tərkibi və Qorbaçov “yenidənqurmasının” əvvəllərindən məruz qaldığı ağır sınaqlara baxmayaraq, bu etnik qruplar arasındakı mehriban qonşuluq münasibətlərini qoruyub saxlaya bilmişdir. Respublikada yaşayan 300 mindən artıq rusu azərbaycanlılarla qarşı-qarşıya qoymaq üçün nə qədər cəhdlər edildi. Nə qədər şayiələrə, təxribatlara əl atdılar! Yenə də rusdilli əhalinin respublikadan getməsi kütləvi xarakter ala bilmədi. Bu, keçmiş İttifaqın bir çox respublikalarında baş tutdu.

Əlbəttə, mən deyə bilmərəm ki, bizdə milli münasibətlər sahəsində hər şey yoluna qoyulmuşdur. Biz bunu açıq etiraf edirik. Belə olmasaydı, “Respublikada yaşayan milli azlıq, azsaylı xalq və etnik qrupların hüquq və azadlıqlarının qorunması, dil və mədəniyyətinin inkişafı üçün dövlət yardımı haqqında” Prezident Fərmanı imzalanmazdı. Həmin fərman keçmiş İttifaqda bu səpkidə ilk sənəddir və ictimai rəydə böyük maraq doğurması da təsadüfi deyil. Fərmanda respublikada yaşayan milli azlıqların hüquqi, mülki, mədəni hüquqlarının dövlət səviyyəsində qorunmasının əsasları öz əksini tapmışdır.

Hazırda biz ən ciddi tələblərə cavab verə biləcək yeni milli siyasət konsepsiyası üzərində işləyirik. Lakin mətbuatın, xüsusən də xarici informasiya orqanlarının Azərbaycanda insan hüquqlarının, milli-mədəni azadlıqların pozulması faktlarından həvəslə yazması, son illər milli münasibətlər sahəsində görülən müsbət işləri isə görməməzliyə vurması təəssüf doğurur. Məgər respublikada talış, kürd, ləzgi, rus... dillərində azmı qəzet çıxır? Milli azlıqların dillərində məktəblər, teatrlar açılır, radio və televiziyada verilişlər gedir. Dövlət çoxsaylı milli-mədəniyyət mərkəzlərinə maddi kömək göstərir.

**– Hər halda, rusdilli əhali, kütləvi şəkildə olmasa da, respublikadan köçür. Çoxlarını övladlarının taleyi narahat edir, valideynlər narahat edirlər ki, respublikada rus dilində təhsil minimum səviyyəyə endiriləcək. Başqa səbəblər də var...**

– Bu gün respublikadan gedən təkcə ruslar deyil. Acı da olsa deməliyəm ki, müharibənin və bundan doğan mənəvi problemlərin əziyyətinə dözə bilməyən azərbaycanlılar da gedir. Ancaq, gəlin, günümüzün gerçəkliyinə nəzər salaq: məgər Bakıda rus məktəblərinin sayı azalıb? Yaxud, ali məktəblərdə tədris rus dilində gedən bir dənə də olsun fakültə bağlanıbmı? Bəzi orta məktəblər qarışıq tədris prinsipinə keçiblər, bu da rusdilli siniflərə obyektiv tələbin azalması ilə əlaqədardır. Əvvəllər Bakıda bir çox azərbaycanlılar uşaqlarını rus məktəblərinə qoyurdular, indi isə öz doğma dillərində təhsilə üstünlük verirlər.

Radio və televiziyada rus dilində proqramlar artırılıb. Axır vaxtlar Azərbaycanda rus dilində bir sıra yeni dövri nəşrlər də işıq üzü görüb: “Бакинец”, “Содружество”, “Зеркало”, “Кто есть кто” və s. Bir məsələ də var ki, bir çox rus ailələri artıq Azərbaycana qayıdırlar. Azərbaycan Prezidentinin adına keçmiş İttifaqın bir çox yerlərinə köçüb getmiş rus ailələrindən məktublar daxil olur və bu məktublarda onların qayıtmasına kömək göstərmək xahiş olunur. Hətta Azərbaycanın indiki ağır vəziyyətində qayıtmaq istəyənlərin sayı çoxdur! Zənnimcə, müharibə qurtarandan sonra geriyə belə axın artacaqdır.

**– Hidayət bəy, Sizə sonuncu, bəlkə də ən çətin sualımı vermək istəyirəm: bu ağır, qarışıq zamanda Sizə həyan olan hansı əxlaqi dəyərlərdir? Həyatda adamlara, gözəlliyə inamda köməyiniz nədir? Tapındığınız sözmü?**

– Doğrudan da, indi çox çətindir. Hamıya çətindir. Ən çətin anlarımda mən doğma kəndimizi, uşaqlıq illərini yada salıram. Uşaqlıq illəri insan ömrünün ən təmiz, saf çağlarıdır: onda elə bil səma həmişə mavi, üfüqlər tərtəmiz idi. Öz şeirlərimdə və nəsr əsərlərimdə mən tez-tez o uzaq illərə qayıdıram. Sanki buz bulağın məlhəm suyundan içirəm. Bundan sonra ürəyim yüngülləşir, ümidlərim artır. Həyatda mənim üçün əsas şey nədir? Bəlkə də bir qədər gurultulu səslənəcək, ancaq mənim üçün ən başlıcası - ölkəmin müstəqilliyidir.

Bu yaxınlarda Amerikada idim. BMT-nin binası qarşısında Vətənimin bayrağını başqa dövlətlərin bayrağı ilə yanaşı yellənən görəndə gözlərimdə yaş gilələndi. O an mən gerçəkdən xoşbəxt idim, hərçənd ki, əsl müstəqilliyə çatmaq üçün hələ nə qədər ağır, çətin yollar keçməli



olacağımızı dərindən anlayıram. Və bu mənada Rusiyanın, rus ziyalılarının bütün keçmiş SSRİ respublikalarında gedən demokratikləşmə prosesində oynaya biləcəyi rol barədə fikirlərimi açıqlamaq istəyirəm.

Bir vaxtlar dostlarla birgə İttifaqın nə vaxtsa çökəcəyi haqda mülahizələrimizi bölüşərək deyirdik ki, rusların özü imperiyaya münasibətlərini bildirməyincə, bu, baş verməyəcək. Allaha şükür ki, bu münasibəti eşitdik. Ancaq bu gün mən başqa çıxışları da eşitmək istərdim. İstərdim ki, imperiyanın dağılması üçün doğrudan da əvəzsiz xidməti olan demokratik rus ziyalıları indi də azadlığını, milli ləyaqətini özünə qaytarmış xalqlara, onların həqiqi müstəqilliyinə kömək etsinlər. Belə bir istəyi mən şəxsən Azərbaycana münasibətdə hiss etmirəm. Əvvəllər bizə çoxlu rus yazıçısı və şairləri qonaq gələrdi, rus şair – tərcüməçilər arasında mənim çoxlu səmimi dostlarım var. Niyə onlar bizlə əlaqələri birdəfəlik kəsiblər?

Rusiya mətbuatında şayiələr gəzir ki, guya, Azərbaycanda rusları sıxışdırırlar. Gəlin, vəziyyəti öz gözlərinizlə görün. Bir ara rus ziyalıları Baltikyanı dövlətlərin müstəqilliyi ideyasını ehtirasla müdafiə edirdilər. Yadımdadır, hətta yazıçı A.Pristavkinin səsi Latviyanın azadlığının müdafiəçiləri ilə bir səngərdən gəlirdi. Bakıda 90-cı ilin Yanvar qırğınına isə demək olar, münasibət bildirilmədi. Götürək elə Azərbaycanda son hadisələri: Dağlıq Qarabağ sərhədlərindən kənarda yerləşən Kəlbəcər, Laçın, Ağdam, Qubadlı, Cəbrayıl, Füzuli, Zəngilan və s. rayonlarımız erməni silahlı qüvvələri tərəfindən işğal edildi. Mülki əhalidən minlərlə ölən, yaralanan oldu, kəndlər yandırılıb külə döndərildi, şəhərlər azğıncasına talan edildi. Yüz minlərlə adam yeni köçkünə çevrildi. Bütün dünya narahat olur və bu təcavüzü pisləyir, rus ziyalıları isə susurlar.

Niyə? İnanmaq olmur ki, bu məsələdə həlledici amil xristian dininə qulluq edən xalqla həmrəylikdir. Rus ziyalıları anlamalıdırlar ki, bir vaxtlar Azərbaycanı Şərqdə inqilabın qapısı adlandırırdılar, indi isə bizim respublika bu regionda demokratiyanın və sivilizasiyanın dayağı ola bilər. Və Azərbaycanda demokratiyanı dəstəkləmək – Şərqdə demokratiyanın cücərtilərini müdafiə etmək deməkdir.

**“Literaturnaya qazeta”, 3 sentyabr, 1993-cü il**

# Qərbi Azərbaycanın qaçqın taleli teatrı

**XX əsrin əvvəllərinə qədər əhalisinin 75 faizini azərbaycanlılar təşkil edən İrəvan şəhəri mədəniyyətinin bütün sahələrində olduğu kimi, teatr sənətinin təşəkkülü və inkişafı baxımından da Azərbaycan türklərinin ən qabaqcıl ədəbi-mədəni mərkəzlərdən biri olmuşdur.**

Dünya təcrübəsi göstərir ki, bu və ya digər məkanda teatrın meydana gəlməsi və inkişafı üçün əlverişli mədəni şəraitin olması vacibdir. Bu, bir tərəfdən teatr sənətinin sirlərinə hərtərəfli yiyələnmiş kollektivin, digər tərəfdən isə teatr sənətini dərk etməyə qadir tamaşaçı kütləsinin formalaşması ilə bağlıdır. Əgər artıq XIX əsrdə İrəvan şəhərində Azərbaycan teatrı fəaliyyətə başlayıbsa, bu o deməkdir ki, uzun əsrlər boyu burada yaşayan Azərbaycan türkləri bu dövrdə teatr sənətini yaratmağa və onu anlamağa və yaşatmağa qadir yüksək mədəni səviyyəyə qalxmışlar.

İrəvan Dram Teatrında 1882-ci ildə səhnəyə qoyulan ilk əsər mövzu baxımından o dövr Azərbaycan dramaturgiyasının aparıcı siması olmuş Nəcəf bəy Vəzirovun əsərləri ilə səsləşirdi. Dramın zərb-məsəl kimi səslənən adı – “Tamahkarlıq düşmən qazanar” ifadəsi Mirzə Fətəli Axundovzadədən Üzeyir Hacıbəyliyə qədər dram əsərlərində aparıcı yer tutan xəsislik probleminə həsr olunmuşdu. Təəssüf ki, bir sıra araşdırmalarda 1882-ci ildə İrəvan Dram Teatrında ilk dəfə səhnəyə qoyulan həmin əsərin müəllifinin Məşədi İsmayıl – İsmayıl bəy Şəfibəyov olduğu barədə yanlış məlumata rast gəlirik.

Həqiqət isə budur ki, 1882-ci ildə İrəvan Dram Teatrında ilk dəfə səhnəyə qoyulan əsərin müəllifi İrəvanda yaşayıb-yaratmış tanınmış ədib Məşədi İsmayıl Hacı Kazımzadə Bəzmi olmuşdur.



*Firudin bəy Köçərli (soldan 3-cü) İrəvan ziyalıları arasında.*



*Pənah xan Makinskinin evi – İrəvan teatrı*

İrəvan 3 sinifli şəhər məktəbinin müəllimi Hacı Kazımzadə 1881-ci ildə “Tamahkarlıq düşmən qazanar” adlı əsərin mövzusunu bir neçə dəfə Nəzmiyə danışmış və dram sənətinin sirlərinə yaxından bələd olan Nəzmi isə bu süjeti pyes şəklinə salmışdır. Həmin tamaşadakı Hacı Fərəc rolunu da elə Məşədi İsmayılın özü ifa etmişdir.

İrəvanın ədəbi-mədəni həyatında fəal iştirak edən Məşədi İsmayıl Hacı Kazımzadə ömrünün 20 ildən çoxunu İrəvanda maarif sahəsinə həsr etmişdir. İrəvanda teatrın, təhsilin, mədəniyyətin, milli intibahın tərəqqisi naminə çalışan, fədakar ziyalılarımızdan biri olan Məşədi İsmayıl Hacı Kazımzadə həm də Bəzmi təxəllüsü ilə xeyli qəzəllər, müxəmməslər, rubailər, qəsidə və qəzəllər yazmışdır.

İrəvan XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan mədəniyyətinin qabaqcıl mərkəzlərindən biri olmaqla yanaşı, dini fanatizmin geriliyə apardığı məkanlardan biri idi. Bu da, təbii ki, teatr sənətinin inkişafına, xüsusilə, tamaşaçı kütləsinin formalaşmasına mənfi təsir göstərirdi. Teatrın inkişafı yolunda əngəl olan mövhumatla mübarizə aparmaq və onu dəf etmək üçün isə əsl sənət fədailəri, vətənsevər insanlar tələb olunurdu.

Belə fədakar ziyalılardan biri 1885-ci ildə Qori Müəllimlər Seminariyasını bitirib, İrəvan Gimnaziyasına təyinat almış maarif xadimi Firudin bəy Köçərli oldu. Firudin bəy 1886-cı ildə gimnaziyanın tələbələrinin iştirakı ilə, müsəlman fanatlarının təqib və hədələrinə baxmayaraq, Mirzə Fətəlinin “Müsyö Jordan və Dərviş Məstəli şah” əsərini tamaşaya qoymuşdur. Sonralar əsər İrəvan teatrının səhnəsində bir neçə dəfə oynanılmışdır.

1892-ci ildən 1905-ci ilə qədər İrəvanda yaşayan görkəmli yazıçı- publisist Eynəli bəy Sultanov və 1898–1903-cü illərdə böyük ədibimiz Cəlil Məmmədquluzadə bu sənət ocağının tərəqqisinə böyük səy göstərmiş, teatr həvəskarlarını yeni uğurlara ruhlandırmışlar.

İrəvan Azərbaycan teatrının təşəkkülündə və inkişafında hələ gənc yaşlarında məhz bu teatrda səhnəyə qədəm basmış, sonralar isə onun korifeyinə çevrilmiş Yunis Nurinin də rolu əvəzedilməzdir.

1903-cü ildə Yunis Nuri, Mirzə Cabbar Məhəmmədzadə, Mustafa Rəcəbov, Asif bəy Şəfibəyov, Həsən Əliyev kimi açıq fikirli ziyalıların köməkliyi ilə mütəşəkkil həvəskarlar dəstəsi yaradılaraq, teatrın yeni bir inkişaf mərhələsinə qədəm qoymasına yol açmışdır. Truppaya rəhbərlik gələcəyin böyük aktyoru, teatrın sütunlarından biri Yunis Nuriyə həvalə edilmişdir. Onun bilavasitə iştirakı və rəhbərliyi ilə Vasaq Mədətovun “Qırt-qırt”, “Tamahkarlıq düşmən qazanar”, “Gözə görünməyən şal”, Mirzə Fətəli Axundzadənin “Müsyö Jordan və Dərviş Məstəli şah” əsərləri tamaşaya qoyulmuşdur. 1905-ci ildə erməni millətçilərinin yaratdıqları qarşıdurma və törətdikləri soyqırımı hadisələri ictimai-mədəni həyatın digər sahələri kimi, İrəvan Azərbaycan teatrının da fəaliyyətinə əngəl törətmişdir.

Buna baxmayaraq, bu dövrdə Azərbaycan ziyalıları Yunis Nuri, Məmməd ağa Şahtaxtinski kimi mədəniyyət xadimləri “Hacı Qara”, “Xor-xor”, “Dursunəli və Ballıbadı”, “İrəvanda qarət” kimi pyesləri tamaşaya qoymağa nail olmuşdular. Ermənilərin 1905-ci ildə törətdikləri vəhşiliklər İrəvanda Azərbaycan mədəni həyatına ağır zərbə vursa da, teatrın fədakar kollektivi bu sənət ocağının inkişafına təkan verməklə yanaşı, tamaşaçıların bədii səviyyəsini yüksəltməyə də çalışmışlar.

1905–18-ci illərdə Azərbaycan teatrının böyük sənətkarları Hüseyn Ərəblinski, Mirzəağa Əliyev, Sidqi Ruhulla, Mustafa Mərdanov, Əliqulu Qəmküsar, Zülfüqar Hacıbəyli, Cəlil Bağdadbəyov, Abbas Mirzə Şərifzadə, Ülvi Rəcəb, Mərziyyə Davudova və başqalarının iştirakı ilə qastrol səfərləri İrəvanın mədəni həyatının oyanmasına, yerli aktyorların səhnə yaradıcılığına, teatrın həvəskar səviyyədən peşəkar mərtəbəyə yüksəlməsinə böyük təsir göstərmişdir.

1918-ci ildə İrəvanda qaniçən erməni daşnakları hakimiyyətə gələndən sonra təkcə İrəvanda deyil, hətta bütün Ermənistanda Azərbaycan xalqına qarşı kütləvi deportasiya və soyqırımı başlanmışdır: ermənilərin “Böyük Ermənistan” yaratmaq xülyasının birinci hədəfi azərbaycanlılar olmuşdur. 1918–1920-ci illərdə Qərbi Azərbaycanda minlərlə azərbaycanlı məhv edilmiş, qalanları isə əzablı ölümdən xilas olmaq üçün doğma yurdlarını tərk etməyə məcbur olmuşdur. Demək olar ki, İrəvanda Azərbaycan ədəbi-mədəni həyatı tam tənəzzülə uğramışdır.

(ardı var)

***Cəlal ALLAHVERDİYEV,***
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

# "Vaqner"in Belarusda mövcudluğu qonşu dövlətləri narahat edir

*(əvvəli 1-ci səhifədə)*



Dünən bu məsələ ilə bağlı Polşa və Baltikyanı dövlətlərin daxili işlər nazirləri Varşavada görüşüblər. Orada "Vaqner"dən gözlənilən "sürpriz"lərlə bağlı danışıqlar aparılıb. Bir neçə saat davam edən müzakirələrdən sonra nazirlər mətbuat konfransı keçiriblər.

Polşanın daxili işlər naziri Mariuş Kaminski jurnalistlərə bildirib ki, son həftələr ərzində NATO-nun şərq cinahında gərginlik xeyli artıb və bunun da əsas səbəblərindən biri "Vaqner"dən qaynaqlanan təhlükədir. Həmçinin bildirib ki, muzdlulardan ibarət qrup ilə bağlı "kritik insident" baş verərsə, Polşa və Baltikyanı ölkələr Belarusla sərhədlərini dərhal tamamilə bağlayacaq.

Qeyd etmək lazımdır ki, Belarusla ümumi sərhədi bölüşən Avropa İttifaqı və NATO ölkələri olan Latviya, Litva və Polşa "Vaqner" qrupunun Belarusa gəlməsindən sonra sərhədlərinin təhlükəsizliyi ilə bağlı narahat olduqlarını gizlətmir və rəsmi Minskdən muzdluları təcili çıxarmağı tələb edirlər. Belarus hökuməti isə bu tələbləri gözardı edir.

Bundan əlavə, Belarus son aylar, əsasən, böyük hissəsi Yaxın Şərq və Afrikadan olmaqla, sayı getdikcə artan miqrantların Avropa İttifaqının Şərq dövlətlərinin sərhədlərini keçməsinə şərait yaratmaqda ittiham olunur. Belarus rəsmiləri bu ittihamları da təkzib edirlər.

Vəziyyət isə günbəgün gərginləşir. Belarus Prezidenti A.Lukaşenko bu yaxınlarda ölkədə 10 minə yaxın "Vaqner" döyüşçüsü saxlamaq niyyətində olduğunu bəyan edib. Lakin qruplaşmanın Rusiya, yaxud Belarus tərəfindən maliyyələşdiriləcəyi məlum deyil. Analitiklər hesab edirlər ki, böyük ehtimalla "Vaqner"in yükünü Rusiya çəkməli olacaq.

Xatırladaq ki, Polşa əsilli jurnalistin Belarusda həbs edilməsi və Polşa diplomatlarının ölkədən çıxarılmasından sonra Polşa bu il Belarusla bir sərhəd keçid məntəqəsindən başqa hamısını bağlayıb. Bir müddət əvvəl isə Belarusun hərbi təyyarələrinin Polşanın hava məkanını pozduğu barədə məlumatlar yayılmışdı.

Ən qəribəsi bu idi ki, NATO rəhbərliyi Belarusla hərbi münaqişə baş verəcəyi təqdirdə Polşanın tərəfindən vuruşmayacağını elan etdi. Bu xəbər Belarus ictimaiyyətində dərin məyusluq doğurdu. Bu tərəfdən "Vaqner"in Polşanın "qulağının dibində" olması ölkə əhalisində təşviş yaradıb.

***Məsaim ABDULLAYEV,***
***"Xalq qəzeti"***

**Ekspert rəyi**



**Atamoğlan MƏMMƏDLİ,**
**BDU-nun professoru, siyasi şərhçi**

– Artıq il yarımdan çoxdur ki, Rusiya–Ukrayna müharibəsi başlayıb və o vaxtdan bu ağır silahlı münaqişənin böyüyərək Avropanın şərqinə doğru genişlənib-genişlənməyəcəyi gündəmdədir. Bir müddət əvvəl "Vaqner" özəl hərbi qruplaşmasının Belarus ərazisində yerləşməsi bu problemi daha da aktuallaşdırıb.

Qərbdə hesab edirlər ki, Rusiya 2022-ci ilin 24 fevralında beynəlxalq norma və qaydaları kobud surətdə pozub. Rusiya Ukraynada gözlədiyi və ümid etdiyi böyük hərbi uğura nail ola bilməyib. Bununla bərabər, müharibə günbəgün uzanır və münaqişənin gələcək taleyi barədə proqnozlar vermək çətindir.

ABŞ və müttəfiqləri Kiyevə kifayət qədər maliyyə və hərbi yardım göstərsə də, Ukrayna Silahlı Qüvvələri hələlik cəbhədə ciddi dönüş yarada bilmir. Bu səbəbdən Qərbdə münaqişəni dondurmağın vaxtının çatdığı fikirini dəstəkləyənlərin sayı artır.

Məlumdur ki, "vaqnerçilər" Ukraynadan əvvəl Afrikada, oradan qabaq isə Suriya və Liviyada vuruşaraq Rusiyanın qlobal maraqlarına xidmət ediblər. Rusiya–Ukrayna müharibəsi başlanandan bir müddət sonra "Vaqner"in əsas zərbə qüvvəsi Ukrayna cəbhəsinə gətirilib.

Lakin Ukraynadakı döyüşlər "vaqnerçilər" üçün Afrikadakı qədər asan olmayıb. Burada muzdlular fədakar Ukrayna xalqının ciddi müqaviməti ilə üzləşiblər. "Vaqnerçilər"in Ukrayna torpağında ağır zorakılıqlar törətdiyi bildirilir.

Qruplaşma Donetsk vilayətinə daxil olan Baxmut şəhəri uğrunda döyüşlərdə ağır itkilər verib, lakin şəhəri ələ keçirməyə müvəffəq olublar. Bundan sonra qrupun başçısı Yevgeni Priqojin ilə Rusiya Ordusunun rəhbərliyi arasında ixtilaf yaranıb və məlum qiyam baş verib.

Əslində, "Vaqner" təkcə Polşa və Baltikyanı ölkələr üçün təhlükə törətmir, onun Ukraynanın şimalından yenidən bu ölkəyə qarşı hücuma keçəcəyi istisna edilmir. Hər halda, başçısız qalan muzdlu dəstənin müharibənin taleyinə ciddi təsir göstərəcəyi inandırıcı görünmür.

# 5 tondan çox narkotik vasitə məhv edilib

**Yanvar-iyul ayları ərzində hüquq mühafizə orqanlarının narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində həyata keçirilmiş kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində ümumilikdə 6696 cinayət faktı aşkarlanıb. Onlardan 2335-i narkotik vasitələrin qanunsuz satışı, 4112-i narkotik vasitələrin qanunsuz əldə edilib saxlanılması, 219-u qanunsuz olaraq narkotik xassəli bitkilərin kultivasiya edilməsi, 30-u isə bu kateqoriyadan olan digər cinayətlərlə bağlı olub.**

Bu barədə "XQ"yə Dövlət Komissiyasından məlumat verilib.



Aşkarlanmış faktlar üzrə qanunsuz dövriyyədən, ümumilikdə, 5 ton 141 kiloqram 918,699 qram narkotik vasitələrin və psixotrop maddə müsadirə olunub.

Hesabat dövründə aidiyyəti qurumların nümayəndələrinin iştirakı çəkisi 210 tondan çox olan narkotik tərkibli bitkilər müəyyən olunaraq məhv edilib.

Hüquq-mühafizə orqanları tərəfindən narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsi ilə bağlı 165 fakt aşkarlanıb.

2023-cü ilin yanvar-iyul ayları ərzində qanunsuz dövriyyədən götürülmüş narkotik vasitələrin və psixotrop maddələrin ümumilikdə dəyəri 225 milyon 99 min 265 manat kimi qiymətləndirilir.

***XQ***

# Musa Qurbanlı İsveç çempionatının rəmzi komandasında

**Azərbaycan millisinin və "Yurqorden"in futbolçusu Musa Qurbanlı İsveç çempionatında XXI turun rəmzi komandasına düşüb.**



XQ Isveç mediasına istinadən xəbər verir ki, "Degerfors"la görüşdə iki qol, bir məhsuldar ötürmə ilə yadda qalan 21 yaşlı forvard ən yaxşı üç hücumçudan biri seçilib.

Onun performansı 8,7 balla qiymətləndirilib.

Qeyd edək ki, "Yurqorden" "Degerfors"u 4:1 hesabı ilə məğlub edib.

***XQ***

# Dünya bazarında qazın qiymət ziqzaqı

**Dünən Avropada təbii qazın qiyməti ICE birjasında kəskin ucuzlaşıb. Ticarət məlumatlarına görə, sentyabr ayı üçün yanacaq füçerslərində qiymət 4 faizdən çox düşüb. Hollandiyada Avropanın ən likvid virtual satış mərkəzində (TTF) isə təbii qazın sentyabr füçersində min kubmetri 428 dollara satılıb. Sonra yanacağın minimum qiyməti 413 dollara düşüb. Oktyabr füçersində isə 19,81 faiz ucuzlaşma qeydə alınıb və qazın min kubmetri 336, 42 dollara təklif olunub.**



Bundan bir gün əvvəl isə dünya bazarlarında fərqli qiymətlər olub. Məsələn, TTF-də təbii qazın sentyabr fyuçerslərinin qiyməti 12,39 faiz artaraq min kubmetr üçün 436,5 dollara çatıb.

"Bloomberg" qeyd edib ki, qiymətlər Norveçdə qaz tədarükünün azalması və Avstraliyada işçilərin tətil təhlükəsi fonunda yüksəlir. Avropanın əsas qaz tədarükçüsü olan Norveçdən ixrac son bir ildə ən aşağı səviyyəyə düşüb. Bu, ilk növbədə, planlı təmir işləri çərçivəsində "Troll" yatağından tədarükün dayandırılması ilə bağlıdır. Bundan əlavə, Norveçin qaz kəməri operatoru "Gassco" Böyük Britaniyada SEGAL qaz kəmərləri şəbəkəsini qazla təmin edən yataqlarda əlavə təmir işlərinin görüləcəyini elan edib.

Dünya bazarına mayeləşdirilmiş təbii qazın (LNG) çıxarıldığı Avstraliyada isə tətil təhlükəsi qalmaqdadır. Avstraliyanın mayeləşdirilmiş qaz istehsalı üzrə ən böyük zavodunun sahibi olan "Woodside Energy Group", keçən həftə planlaşdırılan tətili ləğv etmək üçün işçiləri ilə danışıqlar aparıb, müsbət nəticə əldə edib. Lakin ABŞ-ın ən böyük neft-qaz şirkəti "Chevron"un Avstraliyadakı Qorqon və Uitstoun şəhərlərindəki zavodlarında vəziyyəti fərqlidir.

Bazar ertəsi, avqustun 28-də Qərbi Avstraliyadakı "Chevron" layihəsində çalışanlar tətil keçirməklə bağlı razılığa gəliblər. Bu barədə "Reuters" agentliyi məlumat yayıb. Ötən həftənin sonunda şirkətin Avstraliyadakı digər iki müəssisəsinin işçiləri də analoji qərar qəbul ediblər. "Chevron" şirkətindən bildirilib ki, danışıqları davam etdirilir. Hələlik ümumi razılığa gəlmək mümkün olmayıb. Bu da o deməkdir ki, tətil təhlükəsi qalır, qaz tədarükü və onun dünya bazarına çıxarılması sual altındadır. Bu şirkətlər Avstraliyadan bütün mayeləşdirilmiş təbii qaz ixracının təxminən 20 faizini təmin edir. Tətillər Avropaya mayeləşdirilmiş qaz tədarükünü ildə 10 milyon tondan çox azalmasına səbəb ola bilər.

Təkliflə tələbat arasında tarazılığın pozulması isə təbii qazın dünya bazarında qiymətinin kəskin artmasına səbəb olub.

Beləliklə, dünya bazarında son iki gündə fərqli qiymətlər qeydə alınıb. Eyni vəziyyət sonrakı günlərdə də müşahidə olunacaq. Amma ekspertlər payız-qış aylarında qiymət artımında yekdil fikirdədirlər. Onların fikrincə, Avropada onsuz da mövcud olan qaz qıtlığı vəziyyəti kritikləşdirə bilər. VEB.RF dövlət korporasiyasının baş iqtisadçısı Andrey Klepaç 2023-cü ilin payız-qış aylarında avropalı istehlakçılar üçün qazın qiymətinin min kubmetr üçün 500 dollardan çox arta biləcəyini proqnozlaşdırır.

Xatırladaq ki, dünya bazarında təbii qazın min kubmetrinin maksimum qiyməti ötən ilin mart ayında qeydə alınmışdı.

***P.ƏFƏNDİYEV,***
***"Xalq qəzeti"***

**Ekspert rəyi**



**Əhməd Talıbov,**
**kimya elmləri doktoru, professor**

– Azərbaycan büdcəsində neftin satışından əldə edilən gəlirlərin payı hələlik böyük olsa da, getdikcə qaz ixracatından əldə edilən gəlirin həcmi və dövlət büdcəsində payı artır. Artıq 2021-ci ildən Azərbaycan özünün qaz təchizatının coğrafiyasını Avropa bazarına qədər genişləndirib. Bu, hamı üçün uduşlu vəziyyətdir. Çünki Avropaya öz enerji təhlükəsizliyinin qorunması üçün qaz lazımdır, Azərbaycanın isə özünün nəhəng enerji resursları üçün etibarlı bazara ehtiyacı var.

Məsələn, 2021-ci ildə Azərbaycanın Avropa İttifaqı bazarına təbii qaz ixracı 8,2 milyard kubmetr təşkil edib. 2022 -ci ildə qaz ixracı 11,4 milyard kubmetrə çatıb. Prezident İlham Əliyevin "gələcək üçün yol xəritəsi" adlandırdığı Aİ ilə keçən il imzalanmış enerji memorandumuna əsasən, Azərbaycandan Avropaya qaz nəqlinin həcmi yaxın illərdə 20 milyard kubmetrə çatdırılmalıdır.

Hərracda satılan qazın Azərbaycan büdcəsinə isə birbaşa adiyyatı yoxdur. Cünki Azərbaycan öz qazını hərracda satmır. Sadəcə bu, dolayı yolla təsir edir. Biz qazı öz tərafdaşlarımıza uzunmüddətli müqavilələrlə satırıq. Müqavilələrdə qazın qiyməti göstərilmir. Orada qazın formulası var. Hansı ki, hər rübdə qiymət dəyişir. Buna uyğun olaraq da əldə edəcəyimiz gəlir müəyyənləşir.

# Okeanlar rəngini niyə dəyişir?

## Builki anomal istilər də ciddi suallar doğurur

**NASA peykləri iqlim dəyişikliyinin okean ekosisteminə təsirini də öyrənib. Məlum olub ki, dünya okeanlarının yarısından çoxunun ekosistemi pozulub, rəngi isə yaşıla çevrilib. Okeanın rəngindəki qəribə dəyişikliklər elm adamlarının ciddi araşdırmalarına səbəb olub.**

Peyk məlumatları göstərir ki, son 20 ildə dünya okeanlarının 56 faizində mavidən yaşıla doğru rəng dəyişikliyi baş verib. Bu fərq ekvatora yaxın tropik bölgələrdə xüsusilə nəzərə çarpır. Tədqiqatçılar deyirlər ki, okeanların nəzərəçarpan yaşıllaşması iqlim dəyişikliyinin sualtı həyata təsiri ilə bağlıdır.

Sual yaranır: okeanlar niyə yaşıllaşır? NASA-nın "Modis-Aqua" peyki dünya okeanlarının yarısından çoxunda mavi rəngdən yaşıla keçidi qeydə alıb. Rəngini dəyişən sahə Yerin quru sahəsindən böyükdür.

Sauthemptondakı (Böyük Britaniya) Milli Okeanoqrafiya Mərkəzinin əməkdaşı B.Keyl və onun həmkarları NASA-nın əldə etdiyi məlumatları təhlil edərək yaşıl rəngin qlobal istiləşmə nəticəsində ekosistemlərin dəyişməsinin əlaməti olduğunu bildiriblər. Bunun nədən ibarət olduğu və onların dəqiq səbəbi hələ müəyyən edilməyib. Lakin B.Keyl güman edir ki, bu, əksər qida zəncirlərinin əsasında duran canlılarla – fitoplanktonla əlaqəlidir. Bu orqanizmlər həm də nəfəs aldığımız oksigenin böyük hissəsinin istehsalında və atmosferin sabitləşməsində mühüm rol oynayır. Tədqiqatçı qeyd edib: "İqlim dəyişikliyinin təsirləri artıq dənizin üst mikroorqanizmlərinin ekosistemində hiss olunur".

Okeanların rəngindəki dəyişikliklər, öz növbəsində, daha böyük problemdən xəbər verir. Tədqiqat müəlliflərinin fikrincə, okeanın rənginin dəyişməsi, yaşıl rənglər fitoplankton fəalləğının artdığını göstərir. Bu, suyun səth qatlarında baş verənlər haqqında fikir söyləməyə də imkan verir. Bununla belə, okeanların rəngi ildən-ilə dəyişə bilər, çünki suyun səthində xlorofilin (fotosintetik orqanizmlərə, bitkilərə yaşıl rəngini verən piqment) səviyyəsi geniş şəkildə dəyişir. Yəni arta və azala bilir. Bu, iqlim dəyişikliyinin mavi rəngi yaşıla çevirdiyini müəyyən etməyi çətinləşdirir.

Alimlər inanırlar ki, hər hansı bir tendensiyanın fərqinə varmaq üçün okeanın rənglərinin müşahidəsi 40 ilə qədər çəkə bilər. Bundan əlavə, müxtəlif peyklər rəng dəyişikliklərini fərqli şəkildə ölçür. Bu, o deməkdir ki, onların hər birindən alınan məlumatları çox vaxt ümumiləşdirmək olmur.

Okean rənginin dəyişməsini daha dərindən öyrənmək üçün NASA-nın "Pace" kosmik gəmisinin 2024-cü ilin yanvarında buraxılması planlaşdırılır.



O, planktonları, aerozolları, buludları və okean ekosistemini müşahidə edəcək. Bundan sonra müəyyən fikir söyləmək mümkün olacaq.

İqlim dəyişikliyinin səbəb olduğu istilər isə yenidən Avropaya qayıdır. Yaxın bir neçə gün ərzində Avropada, o cümlədən İsveçrə, Fransa və Polşada yüksək temperatur ilə bağlı xəbərdarlıq edilib. Bu barədə Ümumdünya Meteorologiya Təşkilatının (WMO) sözçüsü Kler Nullis bildirib. İyul ayının tarixin ən isti ayı olaraq qeydə alındığını xatırladan K.Nullis quru havanın bu həftənin əvvəlində İspaniyanın Tenerife şəhərində böyük yanğınlara səbəb olduğunu bildirib.

Sinoptiklər bu gündən İtaliyada +42°C, Fransada +40°C, İsveçrədə +37°C-yə qədər isti olacağını proqnozlaşdırırlar. Həftə sonu Avropada temperaturun kəskin yüksəlməsi ilə isti dalğası baş verəcək. İsveçrə və Fransa meteoroloji qurumlarının məlumatına görə, İspaniyanı əhatə etdikdən sonra mərkəzi Avropaya yayılacaq, ən azı, gələn həftənin sonuna qədər səngiməyəcək. Fransanın cənubunu, İsveçrəni, Almaniyanın cənubunu və İtaliyanın şimalını belə hava ssenarisi gözləyir.

Beləliklə, İtaliya bu yay üçüncü isti dalğası ilə üzləşir. Bu, ilk növbədə, Əlcəzair və Mərakeş vasitəsilə Saharadan gələn isti hava kütlələrinin hərəkəti ilə bağlıdır.

Avropa kimi Amerika və Asiya ölkələri də isti dalğasının təsiri altındadır. Həddən artıq kəskin temperatur nəticəsində Kanadada 600-dən çox meşə yanğını nəzarətdən çıxıb. ABŞ-də Hilari qasırğasının kateqoriyası 4-ə yüksəlib. Yaponiyada rekord istilər qeydə alınır.

Bütün bunlar bəşəriyyəti ekosistemə zərərli təsirləri azaltmağa və yox etməyə çağırır.

***P.ƏFƏNDİ,***
***"Xalq qəzeti"***

# Türk birliyinin Azərbaycan–Özbəkistan qaynaqları

**Böyük mütəfəkkirlər Nizami Gəncəvi və Əlişir Nəvainin yaradıcılığı tarixin bütün dövrlərində türk dünyasının, xüsusilə, Azərbaycan və Özbəkistan xalqlarının misilsiz mənəvi sərvəti sayılıb. Nizami yaradıcılığında geniş yer tutan türk sevgisi Əlişir Nəvai irsində özünün yüksək zirvəsinə çatıb. AMEA-nın Gəncə Bölməsi Nizami Gəncəvi Mərkəzinin direktoru, filologiya üzrə fəlsəfə doktoru Əlimuxtar Muxtarovla müsahibəmiz bu mövzudadır.**



**– Əlimuxtar müəllim, xalqlarımızı birləşdirən ortaq dəyərlər, mənəvi bağlar Dədə Qorqudun vəsflərindən, öygülərindən üzü bəri dostluq və qardaşlığın təməlidir. Özbək şairi Nəvai Nizamidən 300 il sonra dünyaya gəlsə də, onu özünə ustad sayırdı. Sonrakı əsrlərdə də Azərbaycan–Özbəkistan ədəbi-mədəni əlaqələri davam edib və bu gün ən yüksək səviyyədədir.**

– Türkdilli klassik ədəbiyyatın nəhəng siması Mir Əlişir Nəvai dahi Azərbaycan şairi və mütəfəkkri Nizami Gəncəvini özünə ustad sayıb və əsərlərində bunu dönə-dönə vurğulayıb. Hətta o, kiçik mənzuməsində Nizamini Gəncə torpağının yetirdiyi qüdrətli sənətkar hesab edib.

*O, Gəncə torpağında yatan müqəddəs insan*
*Şeir xəzinələri yaratdı kəlamından.*
*Qiymətli incilərlə bəzədi bu aləmi,*
*Yoxdur o incilərin sayı ulduzlar kimi.*
*Nizami, bu dünyada kimi tay tutsam sənə,*
*Şeirinin qüdrətinə bərabər olmaz yenə.*

Məhz bu kök üstündə bitən ədəbi-mədəni əlaqələrimizin sonrakı dövrlərinə aid də çoxlu tarixi faktlar var. Məsələn, burada qardaş özbək ədəbiyyatında Nizami Gəncəviyə ilk cavab yazan sənətkarlardan biri, XIV əsrin sonu–XV əsrin əvvəllərində Heydər Xarəzmini xatırlamaq yerinə düşər. O, özbək dilində yazdığı əsərinin müqəddiməsində qeyd edir. "Bərk həyəcanlı idim. Bu zaman, sanki, Nizami Gəncəvi öz mərhəmətli əlləri ilə qapını açıb içəri girdi. Ayaqlarına yıxıldım. O lütf ilə əlimdən tutub qaldırdı, "dur!" – dedi: "Bu gün dövran türklərin dövranıdır. Uca səslə türkü oxu! Sazını köklə, məhəbbətlə qopuzunu əlinə al, türk nəğməsi yarat! Şeirdə mənim yolum xoşagələndir, gülqənd kimi faydalıdır. Mən yazdığım xətlə qələm işlət! Mən keçən yola qədəm qoy!"

Göründüyü kimi, Nizami Gəncəvi "mənim yolumla get" deyir. Bu yol isə dahi Nizaminin özünün gəldiyi, özündən sonra isə bəşəriyyətə, türk dünyasına, müsəlman aləminə miras qoyduğu xüsusi ilahi nizama məxsus Nizami yoludur ki, o yol da akademik Rafael Hüseynovun təbirincə desək, birləşdirən, qovuşduran, həmrəylik təbliğ edən bir yoldur.

Müstəqillik illərində iki qardaş ölkə arasında əlaqələr daha da genişlənib. Dövlətlərarası münasibətlərin formalaşmasında Ulu öndər Heydər Əliyevin və Özbəkistanın sabiq Prezidenti İslam Kərimovun müstəsna xidmətləri olub. 1996-cı ildə Azərbaycanın Özbəkistanda, 1998-ci ildə isə Özbəkistanın Azərbaycanda səfirlikləri fəaliyyətə başlayıb. Daha əhatəli qardaşlığa vəsilə olan geniş üfüqlər açılıb, ölkə rəhbərlərinin dövlət səfərləri reallaşdlırılıb.

Hazırda Azərbaycan–Özbəkistan əlaqələrinin yüksək səviyyəyə çatmasında Prezidentlər İlham Əliyevin və Şavkat Mirziyoyevin şəxsi münasibətləri də həlledici rol oynayır. 2022-ci il Azərbaycan–Özbəkistan əlaqələrinin inkişafı baxımından xüsusilə məhsuldar olub. Məhz həmin il dövlətimizin başçısının Özbəkistana üç dəfə səfər etməsi Azərbaycan Prezidentinin qardaş ölkə ilə yaxınlığa böyük önəm verməsinin göstəricisidir. İki ölkə arasında bu vaxtadək imzalanmış 160-dan çox sənəd, o cümlədən strateji tərəfdaşlığın dərinləşdirilməsi və hərtərəfli əməkdaşlığın inkişafına dair bəyannamə əməkdaşlıqda möhkəm hüquqi baza yaradıb.

**– Demək, ulu Nizaminin və Nəvainin türklük sevgisi bu gün gerçəkliyə çevrilib...**

– Elədir ki, var. Ədəbi-mədəni əlaqələrin hansı dövrdən başlamasından asılı olmayaraq, Türk dünyasının iki qardaş xalqının dahi mütəfəkkirlərinin ümumtürk mədəniyyətinə xidmətləri şaxələnərək, yüzillikləri geridə qoyaraq müasir dövrdə prezidentlərimizin apardıqları uğurlu siyasət nəticəsində dostluq və qardaşlığımızın tarixin heç bir dövründə çata bilmədiyi ən yüksək zirvəyə çatıb.

Əgər bu gün biz Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasından, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatından, (TÜRKSOY) Türk Birliyindən, Özbəkistanda Heydər Əliyev adına Mədəniyyət Mərkəzindən, Ortaq Türk dilindən, Beynəlxalq Türk Akademiyasından, Türk Dünyasının Mədəniyyət Paytaxtı Şuşadan, 30 illik işğaldan sonra Azərbaycanın Füzuli şəhərində qardaş Özbəkistan Respublikasının töhfəsi olaraq Əmir Teymurun nəvəsi, dünya şöhrətli riyaziyyatçı, astronom Mirzə Uluqbəy adına 1 nömrəli orta məktəb yaradılmasından danışırıqsa, bütün bunlar, təbii ki, Ulu şairlər Nizaminin və Nəvainin böyük diləklərinə və ideallarına uyğundur.



Azərbaycan Milli Elmlər Akademiyasının Prezidenti, akademik İsa Həbibbəyli Azərbaycan–Özbəkistan əlaqələrindən bəhs edərkən yazır: "Azərbaycan–özbək ədəbi əlaqələri qədim tarixə və böyük ənənələrə malik olsa da əsasən, Əlişir Nəvai üzərində qurulmuşdur. Böyük özbək mütəfəkkiri və şairi Əlişir Nəvainin adı və əsərləri Azərbaycan–Özbəkistan ədəbi-mədəni əlaqələrinin bünövrəsini təşkil edir. Belə də demək mümkündür ki, Əlişir Nəvai Azərbaycan–Özbəkistan ədəbi əlaqələrinin rəmzidir. Əlişir Nəvainin böyük ustad hesab etdiyi Nizami Gəncəviyə münasibəti və Məhəmməd Füzulinin Əlişir Nəvai haqqındakı yüksək fikirləri xalqlarımız arasındakı ədəbi əlaqələrin məhək daşına çevrilmişdir."

**– Heç şübhəsüiz ki, bu il avqustun 1–4-də Azərbaycanda keçirilmiş Özbəkistan Mədəniyyəti Günləri, ayın 22–23-də qardaş ölkənin Prezidenti Şövkət Mirziyoyevin ölkəmizə dövlət səfəri münasibətlərin genişlənməsinə daha güclü stimul verəcək. Bu barədə nə deyə bilərsiniz?**

– Özbəkistan Mədəniyyəti günlərində iştirak etmək üçün Azərbaycana 200 nəfərdən artıq ədəbiyyat, mədəniyyət, incəsənət xadiminin gəlməsi, cənab Mirziyoyevin dövlət səfəri çərçivəsində yüksək səviyyəli danışıqlar, Füzuli şəhərində yeni evlərə köçən sakinlərlə görüş, məktəb açılışı və Şuşa səyahəti xalqlarımızın bir-birinə nə qədər yaxın olduğunu dünyaya göstərdi. Eyni zamanda, ilin sonunadək Özbəkistanda keçirilməsi nəzərdə tutulan Azərbaycan mədəniyyəti günləri kimi mədəni tədbirlər hər iki ölkə rəhbərinin siyasi iradəsinin, mədəniyyətə, incəsənətə, ədəbiyyata göstərdiyi hədsiz diqqət və qayğının parlaq təzahürüdür.

Yeri gəlmişkən, bir qrup nümayəndə heyəti Gəncə şəhərinə də gəlmişdi və onlar, qədim Nizami yurdundan xoş təəssüratla ayrıldılar.

***Söhbəti yazdı:***
***Hamlet QASIMOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri,***

**Gəncə**

# "Müqəssir zövq" sənət prizmasında

**YARAT Müasir İncəsənət Məkanının təşkilatçılığı ilə açılmış "Müqəssir zövq" adlı sərgidə gənc rəssamlar – Ağaəli Sədirli, Nailə Dadaşzadə, Mələk Bayramlı, Ağababa Bağırov, Nihad J., Tamerlan Xəlilov, Tamilla Məmmədova, Nigar Səmədzadə, Nərmin Zeynallının əsərləri nümayiş etdirlir.**

İncəsənət insanı başqa canlılardan fərqləndirən, onu ali varlığa çevirən başlıca amillərdən biridir. Gözoxşayan memarlıq abidələri, ruhumuzu oxşayan musiqi, mənalı şeir və rəsm əsərləri mənəviyyatımızı zənginləşdirir. Belə əsərlərin müəllifləri adlarını tarixə qızıl hərflərlə yazdırıb, "ölümsüzləşiblər". Onlar yaradıcılıqları ilə insanları maarifləndiriblər, zövqlərini yüksəldiblər.

Təəssüf ki, dövrümüzdə sənətə qarşı müəyyən laqeydlik yaranıb. Pul qazanmaq istəyi yaradıcılıq anlayışının önünə keçib.Sənət kimi bizə təqdim edilən bəzi materiallarda müəlliflər kütlənin zövqünü yüksəltmək əvəzinə, qazanc gətirən "əsərlər" yaratmağa çalışırlar. Bu da incəsənətin bayağılaşmasına səbəb olur. Beləliklə, yaradıcılıq səyləri maddiyyata məğlub olur.






Bütün dünyada yaşanan bu tendensiya "Artım" layihə məkanında açılan qrup sərgisinin əsas tənqid hədəfidir. Əslində, sərginin adı sosial termindir, insanın zövqünə, lakin cüzi günah duyğusuna verilən addır.

Sərgidə incəsənət və cəmiyyətdəki bayağılıq və zövqsüzlük bilərəkdən təhrif olunan portretlərlə tənqid edilir. Sərgi səthi amilləri qabardaraq, "şişirdilmiş sentimentallıq", "ani emosianal məmnunluq" və "gərəksiz istehlak" anlayışlarını ironik tərzdə önə çıxarır. Nümayiş olunan əsərlərdə cəmiyyətin də qusurları göstərilir.

Məsələn, Ağaəli Sədirli və Nailə Dadaşzadənin "Xoşbəxt cütlük" fotosessiyasında düşdükləri vəziyyətdən məmnun olmayan gənclərin suni şəkildə xoşbəxt görünməyə cəhd etdikləri aydın şəkildə hiss edilir. Bununla müəlliflər sosial şəbəkə istifadəçilərinin paylaşdığı "xoşbəxtlik" göstəricisi olan şəkilləri tənqid edirlər.

Mələk Bayramlının "Həyat, sən nə qəribəsən" fotoşəklində isə insan ömrünün fərqli məqamları göstərilir. Çərçivədəki hər bir element diqqətlə seçilib. Kənara atılmış oyuncaqlar bir vaxtlar insan üçün əhəmiyyətli olan şeylərin böyüdükdən sonra əhəmiyyətini itirməsinə işarədirsə, stolun üstünə tökülmüş qəpiklər maddi sıxıntılara, çoxsaylı dərmanlar fiziki və psixoloji xəstəliklərə işarədir. Müəllif insan həyatının yaxşı və pis günlərini, hər kəsin qarşılaşa biləcəyi çətinlikləri müəyyən elementlərlə nümayiş etdirməyə çalışıb.

Ağababa Bağırovun "Pis vərdişlər" rəsmində isə ətrafda hər kəs, hətta balaca qız uşağı da siqaret çəkir. Bununla rəssam pis vərdişlərə qarşı mübarizə aparmaq lazım olduğunu göstərmək istəyir.

Hər əsəri fərqli mövzuya toxunan, çatışmazlıqları güzgü kimi əks etdirən sərgi sentyabrın 3-nə qədər davam edəcək.

***Rüfət MƏHƏRRƏMOV***



## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi

Ağsu şəhəri,1176 şagird yerlik 2 nömrəli tam orta məktəbin binasının bərpa-gücləndirilməsi və əsaslı təmiri işlərinin satın alınması ilə bağlı

## AÇIQ TENDER ELAN EDİR

Açıq tender iştirakçılarına təklif olunur ki, öz təkliflərini imzalanıb möhürlənmiş ikiqat bağlamada, yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

-iddiaçıların ixtisas göstəricilərinin uyğunluğu, aşağı qiymət, ödəniş şərtləri, müqavilənin vaxtında yerinə yetirilməsi və təminat verilən istismar müddəti.

Açıq tender proseduru ilə əlaqədar məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət etmək lazımdır.

Əlaqələndirici şəxs – Z.Quliyev.

Ünvan- Bakı şəhəri, Nərimanov rayonu, Y.Bakuvi küçəsi 18.

Telefon- (+99412) 465 -73- 48 (134).

Maraqlananlar açıq tender prosedurunun əsas şərtlər toplusunu 2000,0 (iki min) manat məbləğdə iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra yuxarıdakı ünvandan ala bilərlər. İştirak haqqı heç bir halda geri qaytarılmır.

Bankın adı - "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı
Kod - 805603
VÖEN - 9900001881
M/h - AZ03NABZ01350100000000002944
S.W.I.F.T. İBAZAZ 2X
H/h - AZ88IBAZ38030019441856517211
VÖEN - 1500016711

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir. 2023-cü il avqustun 28-dən sonra alınmış arayış qəbul ediləcəkdir);
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, onda notarial təsdiq edilməsi mütləqdir);
- iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə bütün fəaliyyəti dövrü) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış (2023-cü il avqustun 28-dən sonra alınmış arayış təqdim edilməlidir);
- iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;
- iddiaçının tikinti işlərinin həyata keçirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;
- tender təklifini və satınalma müqaviləsini imzalamaq salahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);
- iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi oqranı və ya müvafiq kommerisya məhkəməsi tərəfindən təqdim olunmuş arayış. 2023-cü il avqustun 28-dən sonra alınmış arayış təqdim edilməlidir);
- kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa);
- iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN Xidmət" Mərkəzlərindən 2023-cü il avqustun 28-dən sonra alınmış arayış qəbul ediləcəkdir);
- tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər, tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycan nümayəndəliyinin olmasını təsdiqləyən sənədlər;
- iddiaçı tərəfindən doldurulmuş tenderin əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli, təsdiqedici sənədlər əlavə olunmaqla (əlavə 1) təqdim olunması məcburidir. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlılığının olması barədə məlumatlar və müvafiq sertifikatlar əlavə edilməlidir. Müvafiq məlumatlar tələb olunan təsdiqedici sənədlər əlavə olunmaqla təqdim edilməlidir);
- iddiaçı baş podratçı kimi analoji işlər üzrə bağlanmış müqavilənin təsdiq olunmuş surətini təqdim etməlidir (oxşar işlərə dair son 2 ildə bağlanmış müqavilələrin surətləri (ƏŞT-nin əlavə 1-nə uyğun);
- iddiaçının maddi -texniki bazası (sifarişi yerinə yetirilməsi imkanı) haqqında məlumat (ƏŞT-nin əlavə 1-nə uyğun);
- sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilində tərcümə edilməlidir);
- iddiaçının tender təklifi (tender təklifinin qüvvədə olma müddəti zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü);
- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 (otuz) bank günü çox olmalıdır).

İddiaçılar tenderlə bağlı sualları satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak üçün yuxarıda qeyd olunan sənədləri 3 oktyabr 2023-cü il saat 15.00-a, tender təklifi və tender təklifinin bank təminatını isə 11 oktyabr 2023-cü il saat 11.00-dək yuxarıda göstərilən ünvana təqdim etməlidirlər.

İddiaçıların təklifləri 12 oktyabr 2023-cü il saat 15.00-da Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# Xalq qəzeti

Xalqın qəzeti!

№ 185 (30301) 30 avqust 2023-cü il, çərşənbə

veb-sayt: www.xalqqazeti.az


Texnologiya yenilikləri



## Uşaqlar smartfonların hədəfində

***Bu gün körpələr qələm tutmağı öyrənməzdən əvvəl smartfon və planşetdən istifadəyə meyil edirlər.***

Yaponiyanın Tohoku Universitetinin mütəxəssisləri aşkar ediblər ki, azyaşlı uşaqlar cizgi filmlərinə baxdıqları və smartfonlardan istifadə etdikləri zaman onların inkişaf, sosial və özəl bacarıqlarında problemlər yaranır. Alimlərin son 4 ildə apardıqları tədqiqatlar zamanı 7 min körpənin bacarıqları təhlil olunub. Həmin körpələrin valideynləri uşaqların hər gün saatlarla televizora baxdıqlarını, smartfon və ya planşetdə oyun oynadıqlarını qeyd ediblər.

Ümumi sorğu nəticəsində məlum olub ki, uşaqların inkişaf səviyyələrini müqayisə etdikdən sonra alimlər belə nəticəyə gəliblər ki, 1 yaşına kimi olan uşaqların smartfon və ya planşetlərdən uzun müddət istifadə etmələri onların inkişafının ləngiməsinə səbəb olur. Həmin uşaqlar digərləri ilə müqayisədə daha passiv olur və ünsiyyətdə çətinlik çəkirlər.

## Süni intellekt hər gün 34 milyon şəkil çəkir

***"Everypixel" adlı servis 2022-ci ildən süni intellekt tərəfindən tərtib edilmiş fotoların sayını müəyyənləşdirməyə başlayıb.***



Bəzi statistik məlumatları və faktları təhlil etdikdən sonra servisin əməkdaşları belə nəticəyə gəliblər ki, bu müddət ərzində süni intellekt vasitəsilə 15 milyard foto tərtib edilib. İnsanların fərdi şəkildə bu qədər foto çəkmələri üçün isə 150 il vaxt lazım olub. Belə ki, ilk foto 1826-cı ildə çəkilib və həmin ildən 1975-ci ilə kimi insanlar fərdi şəkildə bu qədər sayda foto çəkiblər.

Keçən ilin aprel ayında "OpenAI" şirkəti "DALL-E 2" adlı süni intellekt sisteminin tətbiqinə başladığı andan istifadəçilər gün ərzində bu sistem vasitəsilə, təxminən, 34 milyon foto tərtib edirlər.

***Səadət RZAYEVA, "Xalq qəzeti"***

# Təbiət sınağa çəkir

## *Leysanın fəsadları aradan qaldırılır*

**Ölkəmizdə davam edən qeyri-sabit hava şəraiti bir sıra ərazilərdə fəsadlar törədib. Dünən saat 21:29-a olan məlumata əsasən, Xızıda sel suları nəticəsində yaranan palçıq kütləsi Giləzi-Xızı avtomobil yolunun hərəkət hissəsinə dolub. Bu səbəbdən hazırda yol bağlanıb.**



Fövqəladə Hallar Nazirliyinin məlumatına görə, Xızı-Giləzi yolunun Xızı rayonu ərazisindən keçən hissəsində bir neçə avtomobil güclü yağışın yaratdığı lilli və palçıqlı sel suyu nəticəsində dərəyə yuvarlanıb və vətəndaşlar köməksiz vəziyyətdə qalıb. Bundan dərhal sonra həmin nazirliyin Dövlət Yanğından Mühafizə Xidmətinin qüvvələri əraziyə cəlb olunub. Əlverişsiz hava şəraitinə və günün qaranlıq vaxtı olmasına baxmayaraq, operativ olaraq həyata keçirilən xilasetmə əməliyyatı nəticəsində yanğınsöndürən-xilasedicilər tərəfindən 2 qadın dərəyə düşmüş nəqliyyat vasitəsindən çıxarılaraq xilas edilib.

Fövqəladə Hallar Nazirliyinin əraziyə cəlb edilmiş qüvvələri tərəfindən əməliyyat şəraitinə uyğun olaraq Xızı-Giləzi yolunun qeyd edilən hissəsində çətin vəziyyətdə qalan digər avtomobillər də təhlükəsiz əraziyə çıxarılıb.

Goranboy rayonunun Börü, Gürzallar kəndlərində, Aşağı və Yuxarı Ağcakənd qəsəbələrində isə dağlardan axıb gələn sel sularının yaratdığı fəsadların aradan qaldırılması istiqamətində işlər aparılır.

Aldığımız məlumata əsasən, leysan yağışlardan sonra Aşağı Ağcakənd qəsəbəsində və yaxın kəndlərdə sel, yağış suları həyətyanı sahələrə, evlərin zirzəmilərinə dolub, əkin sahələrinə zərər dəyib. Sel suları həyətlərdəki su nasoslarını sıradan çıxarıb, bəzi evlərin qapı və divarlarına zərər yetirib.

Goranboy Rayon İcra Hakimiyyətindən bildirilib ki, selin yaratdığı fəsadların aradan qaldırılması üçün Fövqəladə Hallar Komissiyasının üzvləri həmin yaşayış məntəqələrində olublar, dəymiş ziyanın miqdarının hesablanmasına başlanılıb.

Qeyd edək ki, güclü yağışlardan sonra hazırda Goranboy rayonu ərazisindən axan Gorançay və Qaraçay çaylarında bolsululuq müşahidə olunur.

Göygöl rayonunda da leysan yağışlardan sonra şəxsi təsərrüfatlara zərər dəyib. Rayondan verilən məlumata görə, leysan yağışlar nəticəsində Göygöl şəhərinin bir neçə küçəsində yerləşən fərdi evlərə, həyətyanı sahələrə yağış suları dolub. Qeyri-sabit hava şəraiti səbəbindən əkin sahələrinə də zərər dəyib. Hazırda yaranmış problemin aradan qaldırılması istiqamətində işlər aparılır.

Qəbələ rayonunda isə iri gövdəli ağac küləyin təsirindən Qaraməryəm-İsmayıllı-Şəki avtomobil yolunun Qəbələ şəhəri ərazisindən keçən hissəsinə aşmaqla avtomobillərin hərəkətinə maneə yaradıb. Xilasedicilər aşmış ağacı hissələrə kəsib yoldan kənarlaşdıraraq avtomobillərin təhlükəsiz hərəkətini təmin ediblər.

Dünən axşam saatlarında Oğuz şəhərinə yağan leysan yağışı nəticəsində isə bəzi evlərin həyətlərinə və zirzəmilərinə su dolub.

Dünən saat 16:00-a olan məlumata əsasən, Maştağa, Binə, İsmayıllı, Daşkəsən, Gədəbəy, Gəncə, Göygöl, Oğuz, Xaltan, Şəki, Şamaxı, Qrız, Şahdağda şimşək çaxıb, leysan xarakterli yağış yağıb.

Hidrologiya Mərkəzinin direktoru Asif Verdiyevin sözlərinə görə, bölgələrdə avqust ayının 30-dək qeyri-sabit hava şəraiti davam edəcək. Belə ki, yağış yağacağı, şimşək çaxacağı, ayrı-ayrı yerlərdə leysan xarakterli yağış yağacağı gözlənilir. Gözlənilən intensiv leysan yağışları ilə əlaqədar respublikanın dağ çaylarında, Böyük Qafqaz, Kiçik Qafqaz, eyni zamanda Lənkəran, Astara bölgəsi, o cümlədən, Şərqi Zəngəzur və Qarabağ İqtisadi rayonunun ərazisindən axan bəzi dağ çaylarından qısamüddətli daşqın və sel keçəcəyi proqnozlaşdırılır.

***"Xalq qəzeti"***

İdman xəbərləri

## Günay Məmmədzadə bürünc medal qazanıb

**Azərbaycan şahmatçısı Günay Məmmədzadə Hindistanın MGD1 komandasının heyətində Almaniyada rapid üzrə dünya çempionatının bürünc mükafatçısı olub.**



12 turun yekun nəticəsinə əsasən MGD1 komandası 18 xal toplayıb və yarışı üçüncü pillədə başa vurub. Rapid növü üzrə dünya çempionatında qələbəni Bakıda keçirilən Dünya Kubokunun finalçısı Rameşbabu Praqnanandanın da şərəfini qoruduğu "WR Chess" bayram edib. Qalib komanda 22 xalla bütün rəqibləri qabaqlayıb. Dünya çempionu Vişvanatan Anandın çıxış etdiyi "Freedom" 20 xalla ikinci yerlə kifayətlənib.

## "Neftçi" 4-cü dəfə qalib olub




**Macarıstanda təşkil olunan 3x3 basketbol üzrə Dünya Qadın Seriyasının Debretsen mərhələsində təmsilçimiz "Neftçi" uğurla çıxış edib.**

Basketbolçularımız final oyununda Almaniyanın "Düsseldorf Zoos" klubu ilə qarşılaşıblar. Oyuna üstün başlayan "Neftçi", yekunda rəqibi üzərində 21-10 hesabı ilə qələbə qazanaraq Debretsen mərhələsinin qalibi olub. Mərhələnin ən dəyərli oyunçusu (MVP) "Neftçi" klubunun üzvü Bryana Freyzer seçilib. Bu çempionluqla "Neftçi", Dünya Qadın Seriyasında 4-cü dəfə mərhələ qalibi olub.

## IBSA dünya oyunlarında 4 mükafat

**İngiltərənin Birmingem şəhərində keçirilən IBSA dünya oyunları başa çatıb.**




Mötəbər yarışda ölkəmiz cüdo və şahmat idman növlərində təmsil olunub. Paracüdoçularımız yarışı iki gümüş, bir bürünc medalla başa vurublar. Şahmatçıların yarışında isə komandamız 5-ci yeri tutub.

Qeyd edək ki, dünya oyunlarında cüdo üzrə ölkəmizi kişilərin mübarizəsində İlham Zəkiyev (+90 kiloqram), qadınlarda isə Xanım Hüseynova (70 kiloqram), Şəhanə Hacıyeva (48 kiloqram) təmsil ediblər.

## Yekaterinburqda komandamızın növbəti uğuru



**Rusiyanın Yekaterinburq şəhərində keçirilən Beynəlxalq Universitet İdman Festivalında Azərbaycan komandası daha 4 medal qazanıb.**

Gənclər və İdman Nazirliyindən "Xalq qəzeti"nə bildirilib ki, növbəti qızıl medal taekvondo üzrə qazanılıb. Rəqibləri üzərində inamlı qələbə qazanan Səyyad Dadaşov (54 kq) qalib adına layiq görülüb. Digər dayanq ustalarımız Vaqif Hacıyev (68 kq) və Eltac Qafarov (80 kq) 2-ci, Pərviz İsgəndərov (63 kq) üçüncü yerləri tutublar.

Bununla da, komandamızın əldə etdiyi medalların sayı 26-ya çatıb.

Qeyd edək ki, avqustun 31-dək davam edəcək yarışda Azərbaycanı 69 idmançı təmsil edir.

***Leyla SABİRQIZI, "Xalq qəzeti"***

## Tovuzda ustad aşıqlar yad edilib

**Tovuzda ustad aşıqlar Əkbər Cəfərovun 90, Əlixan Niftəliyevin isə 80 illiyinə həsr olunmuş "Sənətə bağlı ömür" adlı yubiley tədbiri keçirilib.**



Tədbirdə Azərbaycan Aşıqlar Birliyinin sədri, Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı hər iki ustadın bənzərsiz sənətkarlıq xüsusiyyətlərindən söz açaraq deyib ki, bu iki böyük sənətkar Azərbaycan aşıq sənətini təkcə Tovuz və ölkəmiz miqyasında deyil, bütövlükdə Türk dünyasında, beynəlxalq miqyasda çox ləyaqətlə təmsil ediblər.

Tovuz RİH başçısı Məmməd Məmmədov son zamanlar ölkəmizdə aşıq sənətinə göstərilən qayğı və diqqətdən danışıb.

Daha sonra Milli Məclisin deputatı Arzu Nağıyev, Əməkdar elm xadimi, professor Qəzənfər Paşayev, həmçinin Tovuz Xeyriyyə Cəmiyyətinin sədri Musa Süleymanov, tanınmış şair Ramiz Qusarçaylı və digər tədbir iştirakçıları çıxış edərək saz-söz sənətkarları Ə.Cəfərov və Ə.Niftəliyevin Azərbaycan aşıq sənətinə verdikləri töhfələrdən danışıblar.

Yubiley tədbiri aşıqların ifaları ilə davam edib. Sonda rəssam Fərman Hüseynov aşıq Əkbər Cəfərovun portretini onun ailəsinə hədiyyə edib. Aşıqların ailə üzvləri aşıq sənətinə, mədəniyyətə verilən yüksək qiymətə görə ölkə rəhbərliyinə dərin minnətdarlıqlarını bildiriblər.

***Fidan SALMANOVA, "Xalq qəzeti"***

Sağlamlıq

## Tez durarsan – gümrah olarsan



**"Apple" şirkətinin baş direktoru Tim Kuk hər gün saat 4-də oyanıb elektron poçtuna baxdığını bildirib. Onun kolleqaları isə ən tezi 6:30-da yuxudan oyanırlar. Məşhur teleaparıcı Opra Uinfri isə saat 6.00-da oyanıb meditasiya, yoqa ilə məşğul olur və planlar qurur, iş gününə 8-də başlayır.**

Bütün alimlər, dinlər səhər erkəndən oyanmağın bədən və beyin üçün faydalı olduğunu deyir. Elmi araşdırmalar səhər oyanma vaxtı ilə həyatda və işdə uğurun bir-birinə təsiri olduğunu sübut edib. Amma, yadda saxlamaq lazımdır ki, erkən oyanma hər kəsə işdə uğur və yüksəliş vəd etmir. Hər adama səhər oyanmaq uyğun deyil, hər şey genlərdən asılıdır. Elə insan var ki, səhər, gündüz koqnitiv qabiliyyəti, diqqəti daha güclü olur. Elə insan var ki, əksinə səhərlər oyansa da, diqqətini cəmləyə bilmir.

İnsanın səhər və axşamkı halına təsir edən 350 gen mövcuddur. Çoxsaylı elmi işlər göstərib ki, müxtəlif insanlar bioloji saat baxımından günün müxtəlif vaxtlarında özlərini fərqli hiss edirlər.

Gündüz özünü yaxşı hiss etməyənlər, yəni bu geni olmayanlar səhər tez oyandıqda əsəbi, gərgin olur, xroniki yuxusuzluqdan əziyyət çəkir. Belələrinin çəkisi arta, sonra ürək-damar, təzyiq xəstəlikləri yarana bilər. Səhər 9-dan sonra oyanan bəzi adamlar günortadan sonra özlərini daha yaxşı hiss edirlər.

***Z.HÜSEYNLİ, "Xalq qəzeti"***

Proqnoz

## Hava yağışlı olacaq



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən avqustun 30-da Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə bəzi yerlərdə yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Arabir güclənən şimal-qərb küləyi əsəcək, gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq. Gecə 20-23°, gündüz 24-28° isti olacaq. Atmosfer təzyiqi 758 mm civə sütunundan 762 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 70-80, gündüz 50-60 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 25-26°,Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 26-27° isti olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv və güclü olacağı, dolu düşəcəyi ehtimalı var. Axşam yağıntılar tədricən kəsiləcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 19-23°, gündüz 24-29°, dağlarda gecə 9-14°, gündüz 14-19° isti olacaq.

***Q. QASIMOV, "Xalq qəzeti"***

## ALLAH RƏHMƏT ELƏSİN

"Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov "Azərkitab" Mərkəzinin rəhbəri

**MİRİSRAFİL SABİR HƏSƏNOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

"Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov və cəmiyyətin kollektivi texniki departamentin direktor müavini

**İLQAR ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4868
SİFARİŞ 2182
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır 00:00